EVDƏ QAL,
SAĞLAM QAL!

**Siyasi partiyaların milli həmrəylik BƏYANATI**


Bax 7

**Meral Akşener: Səninləyik Azərbaycan!**


Bax 7



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 119 (6084) 16 iyul 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: Ermənistan ordusu layiqli cavabını aldı!



*"Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu"*

Bax 2

## Əli Əhmədov: "Onların əməlləri arxadan vurulan bıçağı xatırladır"



*Baş nazirin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində ötən gün Bakı şəhərində Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilən yürüş - mitinqdə təxribat törədilməsinə münasibət bildirib: "İyul ayının 14-də gecə saatlarında Azərbaycan gənclərinin Ordumuza dəstək məqsədilə çoxminli yürüşü...*

Bax 6

## Prezidentin köməkçisi Hikmət Hacıyev televiziya debatında Zöhrab Mnatsakanyanın yalanlarını ifşa edib




Bax 6

*"Al Jazeera İnternational" beynəlxalq televiziya kanalında Prezidentin köməkçisi Hikmət Hacıyevin Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan ilə debatı olub. AZƏRTAC xəbər verir ki, Ermənistan xarici işlər naziri Ermənistan-Azərbaycan...*

## Erməni nəşri "Aravot": "Buradan Azərbaycan qalib kimi çıxacaq"

"Müttəfiq nə deməkdir? Bir sözlə, Ermənistan KTMT-na daxil olmaqla heç bir səmərə əldə etməyib. Lakin KTMT-dan çıxarsa, bizim ölkə xələl görəcək, ona görə ki, bu addım Rusiyada bütün üzə çıxan nəticələri ilə (məsələn, qaza...



Bax 7

## Rasim Quliyev: "Bu gün Azərbaycan gözəgörünən və görünməyənlə mübarizə aparır"

*"Vətəndaşlarımız pandemiyaya qarşı anlayışlı olmağa məcburdur, əks halda hədəf ola bilərik". Bunu SİA-ya açıqlamasında Resurs Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev deyib. Onun sözlərinə görə, hazırda bütün dünyanın koronavirus epidemiyasına qarşı mübarizə apardığı bir dövrdə ölkəmizdə də Azərbaycan vətəndaşlarının sağlamlığını...*



Bax 11

## Arda Turana Almaniyadan təklif

Türkiyə milli komandasının sabiq üzvü Arda Turana daha bir klubun maraq dairəsindədir. Qol.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, Almaniyanın "Hannover" klubu 33 yaşlı yarımmüdafiəçini heyətinə qatmaq istəyir. 2-ci Bundesliqa...



Bax 16

**Vüqar Rəhimzadə: Orduya dəstək hər bir vətəndaşın borcudur**


Bax 10

**Müdrikliyin işığında Aydın Quliyev - 60**


Bax 12

**"Meydan TV" - yağı düşmənə qucaq açan xəyanət girdabı**


Bax 14

# İlham Əliyev: Ermənistan ordusu layiqli cavabını aldı!

*"Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu"*



## Prezidentin Mətbuat Xidmətinin məlumatı

İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev döyüş zamanı müdafiənin ön xəttində olarkən qəhrəmancasına şəhid olmuş general-mayor Polad Həşimovun anası Səmayə xanım və polkovnik İlqar Mirzəyevin oğlu Elvinlə telefonla danışıb. Dövlətimizin başçısı şəhidlərin ailə üzvlərinə dərin hüznlə başsağlığı verib, onlara Allahdan rəhmət və səbir diləyib. Prezident İlham Əliyev qeyd edib ki, Vətən uğrunda həlak olmuş hərbi qulluqçularımızın qəhrəmanlığı heç vaxt unudulmayacaq, onların qisası alınıb və alınacaq, qanları yerdə qalmayacaq.

Səmayə Həşimova və Elvin Mirzəyev Prezident İlham Əliyevə telefon zənginə və başsağlığına görə minnətdarlıqlarını bildiriblər.

***İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclasda nitq söyləyib.***

Prezident İlham Əliyevin nitqi

- Hər il olduğu kimi, biz bu il də plan üzrə altı ayın sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Bu ənənə öz bəhrəsini verir. Çünki bu toplantılarda həm görülmüş işlər, buraxılan nöqsanlar təhlil olunur, eyni zamanda, gələcək fəaliyyətimiz üçün praktiki addımların atılması müəyyən edilir. Təbii ki, hər ilin əvvəlində il ərzində görüləcək işlər haqqında qərar verilir, tədbirlər planı təsdiq olunur. Ancaq həyat yerində durmur. Həyat dəyişir və yeni çağırışlar üzə çıxır. Belə olan halda əlbəttə ki, biz öz planlarımıza da düzəlişlər etməliyik və edirik. Bu düzəlişlərin əsas məqsədi ölkəmizin uğurlu inkişafını sürətləndirmək, bunu təmin etməkdir. Ona görə biz bu gün də ənənəvi olaraq bu məsələləri müzakirə edəcəyik.

Ancaq bundan əvvəl son günlər ərzində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş hadisələr haqqında ictimaiyyətə məlumat vermək istərdim. Bildiyiniz kimi, iyulun 12-də erməni silahlı qüvvələri Azərbaycan mövqelərinə artilleriya atəşi ilə zərbə endirmişlər və bu gözlənilməz zərbə nəticəsində bizim hərbçilərimiz həlak olub, yaralanıb. Ondan sonra hər dəfə olduğu kimi, Ermənistan bu təxribatın səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd etmişdir, halbuki bu, heç bir məntiqə sığmır. Bizim Ermənistanla Azərbaycanın dövlət sərhədində hər hansı bir hərbi məqsədimiz yoxdur. Bildiyiniz kimi, bir neçə il bundan əvvəl mənim tapşırığımla sərhədin bir hissəsinin qorunması Sərhəd Qoşunlarına həvalə olunubdur. Bu da onu göstərir ki, bizim bu istiqamətdə hər hansı bir hərbi planımız yoxdur və prinsip etibarilə hərbi məqsədlər nöqteyi-nəzərdən bunun heç bir əhəmiyyəti yoxdur. Üstəgəl Ermənistan dırnaqarası "Azərbaycan diversiyasını" əsaslandırmaq üçün çox ağılsız və hesab edirəm ki, onların səviyyəsinə uyğun səbəb göstərməyə cəhd etdi. Guya ki, Azərbaycanın hərbi qulluqçuları - iki nəfər UAZ maşını ilə Ermənistan sərhədini pozaraq hərbi diversiya törətməyə cəhd etmişlər. Sual olunur, hansı ölkənin ordusu hücumu iki zabit və əsgərlə UAZ maşını ilə təşkil edir? Bəlkə Ermənistan ordusu belə "müdrik" hərbi əməliyyatlar hazırlamaqla məşğuldur? Ancaq Azərbaycan Ordusu və dünyanın heç bir ordusu belə ağılsız addım atmaz. Yəni, bu cəfəng versiyanın Ermənistan tərəfindən təqdim edilməsinin əsas səbəbi günahı bizim üzərimizə yıxmaqdır, hər dəfə olduğu kimi. Ancaq bu dəfə buna heç kim inanmayıb. Hərbi mütəxəssis olmaq lazım deyil ki, bu cəfəng versiyaya insanlar inansın. Əsl vəziyyət ondan ibarət idi ki, bir daha demək istəyirəm bizim hərbi postumuz artilleriya atəşi ilə vurulub və bu qəfil çirkin addım nəticəsində hərbçilərimiz həlak olublar. Dərhal mən bütün müvafiq göstərişlər verdim. Azərbaycan Silahlı Qüvvələrinə göstəriş verdim ki, hərbçilərimizin intiqamı alınmalıdır, onların qanı yerdə qalmamalıdır və düşmənə elə bir zərbə endirilməlidir ki, onu uzun illər bundan sonra yaddan çıxarmasın. Eyni zamanda, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti qurumlara göstəriş verilib ki, bütün beynəlxalq təşkilatlar Ermənistanın bu diversiyası ilə əlaqədar məlumatlandırılsın, bu hadisə haqqında dolğun məlumat verilsin. Mən dərhal Təhlükəsizlik Şurasının toplantısını çağırdım və orada qeyd etdim ki, operativ vəziyyət imkan verən kimi, biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin nümayəndəliklərində işləyən hərbi attaşeləri, jurnalistləri, əgər belə istək olarsa, səfirliklərin digər nümayəndələrini həmin bölgəyə dəvət edəcəyik, onları bu vəziyyətlə tanış edəcəyik və onlar yerində görəcəklər ki, bu təxribatı törədən kimdir və bu təxribat nəticəsində həlak olanlar hansı ordunun əsgərləridir.

Bir daha demək istəyirəm ki, görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Mən Təhlükəsizlik Şurasının toplantısında artıq demişdim ki, Azərbaycan əsgər və zabitlərinin qanı yerdə qalmamalıdır. Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu. Ancaq buna baxmayaraq, dünən və srağagün onlar tərəfindən yenidən çirkin addımlar atılmışdır, növbəti dəfə hərbi təxribat törədilmişdir və bu təxribat nəticəsində yenə də bir neçə hərbçimiz, o cümlədən general Polad Həşimov, polkovnik İlqar Mirzəyev həlak olmuşlar.

Bu gün səhər saatlarında general Polad Həşimovun anası Səmayə xanımla telefonla danışdım, ona başsağlığı verdim, Allahdan səbir dilədim. Onu əmin etdim ki, oğlunun, bizim qəhrəmanımızın qanı yerdə qalmayıb, onun qisası alındı və bundan sonra da alınacaqdır. Belə analara eşq olsun ki, xalqımız, dövlətimiz üçün bu cür övladlar, igidlər yetişdirib.

Bildirməliyəm ki, general Polad Həşimov orduda çox böyük hörmətə malik olan bir insan idi. Aprel döyüşlərində öz rəşadətini göstərmişdir. Mənim tərəfimdən iki dəfə yüksək dövlət ordeni ilə təltif edilmişdir. Mənim tərəfimdən ona general rütbəsi verilmişdir. Polkovnik İlqar Mirzəyevin oğlu Elvinlə bu gün söhbət zamanı atasının qəhrəmanlığı haqqında danışdım. Dedim ki, o, atasına oxşamalıdır, bizim bütün gənclərimiz qəhrəmanlarımıza oxşamalıdırlar. Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib. Onların ailə üzvlərinə, yaxınlarına bir daha başsağlığı verirəm. Eyni zamanda, son günlər ərzində həlak olmuş bütün insanların yaxınlarına, qohumlarına başsağlığı verirəm. Allah şəhidlərimizə rəhmət eləsin, Allah yaralı hərbçilərimizə şəfa versin. Təklif edirəm ki, bu günlər ərzində torpaq uğrunda qəhrəmancasına həlak olmuş hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilsin.

Allah rəhmət eləsin!

Bildirməliyəm ki, bu çirkin əməldən sonra mənim göstərişimlə qisas əməliyyatının ikinci fazası başlamışdır. Son iki gün ərzində düşmənə növbəti dəfə sarsıdıcı zərbələr endirildi. Bizdə olan məlumata görə, onlarla erməni hərbçi məhv edildi, onların sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın edildi. O cümlədən onların bəhanə kimi gətirdiyi məlum postun da bütün infrastrukturu darmadağın edildi, bu post artıq mövcud deyil. Düşmənin texnikası, silah-sursat anbarları, dayaq məntəqələri, avtomaşınlar, sisternlər, canlı qüvvənin yerləşdiyi yerlər Azərbaycan Ordusu tərəfindən dəqiq və sərrast atəşlə məhv edilmişdir. Əməliyyat haqqında bundan artıq demək istəməzdim. Çünki bu, hərbi sirdir, məxfi xarakter daşıyır. Ancaq biz bəzi videogörüntüləri paylaşdıq. Bu videogörüntülər Azərbaycan Ordusu tərəfindən keçirilmiş əməliyyatların cüzi bir hissəsidir. Nə mümkün olubsa, onu göstərmişik, hesab edirəm ki, indiki mərhələdə bundan artıq informasiya vermək düzgün olmazdı. Ancaq bu videosüjetlər açıq-aydın göstərir ki, düşmənin infrastrukturu, canlı qüvvəsi, səngərləri, postları, dayaq məntəqələri nə qədər dəqiqliklə məhv edilir.

Deməliyəm ki, son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik. İki il bundan əvvəl - 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı.

Bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir. Bunu Azərbaycan xalqı bilir. Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir. Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar. Əksinə, əgər biz istəsəydik, bu gün Ermənistanın o ərazisində torpaqların böyük hissəsi nəzarətimizə keçə bilərdi. Ancaq bizim qarşımızda belə məqsəd dayanmır.

**Ardı Səh. 3**

# İlham Əliyev: Ermənistan ordusu layiqli cavabını aldı!

*"Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu"*

Əvvəli Səh. 2



Ermənistan-Azərbaycan dövlət sərhədində vəziyyətlə bağlı məlumat artıq verildi və bu gün operativ vəziyyət bizi tamamilə qane edir. Biz istənilən vaxtda, lazım olan vaxtda bu günlərdə yaradılmış əlavə imkanlardan, o cümlədən döyüş məntəqələrinin yeni yerləşməsindən istifadə edib öz sözümüzü deyəcəyik. Aprel döyüşlərində olduğu kimi, mənfur qonşu bu dəfə də ən çirkin əməllərə əl atdı. O da nədən ibarətdir? Bizim kəndlərimizi atəşə tutdu və bunun nəticəsində 76 yaşında ağsaqqal Əziz Əzizov həlak olmuşdur. Bu, bir daha onu göstərir ki, Ermənistan faşist dövlətdir.

Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz. Torpaqların itirilməsi bir daha demək istəyirəm ki, o vaxt hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanətidir. O vaxt Azərbaycanda vəziyyəti qarışdırmaq, hərc-mərclik salmaq, hakimiyyəti yıxmaq üçün onlar Qarabağ bölgəsində xəyanət etmişlər. O vaxt o bölgədə fəaliyyət göstərən Azərbaycan Xalq Cəbhəsinin batalyonları və onların komandirlərinin bir neçəsi xəyanət etmişlər. Baxmayaraq ki, onların tərkibində cəsur və Vətənə bağlı insanlar döyüşürdülər, öz canlarını qurban vermişlər. Ancaq o vaxt Azərbaycan Xalq Cəbhəsinin başında dayananlar nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək üçün torpaqları satdılar və beləliklə, o vaxtkı hakimiyyəti yıxa bildilər. O vaxt bizim torpaqlarımızın itirilməsi bilavasitə Azərbaycan Xalq Cəbhəsinin xəyanətkar fəaliyyəti ilə bağlıdır. Ona görə Ermənistan hər zaman bu imkanlardan faydalanıb. İndi də özləri gizlətmirlər ki, o vaxt Azərbaycanda xaos, anarxiya idi, onlar bundan istifadə edib torpaqlarımızı zəbt etdilər. O vaxt Azərbaycan Xalq Cəbhəsi Gəncəni bombalayırdı, Azərbaycan əsgərlərini əsir götürmüşdü. Orada torpaq əldən gedirdi, burada isə onlar hakimiyyət uğrunda mübarizə aparırdılar və əfsuslar olsun ki, öz çirkin əməllərinə nail oldular. Hakimiyyətə gəldilər, daha çox torpaq verdilər, sonra da biabırcasına qaçıb gizləndilər, fərarilik etdilər. Bütün bunlar bizim tariximizdir.

Amma Ermənistan ancaq əliyalın insanlara qarşı vuruşub, qocalara, uşaqlara qarşı soyqırımı törədib. Xocalı soyqırımını törədənlər Ermənistanın siyasi rəhbərliyidir, keçmiş hakimiyyətidir, keçmiş iki prezidentidir hərbi cinayətkarlar. Xocalı soyqırımı zamanı bu cəlladlar tərəfindən 106 qadın, 63 uşaq öldürüldü. Əziz Əzizov da həmin erməni faşistlərin əməlləri nəticəsində həlak olmuşdur. Bildirməliyəm ki, ağsaqqal Əziz Əzizovun da qanı yerdə qalmayıb, qarşı tərəfə adekvat cavab verilib və veriləcəkdir və heç kimdə bu haqda şübhə olmasın.

Mən hesab edirəm ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, Ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi.

O ki qaldı bu erməni hərbi təxribatının səbəblərinə, əlbəttə ki, bu səbəbləri biz tam dəqiqliklə bilə bilmərik, bunu həyat göstərər. Ancaq bir çox məntiqli ehtimallar mövcuddur və bu haqda mən Azərbaycan vətəndaşları ilə öz fikirlərimi bölüşmək istərdim. Hesab edirəm ki, birinci səbəb Ermənistanda hazırda mövcud olan siyasi və iqtisadi böhrandır. Bu, heç kimə sirr deyil. Xaricdən maliyyələşən, xarici fondlardan maaş alan, onlardan təlimat alan və onların çevriliş texnologiyalarından bəhrələnən dəstə iki il bundan əvvəl hakimiyyəti qanunsuz yollarla zəbt edəndən sonra bir çox vədlər vermişdi. Ermənistanda çiçəklənmə, cənnət olacağını vəd vermişdi. Bəyan etmişdi ki, qısa müddət ərzində Ermənistana on milyardlarla dollar sərmayə qoyulacaq, qısa müddət ərzində Ermənistan əhalisi 5 milyona çatacaq - halbuki indi Ermənistan əhalisi 2 milyondan azdır, - Ermənistanda bütün həyat yenidən qurulacaq, ədalət olacaq, demokratiya inkişaf edəcək, insan haqları qorunacaq və digər vədlər vermişdi. Erməni xalqı Sarkisyan rejimindən o qədər bezmişdir ki, o, kimə istəsən inanardı. O çevrilişi təşkil edənlərin başında başqa adam olsaydı, ona da gedib səs verəcəkdi. Çünki Sarkisyan rejiminə nifrət həddindən artıq böyük idi və bundan istifadə edib hakimiyyəti zor gücü ilə zəbt etmiş bu qruplaşma bu vədləri sonra yerinə yetirməli idi. Ancaq necə yerinə yetirsin ki, təcrübə yox, səriştə yox, daxili resurslar yox, xarici investisiyalar qoyulmayıb. Əksinə, xarici investorları indi çürüdürlər, məhkəmə çəkişmələrinə cəlb edirlər. Bu gün Ermənistanın ayaqda dayanmasını şərtləndirən strateji investorları məhkəməyə çəkirlər, onları korrupsiyada ittiham edirlər, hətta necə deyərlər, bel bağladığı ölkənin şirkətlərinə qarşı çirkin əməllər törədirlər. Əlbəttə ki, bütün bunlar istənilən potensial investoru qorxudacaq. Əgər, sənin ölkənə pul qoyan, orada infrastruktur yaradan, insanları işlə təmin edən ən yaxın şirkətlərə belə münasibət bəsləyirsənsə, onda başqa ölkələrin investorları nə fikirləşsin?!

Ona görə bu vədlərin iflasa uğraması təbii ki, Ermənistanda artıq böhranlı vəziyyətin yaranmasına gətirib çıxarıb. Hakimiyyət buna necə reaksiya verib? Cəmiyyəti birləşdirmək əvəzinə, əksinə, indi siyasi məhbuslar yaradır, siyasi opponentlər həbs edilir, təqib olunur, onların toxunulmazlığı götürülür, konstitusiya kobudcasına pozulur, konstitusiyaya qanunsuz düzəlişlər edilir, hansı ki, bu düzəlişlər ancaq referendumla oluna bilərdi. Bilirlər ki, referendumda bu düzəlişlər keçməyəcək. Hakimiyyət zəbt olunub və hakimiyyət bölgüsü yoxdur. Hakimiyyət bir adamın əlində cəmləşib və demokratiyadan əsər-əlamət yoxdur və heç vaxt olmayıb. Faşist dövlətində hansı demokratiya, insan haqlarından söhbət gedə bilər. Amma indiki vəziyyət daha da acınacaqlıdır. Ona görə ki, iqtisadi sahədə vədlər yerinə yetirilmədi, siyasi cəhətdən Ermənistan özünü təcrid vəziyyətə qoydu. Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə bağlı onların ağılsız addımları bir daha bunu göstərir. Bütün dünya bizi dəstəklədi, əleyhinə çıxan yeganə ölkə Ermənistandır.

Demokratik prinsiplər tamamilə pozulub, Venesiya Komissiyasının tövsiyələri rədd edilib, siyasi opponentlər təqib olunur və diktatura hökm sürür. Ona görə indi Ermənistan rəhbərliyinə hansısa bir böhranlı vəziyyət lazımdır ki, fikri bu əsas məsələlərdən yayındırsın və şüurlu şəkildə bu təxribata əl atdı. Nə üçün məhz iyulun 12-də? Bu da təsadüfi deyil. İndi Ermənistanda bunu başqa hadisələrlə əlaqələndirirlər. Mən bu məsələyə toxunmaq istəmirəm. Çünki mən heç vaxt ailə məsələlərinə toxunmamışam və heç kimə məsləhət görmürəm. Amma mən hesab edirəm ki, iyulun 10-da artıq rəsmən açıq elan edilmiş BMT Baş Assambleyasının xüsusi sessiyası bunun əsas səbəbi olub. Çünki, bu, ölkəmizin növbəti böyük uğurudur, növbəti böyük qələbəsidir, 130 ölkə bizi dəstəklədi. Azərbaycan o ölkədir ki, gündəliyi zəbt etmiş COVID-19 məsələsi diqqətə gətirildi, iki böyük Zirvə görüşü keçirildi və ondan sonra BMT-nin Baş Assambleyasının xüsusi sessiyası. Budur səbəb. Səbəblər çox ola bilər. Sadəcə olaraq, mən öz fikirlərimizi bölüşmək istəyirəm, fakt odur ki, Ermənistanın hərbi təxribatı məhz bu vaxtlarda təsadüfən törədilməyib. Amma layiqli cavab verildi. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu vəziyyətə tam nəzarət edir. Onu da bildirməliyəm ki, baxmayaraq, kəndlərimiz atəşə tutuldu, ağsaqqal həlak oldu, bizim kəndlərimizdə yaşayan insanlardan bir nəfər də yerindən tərpənmədi, bir nəfər də heç yerə getmədi. Amma bizdə olan operativ məlumata görə, Ermənistanda bəzi kəndlər, bəzi şəhərlər boşaldılır. İndi panika yaranıbdır. Bax, fərq budur. Azərbaycan vətəndaşı öz torpağında ləyaqətlə yaşayır. Azərbaycan dövləti və Azərbaycan Ordusu onu qoruyur və qoruyacaqdır.

Azərbaycan ictimaiyyətinin diqqətini bir məsələyə də çəkmək istərdim. O da ondan ibarətdir ki, bildiyiniz kimi, bu çirkin əməlləri törədəndən və Azərbaycan Ordusu tərəfindən layiqli cavab alandan sonra Ermənistan dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət etdi, dərhal onlardan yardım istədi, dərhal hay-haray qaldırdı ki, qoymayın bizi burada indi boğacaqlar, məhv edəcəklər. KTMT-nın buna nə dəxli var? Birincisi, Azərbaycan, bir daha demək istəyirəm ki, Ermənistanın dövlət sərhədini pozmayıb, təxribat törətməyib, Ermənistan ərazisinə keçməyib. Belə olan halda KTMT-nın bu işə nə dəxli ola bilər? Bu bir. İkincisi, bu addım onların acizliyini, qorxaqlığını göstərir. Onu göstərir ki, Azərbaycan qarşısında təkbaşına duruş gətirə bilməyəcəklər və onu bilirlər. Biz də bunu bilirik. KTMT-ya müraciət etmək onların qorxaqlığının növbəti təzahürüdür. Onlar öz qorxaqlığı, rəhbərliyin qorxaqlığını bir daha göstərdilər. Yaxşı, qələt eləmisən, təxribat törətmisən, cinayət törətmisən, - cavab ver buna. Cavab ver və veribdir artıqlaması ilə. İndi onlar ölənlərin sayını gizlədirlər. Amma bizdə operativ məlumat var. Bəzi ölən erməni hərbçilər haqqında məlumatı biz vermişik, onlar gizlədirdilər. Biz məlumatı verəndən sonra onlar onu etiraf etdilər. Necə ki, Aprel döyüşlərində gizlətmişdilər. Bu bir daha onların acizliyini göstərir, digər tərəfdən nəyi göstərir? Onların riyakar siyasətini göstərir. Yaxşı, necə ola bilər ki, bu yaxınlarda heç bir üzv ölkədən soruşmadan KTMT-nın baş katibini həbs etmisən. Belə şeymi olar? Bu, tamamilə bütün beynəlxalq davranış qaydalarını pozan bir addım idi. KTMT-nın rəhbəri vəzifəsində olan insanı həbs etdilər. Onlara təzyiq olunandan sonra onu buraxdılar, amma cinayət işi hələ bağlanmayıb, davam edir. Beynəlxalq təşkilatın ali nümayəndəsini həbs edir. Ondan sonra bir il ərzində KTMT-ya rəhbər nəzərdə tutulmuş şəxsin namizədliyini bloklayıb, veto qoyub. Çünki əlifba sırası ilə olmalı idi. Ermənistandan sonra Belarusun nümayəndəsi olmalı idi, onun namizədliyi verildi. Amma bir il imkan vermədi ki, o öz fəaliyyətinə başlasın. Budurmu KTMT-ya münasibət? Yaxşı, təxribat törətmisən, başından da zərbə almısan, indi nə olub qaçıb KTMT-dan yardım istəyirsən? KTMT-nın Ermənistandan başqa bütün üzvləri bizim dostlarımızdır.

İndi xarici fondlardan maliyyələşən, hakimiyyət nümayəndələrinin demək olar ki, hamısının SOROS fondunun və buna oxşar fondların tör-töküntüləri olan bir dövlətə KTMT ölkələrinin münasibəti necə olmalıdır? Mən sual verirəm və bu sual hesab edirəm ki, ritorikdir. İndi nə oldu qaçıb, KTMT-nın ətəyindən yapışırsan. Cavab ver öz çirkin əməllərinə görə. Cavab vermisən və verəcəksən.

Onu da bildirməliyəm ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mən bu yaxınlarda Azərbaycan telekanallarına müsahibədə öz mövqeyimi, bizim prinsipial mövqeyimizi bir daha ifadə etdim. Azərbaycan xalqının bu mənasız danışıqlardan bezdiyini ifadə etdim.

Ardı Səh. 4

# İlham Əliyev: Ermənistan ordusu layiqli cavabını aldı!

*"Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu"*

**Əvvəli Səh. 3**

Ona görə bu məsələ ilə məşğul olanlar və bu günlər ərzində öz vasitəçilik təkliflərini irəli sürənlər bu haqda düşünsünlər, Azərbaycan xalqının səbri tükənməz deyil. Bu gün biz güclü ordu yaratmışıq. Bu gün xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir. Ona görə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir addım geri atmayacağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim bu məsələ ilə bağlı fikrimiz qətidir.

O ki qaldı bizim addımlarımıza, lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Mən hələlik bundan artıq heç nə demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm. Azərbaycanda hadisələri qabaqlamağı heç kimə məsləhət görmürəm. Buna ehtiyac yoxdur. Bu, zərərli ola bilər. Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi edirikse, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik. Bundan artıq hələ ki, nəsə demək düzgün olmaz.

Mən bir məsələyə də toxunmaq istərdim. Bu da beynəlxalq aləmin bu hadisələrə reaksiyasıdır. Azərbaycan ictimaiyyəti bunu izləyir. Təxribat törədiləndən dərhal sonra - ayın 12-də günorta saatlarında mən Prezident Administrasiyasına müvafiq göstərişlər verdim və bizim beynəlxalq təşkilatlardakı nümayəndələrin, o cümlədən parlamentlərarası təşkilatlardakı nümayəndələrin hər biri təlimat aldı və təmsil olunduqları təşkilatların rəhbərlərinə məsələ ilə bağlı dolğun məlumat verdi.

Ancaq mən hesab edirəm ki, bizim diplomatik fəaliyyətimiz daha səmərəli ola bilərdi. Mən dəfələrlə demişəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən diplomatiya olmamalıdır. Kiminsə xoşuna gəlmək naminə öz sözünü deməkdən çəkinən diplomatiya olmamalıdır. Mən bunu dəfələrlə demişəm, həm müxtəlif tədbirlərdə, həm Xarici İşlər Nazirliyində, Azərbaycanın xarici ölkələrdəki səfirləri ilə görüşlərdə yol göstərmişəm ki, nə etməlisiniz. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı addımları atmalısınız. Xarici ölkələrdə fəaliyyət göstərən mətbuatla necə işləməlisiniz. Azərbaycanın iqtisadi maraqlarını necə müdafiə etməlisiniz, Azərbaycan vətəndaşlarının hüquqlarını necə qorumalısınız. Diaspor təşkilatları ilə əlaqədar səmərəli işləri necə aparmalısınız. Beynəlxalq təşkilatlarda Azərbaycana bəzi hallarda ünvanlanan əsassız ittihamlara necə cavab verməlisiniz. Düşməni necə susdurmalısınız. Demişəm, hər bir məsələ ilə bağlı yol göstərmişəm. Amma biz bu göstərişlərin həyatda öz əksini tapmasını görürükmü? Bir çox hallarda görmürük. Əfsuslar olsun ki, son vaxtlar bizim diplomatiyamız ölkəmizin uğurlu inkişafı ilə uzlaşmır, bəzi hallarda mənasız işlərlə, mənasız danışıqlarla məşğuldur. Düşmən ölkə ilə, bizimlə münaqişədə olan ölkə ilə COVID-lə bağlı hansı danışıqlar aparıla bilər?! Bu, cəfəngiyyatdır. Yəni, nədir, biz Ermənistanla əməkdaşlığamı başladıq?!

Mən demişəm və bütün beynəlxalq təşkilatlar, o cümlədən Minsk qrupunun həmsədrləri bunu bilirlər. Baxmayaraq, təxminən son 17 il ərzində dəfələrlə mənə təkliflər edilib ki, Ermənistanla hansısa formada əməkdaşlığa başlayın, - humanitar, etimad tədbirlərinin gücləndirilməsi və digər. Mən demişəm, biz buna hazır ola bilərik, ancaq biz danışıqlar prosesində tərəqqi görməliyik. Görməliyik ki, biz artıq addım-addım sülh razılaşmasına yaxınlaşırıq. Əgər bu yoxdursa, onda bu əməkdaşlığın nə mənası var? Bu əməkdaşlıq ancaq bizim ziyanımıza ola bilər. Bu gün də bu mövqedəyəm. Gedin, işğalçı dövlətə təzyiq edin, başına ağıl qoyun, nəhayət, sözünüzü deyin ki, onlar bizim torpağımızdan çıxmalıdırlar. Əgər bu baş tutacaqsa və belə bir perspektiv real görünəcəksə, bəli, biz ondan sonra hansısa addımların atılmasını təmin edə bilərik. Ancaq indiki şəraitdə Ermənistanın baş naziri deyir ki, "Qarabağ Ermənistandır və nöqtə".

Mən buna cavab verirəm. Xarici İşlər Nazirliyi hansısa səviyyədə buna cavab verib, yoxsa yox? Mən eşitməmişəm, Azərbaycan xalqı da eşitməyib. Bunu, ilk növbədə, kim etməlidir? Xarici İşlər Nazirliyi, susur. Mən demişəm ki, danışıqlar prosesində tərəqqi olmayana qədər Ermənistan ilə hər hansı bir əməkdaşlıqdan söhbət gedə bilməz. Sən demə, COVID müzakirə olunur. Yəni, biz COVID-lə bağlı erməni işğalçılara köməklikmi göstərməliyik?!

Mən Azərbaycan xalqı ilə bütün vacib məsələləri həm bölüşürəm, həm məsləhətləşirəm, həm öz fikirlərimi, öz siyasətimi deyirəm və eyni zamanda, xalqı narahat edən problemləri dərindən təhlil edirəm. Təsadüfən deyilmir ki, xalqın gözü tərəzidir. Ona görə, bizim hakimiyyət xalq hakimiyyətidir, xalqın iradəsinə əsaslanan hakimiyyətdir. Ona görə mən bütün bu sualları çılpaqlığı ilə ictimaiyyətə təqdim edirəm. Bu son bir neçə gün ərzində ancaq mənim göstərişlərim əsasında addımlar atılıb. Mənim köməkçim Hikmət Hacıyevlə gündə bəlkə də on dəfə təmasdayam, - onu belə elə, bunu belə elə, onu buna de, o təlimatı buraya de.

Xarici İşlər Nazirliyi nə ilə məşğul idi? Harada idi? Ayın 12-də hadisələr baş verəndən sonra biz iş yerindəydik. Baş Nazir iş yerində, mən iş yerində səhərə qədər. Müdafiə naziri, Baş Qərargah rəisi, həmçinin Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, Daxili İşlər naziri, Xarici Kəşfiyyat Xidmətinin rəisi, Təhlükəsizlik Şurasının katibi gecə səhərə qədər iş yerində. Mən Xarici İşlər nazirini tapa bilmədim. Mən Əli Əsədovdan soruşdum, haradadır. Sənə nə dedi? De.

Baş Nazir Əli Əsədov: Cənab Prezident, soruşdum, dedi ki, mən evdən işləyirəm.

Prezident İlham Əliyev: Necə, evdən işləyirəm?

Baş Nazir Əli Əsədov: Bəli, dedi ki, evdən işləyirəm. Mən Elmar Məmmədyarova zəng etdim. Sizin dediklərinizi ona dedim, soruşdum ki, bu hadisəni sən nə vaxt eşitmisən və harada olmusan? Dedi, evdən işləmişəm. Dedim, saatbasaat mənə de, harada olmusan? Yenə dedi ki, evdən işləmişəm. Günorta saat 3-də eşitmişəm. Daha sonra dedi ki, təqribən saat 6-da, 7-də Hikmət Hacıyevlə telefonla danışıb. İndi Siz dediniz, Hikmət Hacıyev Sizin təlimatları ona çatdırandan sonra deyib ki, bizim BMT-dəki nümayəndəmiz Yaşar Əliyevlə danışıb. Bax, bu qədər. Mən Sizin verdiyiniz tapşırıqları ona çatdırdım, dedim ki, belə olmaz. Biz hamımız iş yerindəyik. Prosesləri cənab Prezident idarə edir. Xarici İşlər naziri olaraq sən bunu, bunu, bunu et - Sizin dediyiniz tapşırıqları. Soruşdum ki, evdə niyə işləyirsiniz? Sən gəl iş yerinə, kabinetinə və s. Tapşırıq belə oldu. Ondan sonra hadisələr məlumdur.

Prezident İlham Əliyev: Aydındır. Daha dərinə getmək istəmirəm. Bir çox şey deyə bilərəm. Hesab edirəm bu, kifayətdir. Ancaq biz hamımız - həm rəhbər vəzifələrdə olanlar və ictimaiyyət bilməliyik real mənzərə nədən ibarətdir ki, düzgün addımlar ataq. Biz hər gün, hər dəqiqə ölkəmizin maraqlarını qorumalıyıq.

Bir məsələni də demək istərdim, bu beynəlxalq təşkilatların reaksiyası ilə əlaqədardır. İlk növbədə, qardaş Türkiyəyə və onun Prezidenti, mənim qardaşım Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürümü bildirirəm. Biz bu günlərdə Türkiyədən yenidən qardaşlıq, dostluq münasibəti gördük. İlk saatlardan Türkiyənin rəsmi qurumları bu məsələ ilə bağlı Azərbaycanın haqlı mövqeyini müdafiə etdilər, açıqlamalar verdilər. Dünən Prezident tərəfindən çox önəmli açıqlama verildi. Ondan əvvəl Müdafiə naziri, Xarici İşlər naziri, Prezident Administrasiyasının nümayəndələri, deputatlar, ictimai fəallar. Bir daha bütün dünya, Türkiyə və Azərbaycan xalqları gördü ki, biz əsl qardaşıq. Yaxşı günlərdə və ağır günlərdə bir-birimizin yanındayıq. Yəqin ki, həm Türkiyə vətəndaşları, həm Azərbaycan vətəndaşları mənim dəfələrlə dediyim sözləri xatırlayırlar və görürlər ki, mən nə qədər haqlı idim deyəndə ki, dünya miqyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkələr yoxdur. Bu yaşanan vəziyyət bir daha onu göstərir. Ona görə bir daha qardaş Türkiyə xalqına, onun Prezidentinə Azərbaycan xalqı adından və öz adımdan dərin təşəkkürümü bildirmək istəyirəm.

Bizim digər dost, qardaş ölkəmiz Pakistan birmənalı mövqe bildirib, Azərbaycanın haqq işinə öz dəstəyini verib. Eyni zamanda, digər ölkələrin rəsmi nümayəndələri də Azərbaycanı dəstəklədilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası açıqlama verib. Fürsətdən istifadə edərək, Pakistan İslam Respublikasının rəhbərliyinə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ölkələrinin rəhbərlərinə - Qazaxıstan, Qırğızıstan, Türkiyə təbii ki, Özbəkistan rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda, yəqin ki, Azərbaycan ictimaiyyəti bunu bilir, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatla çıxış edib. Bu təşkilatda 57 dövlət birləşir. Budur bizə göstərilən beynəlxalq dəstək. Qeyd etdiyim kimi, digər ölkələr, bəzi Avropa ölkələri öz rəsmi nümayəndələri vasitəsilə Azərbaycana dəstək ifadə etdilər. İndi baxın, görün Ermənistana kim dəstək göstərdi? Görməmişəm. Burada da təcrid vəziyyətindədir. Çünki hamı bilir ki, Azərbaycan haqlıdır. Bir çoxları bizim fəaliyyətimiz nəticəsində biliblər ki, bu çirkin təxribatı Ermənistan törətmişdir.

Bir məsələyə də toxunmaq istəyirəm. Bizim ordumuzun uğurlu əməliyyatı və əldə edilmiş nəticələr, hərbi qələbə, əlbəttə, təbii olaraq Azərbaycan ictimaiyyətində ruh yüksəkliyi yaratdı, xalqımızı coşdurdu. Bayaq dediyim kimi, mənə ünvanlanan məktublarda gördüyümüz işlərə tam dəstək ifadə olunur. Dünən bir qrup vətənpərvər insan bu işlərə öz münasibətini bildirmək, Azərbaycan Ordusuna və Ali Baş Komandan kimi mənə öz dəstəyini ifadə etmək üçün Şəhidlər xiyabanına üz tutdu. Mən bu vətənpərvər addımı alqışlayıram. Mənə verilən məlumata görə, bu insanlar uzun məsafəni piyada qət edib və Şəhidlər xiyabanına gedən müddət ərzində vətənpərvər şüarlar səsləndiriblər - mənim haqqımda, ordumuz haqqında, xalqımız haqqında, Qarabağ haqqında. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi. Ancaq əfsuslar olsun ki, bu insanlar Şəhidlər xiyabanına gələndən sonra oraya görünür bu məsələ ilə bağlı haradansa xəbər tutmuş bəzi təxribatçı qruplar da daxil olub. İndi onların şəxsiyyəti araşdırılır. Bu təxribatçı qruplar orada xuliqanlıq törətdilər, ictimai asayişi pozmağa cəhd etdilər və polisə müqavimət göstərdilər. Mən daxili işlər orqanlarına göstəriş vermişdim ki, insanların Şəhidlər xiyabanına gəlişini, onların təhlükəsizliyini təmin etsin, yol hərəkətini tənzimləsin. Çünki insanlar bir çox hallarda avtomobil yolu ilə gedirdilər. Bütün bu göstərişləri dünən axşam mən Daxili İşlər naziri Vilayət Eyvazova verdim. Eyni zamanda, dedim ki, siz ayıq olun, çünki istisna edilmir, hansısa təxribatçı qüvvələr və bizi istəməyənlər, "beşinci kolon"un nümayəndələri, satqınlar orada hansısa təxribat törədə bilərlər. Çünki belə kütləvi tədbirlərdə, o cümlədən əvvəlcədən təşkil olunmamış kütləvi tədbirlərdə bəzən xoşagəlməz hallar da baş verir. Ona görə Şəhidlər xiyabanına qədər bütün yol boyunca polis əməkdaşları öz vəzifə borclarını ləyaqətlə icra ediblər. Şəhidlər xiyabanında da insanlar yığışanda asayiş tam təmin edilirdi. Ancaq bir daha demək istəyirəm ki, bir qrup təxribatçı bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışdı. Təbii ki, daxili işlər orqanları tərəfindən onların bu əməllərinə qısa müddət ərzində son qoyuldu. Artıq onların şəxsiyyəti müəyyənləşdirilir. Onların hamısı məsuliyyətə cəlb ediləcək, bir nəfər də, - mən bu gün səhər dedim, - məsuliyyətdən boyun qaçıra bilməyəcək. Əlbəttə ki, ancaq qanun çərçivəsində onlara layiqli cəza veriləcəkdir, əgər onlar məhkəmə tərəfindən bu cəzaya layiq görüləcəklərsə. Onların şəxsiyyətlərinin müəyyənləşdirilməsi üçün biz ictimaiyyətdən də yardım istəyirik. O təxribatçıları tam müəyyən etmək üçün dünən oraya toplaşan vətənpərvər insanlardan da mən xahiş edirəm, əgər o videokadrlarda kimisə, iğtişaş törətmək istəyənləri tanıyırlarsa, məlumat versinlər, biz hamısını tapaq və cəzasını verək.

Azərbaycan xalqını bu təxribata çəkən Ermənistan başından zərbə aldı. Bizim şanlı ordumuz, bizim əsgərlərimiz, zabitlərimiz, hərbi komandirlərimiz bu günlər ərzində gecə-gündüz yatmadan iş başındadırlar. Mən Müdafiə nazirinə, Baş Qərargah rəisinə nə vaxt zəng edirəmsə, iş başındadırlar - gecə, səhər saat 7-də, axşam saat 10-da, gecə saat 2-də. Biz böyük qələbə qazanmışıq, xalq da bunu dəstəklədi. Xalq qələbəni qeyd etmək, şəhidlərimizin ruhunu yad etmək üçün Şəhidlər xiyabanına gəldi. Hansısa yaramaz ünsürlər burada iğtişaş törədəcək? Bu olmayacaq. Onların fikri 1990-cı illərin əvvəllərinə getməsin. Azərbaycanın o vaxtkı hakimiyyətinin bədbəxtliyi də ondan ibarət idi ki, Xalq Cəbhəsi kimi çirkin, mənfur, qorxaq, satqın fərarilərdən qaçdı. O fərarilər ki, ondan bir il sonra hakimiyyəti qoyub qaçdılar. Bax, bu binada otururdular. Bu binanı da zibilləmişdilər. Prezidentin kabinetində hər gün kolbasa, araq yeyib-içirdilər, hər gün, gecə səhərə qədər. Sonra da o vaxtkı prezident saat 12-də yuxudan oyanırdı. Saat 5-də də yenidən kolbasa, araq. Keçmiş müdafiə naziri, keçmiş daxili işlər naziri, keçmiş dövlət katibi, keçmiş prezident bu binanı murdarlamışdılar. Belə bir çirkin dəstə gəlib o vaxt hakimiyyəti hay-küylə yıxdı. Onların fikri ora getməsin. Bunların dərsini vermişik, verəcəyik. Heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək.

*Ardı Səh. 5*

# İlham Əliyev: Ermənistan ordusu layiqli cavabını aldı!

*"Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu"*

Əvvəli Səh. 4



Mənə verilən məlumata görə, dünən bəzi müxalif qurumlar, o cümlədən Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri o kütlənin içinə girərək orada insanları qanunsuz əməllərə sövq etməyə çalışıblar. Qanunu pozanların arasında onlar da var, onlar indi müəyyən olunublar. Mən bir daha xəbərdarlıq edirəm, odla oynamasınlar. Bu məsələ milli məsələdir. Heç nəyə baxmayacağıq, kim nə dedi, hansı şura, hansı Avropa Şurası, hansı təşkilat. Bizim son günlərdə sərgilədiyimiz mövqe - beynəlxalq təşkilatlarda bizim əleyhimizə çirkin kampaniya aparanlara qarşı tutduğumuz mövqe artıq nəticə verir. Anti-Azərbaycan qüvvələri harada mümkünsə, onları bloklayacağıq. Onların namizədlərinin meydan oxumasına, Azərbaycana çirkab yaxmasına imkan verməyəcəyik. Heç kim bizə göstəriş verə bilməz. Dünənki hadisə hamımız üçün bir siqnal olmalıdır. Yadınıza salın, o vaxt torpaqlar əldən gedirdi, burada parlamentin qarşısında mitinqlər təşkil edilirdi. Minlərlə insan yığışırdı, öz hiddətini ifadə edirdi. Ancaq nəticə etibarilə nə oldu? Torpaqlar əldən getdi. İndi mitinq vaxtıdırmı? Biz şəhidlər veririk, igidlər itiririk, generallar itiririk. Bu çirkin ünsürlər indi burada vəziyyəti gərginləşdirmək istəyir. Bütün aidiyyəti qurumlara deyirəm. Əgər dünənki hadisələrdə onların əli varsa, bizim qətiyyətimizi görəcəklər. Onlar ermənilərdən də pisdirlər. Erməni açıq düşməndir. Oturub orada, bunlara görə torpaqlarımızı işğal edib. Bu Xalq Cəbhəsinin fərarilərinə görə bu gün o torpaqlardadır. Amma bu, oturub bizim içimizdə. Xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yanında yox, düşmənin yanındadır.

Mən demişəm, hüquq-mühafizə orqanları onların bu günlər ərzində sosial şəbəkələrdə çıxışlarını təhlil etsinlər. Əgər orada cinayət tərkibi varsa, onların hamısı cinayət məsuliyyətinə cəlb edilməlidir. Döyüşlər getdiyi vaxtda onlar ordumuza şər atırlar, yalanlar uydururlar. Deyirlər ki, biz o yeri vermişik, biz oraya getməməliydik, biz buraya getməməliydik. Sən kimsən? Sən bizim ordumuza göstəriş, məsləhət verirsən. Ay başı boş, ay satqın. Bunlardır, bunlar idi Azərbaycan dövlətçiliyini yıxmaq istəyənlər. Biz bunların nazı iləmi oynayacağıq? Onlara elə dərs veriləcək ki, bu, son dərs olacaqdır.

Ona görə, bir daha demək istəyirəm, hüquq-mühafizə orqanları bu işlərlə məşğul olacaq. Onların bütün antidövlət çıxışları, çağırışları təhlil ediləcək. Əgər orada cinayət tərkibi varsa, onlar dərhal cinayət məsuliyyətinə cəlb edilməlidir. Biz "Beşinci kolon"la bu işi bitirməliyik, belə davam edə bilməz. Yəni, burada dözümlülük qətiyyən yolverilməzdir. Adi günlərdə biz bəzi hallarda gözümüzü yumuruq, deyirik ki, əhəmiyyətsiz şeydir. Amma belə vəziyyətdə bu, düşmənçilikdir. Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir. Onlar artıq Azərbaycan xalqı tərəfindən dəfələrlə öz yerini görüblər və görəcəklər.

Bir məsələyə də mən toxunmaq istəyirəm. Dünən həmin təxribatçıların bir çox şüarları olubdur. İnsanları bəzi işlərə təhrik edirdilər. Mən demək istəyirəm, bu gün Azərbaycan Ordusu tam komplektləşdirilib, müasir silahlarla təchiz edilib. Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən bütün tapşırıqları şərəflə yerinə yetirir. Mənim dövrümdə bir dəfə də olmayıb ki, tapşırıq verilsin, yerinə yetirilməsin. Yerinə yetirilib. Hətta 2016-cı ilin Aprel döyüşlərində Ermənistanın təxribatına elə cavab verib, elə əlverişsiz mövqedən gedib o torpaqları boşaldıb, azad edib ki, bu günə qədər bəzi hərbi ekspertlər buna məəttəl qalırlar. Son günlərin hadisələri onu bir daha göstərir. Ona görə ordumuz üçün nə lazımsa, biz edirik və edəcəyik. Əgər kimsə, hansısa vətənpərvər insan orduda xidmət etmək istəyirsə, mən bunu ancaq alqışlayıram. Çünki bizdə müddətdən artıq xidmət edənlərin sayı artır, bu da mənim göstərişim idi. Onlar yaxşı maaş alırlar. Onlar artıq təlim keçmiş, orduda xidmət etmiş insanlardır. Biz onları cəlb edirik və əgər belə təşəbbüs olacaqsa, bunu ancaq alqışlayacağıq. Amma bu gün meydanda səslənən və ola bilər yaxşı niyyətlə "mən gedim Qarabağda vuruşum" sözlərinə son qoymaq lazımdır. Populizmin vaxtı deyil. Sən gedib necə vuruşacaqsan? Gedib nə ilə vuruşacaqsan? Sən vuruşmaq üçün gərək təlim keçəsən. Gərək sən nizamlı orduda xidmət edəsən. Səni gərək hazırlasınlar, səni gərək öyrətsinlər.

Mən bu gün səhər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbəri ilə danışmışam və maraqlanmışam. Dedim, mənə de, bu günlər ərzində sizin rayon şöbələrinə nə qədər adam müraciət edib ki, gedib vuruşmaq istəyir. Mən bu rəqəmi deyəcəyəm, hər kəs onu eşitsin və özü təhlil aparsın. Dedi təqribən 150 nəfər. Dünən Şəhidlər xiyabanının qabağında nə qədər adam var idi? Minlərlə. Müraciət edənlərin sayı 150. Soruşdum daha çox haradan? Dedi ki, 60-ı Tovuzdandır ki, indi orada döyüşlər gedir. Qalanları da Azərbaycanın müxtəlif yerlərindən. Ona görə, mən deyirəm, dünən "Qarabağda vuruşmaq istəyirəm" deyənlər hamısı getsin öz anket məlumatını Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə versin. Öz ünvanını versin, orduda xidmət etmə haqqında öz arzusunu ifadə etsin və biz lazım olan vaxtda onları cəlb edəcəyik. Yoxsa kimsə gedib qışqıracaq, insanları qanunsuz əməllərə sövq edəcək, müqəddəs Qarabağ şüarı altında özünə siyasi kapital qazanacaq və sonra nə olacaq. Necə ki, vaxtilə olub, onumu istəyirlər? Bax, real vəziyyət bundan ibarətdir. Bir daha demək istəyirəm ki, bu gün buna ehtiyac yoxdur, bu gün səfərbərliyə ehtiyac yoxdur. Lazım olarsa, bizim qurumumuz var, dövlət xidməti var, ondan sonra Müdafiə Nazirliyi var. Biz bilirik nə etmək lazımdır, nə vaxt lazımdır, hansı məsələlərin həlli üçün bizə nə qədər canlı qüvvə lazımdır. Yoxsa kimsə özündən burada küçə qəhrəmanı düzəltmək istəyirsə, bu, pis yoldur. Mən yenə də deyirəm, dünən Şəhidlər xiyabanına yığışanların mütləq əksəriyyəti vətənpərvər insanlardır. Amma onların arasına bu ünsürlər - Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib. Onların məqsədi nə idi? Yenəmi Azərbaycanı qaranlığa qərq etmək, yenəmi vəziyyəti gərginləşdirmək? Yenə də ermənilər bundan istifadə etsinlər? Onların məqsədi budur. Xalq Cəbhəsinin, o çirkin antimilli şuranın məqsədi budur. Görmürdünüz ki, neftin qiyməti 14 dollara düşəndə necə sevinirdilər. Buna kim sevinir - ermənilər, bir də bunlar. Bir-birinə muştuluq verirdilər, bayram edirdilər, təbrik edirdilər. O Amerikada oturan deyir ki, hələ gözləyin sürüşə-sürüşə gələcək sıfıra. Heç olmasa, ağlın olsun, neftin qiyməti sıfır ola bilər? Hələ deyir tələsməyin sevinməyə, hələ gələcəkdə sevinəcəyik ki, neft 14 dollardan da düşsün, ondan sonra nə olacaq. Sual verin, 2 ildir Amerikada oturub. Birincisi hansı pulla sən orada oturursan, kim səni orada saxlayır, kim sənə pul verir, kim sənə təlimat verir. De ki, Azərbaycan xalqı bunu bilsin. İndi oturub orada, xarici pullarla vəziyyəti qarışdırmaq istəyir. Ona görə bunlara son qoyulacaq. Heç kimdə bu haqda şübhə olmasın. Biz dövlətimizi qoruyuruq, qoruyacağıq. Azərbaycan xalqı dəfələrlə vətənpərvərlik göstəribdir. Bu, bizim növbəti şanlı qələbəmizdir. Bu mövzunu yekunlaşdırmaq üçün bir daha demək istəyirəm ki, biz bilirik nə etmək lazımdır, nə vaxt etmək lazımdır və necə etmək lazımdır. Bu günə qədər bizim bütün addımlarımız uğurlu olub - istər döyüş meydanında, istər siyasi müstəvidə, istər daxili vəziyyətlə bağlı, iqtisadi və digər sahələrdə.

İndi isə keçək bizim gündəlikdə duran məsələlərə. İndi iqtisadi vəziyyətlə bağlı müşavirə iştirakçıları məlumat verəcək. İlk növbədə, deməliyəm, heç kəs unutmamalıdır ki, biz hələ də pandemiya dövründə yaşayırıq və karantin rejimi ləğv edilməyib. Baxın statistikaya, görün biz nə vaxt yumşalmaya getdik - mayın əvvəlində. Nə üçün? Çünki dinamika müsbət idi. Sağalanlar xəstələnənlərdən çox idi. Sonra nə gördük? Bəzi insanlar məsuliyyətsizlik göstərdi və yoluxma halları geniş vüsət aldı, dinamika pozuldu. Nə etdik? Yenidən sərtləşdirdik. Unutmamalıyıq ki, bu, ölümcül virusdur, ölümcül! Yaşa baxmır, insanların sağlamlığına baxmır. Birinci mərhələdə hesab olunurdu ki, buna daha çox yaşlı insanlar məruz qalır və daha təhlükəlidir. Amma görün, indi nə qədər gənclərimiz əziyyət çəkir. İndi bizim gözümüzün qabağındadır. Deyirdilər ki, virus ancaq xəstə adamlar üçün təhlükəlidir. Bəs, yoluxan sağlam adamlar, idmançılar? Bu, ölümcül virusdur, bunu heç kim yaddan çıxarmasın. Ona görə, son vaxtlar əlavə tədbirlər görüldü. İstərdim ki, Operativ Qərargahın sədri Baş Nazir bu məsələ ilə bağlı məlumat versin, ümumi vəziyyət necədir. Mənim göstərişimlə təcili tibbi yardım maşınlarının alınması, modul tipli yeni hospitalların gətirilməsi nəzərdə tutulurdu. Bu və digər məsələlər haqqında məlumat verin.

Sonra Baş Nazir Əli Əsədov, Baş Nazirin müavini Şahin Mustafayev çıxış edərək, görülən işlər barədə məlumat veriblər.

# Əli Əhmədov: "Onların əməlləri arxadan vurulan bıçağı xatırladır"



***Baş nazirin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində ötən gün Bakı şəhərində Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilən yürüş - mitinqdə təxribat törədilməsinə münasibət bildirib: "İyul ayının 14-də gecə saatlarında Azərbaycan gənclərinin Ordumuza dəstək məqsədilə çoxminli yürüşü keçirilmişdir.***

Gənc vətənpərvər insanlarımızın Azərbaycan Ordusuna dəstək yürüşü ordu-xalq birliyinin bariz ifadəsi, əsgərlərimizin Vətənimizin naminə rəşadətlərinin ilham mənbəyi kimi qürurverici hadisədir. Bu yürüş həm də erməni quldur ordusuna, bütünlükdə işğalçılara Azərbaycanın gücünü, mətanətini və qətiyyətini nümayiş etdirdi".

Əli Əhmədovun sözlərinə görə bəzi məkrli qüvvələrin saf niyyətli vətənpərvər gənclərimizin Ordumuza və əsgərlərimizə mənəvi dəstək yürüşündən öz çirkin məqsədləri üçün istifadə etmək cəhdləri təəssüf doğurmaya bilməz: "Yürüşün keçirildiyi bir vaxtda səsləndirilən təhrikçi çağırışlar, ictimai asayişi pozmaq cəhdləri kimlərinsə ölkədə sabitliyə zərbə vurmaq, xalqın birliyi və həmrəyliyinə nifaq salmaq arzusu olub, mahiyyət etibarilə düşmən dəyirmanına su tökməkdən başqa bir şey deyil. Xalqımızın Vətən uğrunda həlak olan qəhrəmanlarını son mənzilə yola saldığı, əsgərlərimizin yağı düşmənlərinin hücumlarının qarşısını alıb onlara sarsıdıcı zərbələr endirdiyi həssas bir zamanda daxili sabitliyi pozmağa cəhd göstərənlərin əməlləri arxadan vurulan bıçağı xatırladır".

"İnsanlarımızın xoşniyyətli yürüşündən bəd məqsədlərlə istifadə etmək, qarşıdurma yaratmaq, süni surətdə ictimai narazılıq toxumu səpmək yolu ilə xalqın birliyini pozmaq istəyənlərə ar olsun. Unutmasınlar ki, Vətənini, Xalqını, Dövlətini, Prezidentini ürəkdən sevən hər bir Azərbaycanlı onlara qarşıdır, onlara nifrət edir. Bu isə on minlər, yüz minlər, milyonlar deməkdir", - deyə, Əli Əhmədov qeyd etmişdir.

# Yeni Azərbaycan Partiyası bəyanat yayıb



***Yeni Azərbaycan Partiyası Azərbaycan Ordusuna dəstək yürüşündən bəzi qüvvələrin məkrli məqsədlərlə sui-istifadə etmək cəhdləri ilə əlaqədar bəyanat yayıb. YAP-dan SİA-ya verilən məlumata görə, bəyanatda deyilir:***

"Azərbaycan Ordusu iyul ayının 12-dən başlayaraq dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan ordusunun qəfil və xaincəsinə törətdiyi təxribatın qarşısını qəhrəmancasına almaqdadır. Ağır döyüşlər nəticəsində düşmənin çoxlu sayda hərbi texnikası və canlı qüvvəsi məhv edilib, hərbi mövqelərinə sarsıdıcı zərbələr endirilib. Təcavüzkar Ermənistanla döyüşdə böyük şücaətlər göstərən Ordumuzun itkiləri də oldu. Xalqımız Vətən yolunda şəhid olan qəhrəmanlarını böyük qürurla son mənzilə yola saldı. Ordumuz isə onların qisasını yerdə qoymadı.

Azərbaycan dövləti və cəmiyyəti eyni zamanda bəşəriyyətin bir nömrəli düşməninə çevrilmiş COVİD-19 pandemiyasına qarşı mübarizə aparır. Dövlətin böyük imkanları qorxulu xəstəliklə mübarizəyə səfərbər edilib, həkimlərimiz ön cəbhədəki əsgərlər qədər qəhrəmanlıq nümunəsi göstərərək insanların sağlamlığının keşiyində dayanıblar. Əhalinin sağlamlığını qorumaq bu gün torpaqlarımızı qorumaq qədər əhəmiyyət kəsb edən milli təhlükəsizlik məsələsidir.

Bu həssas, ölümcül xəstəlik və xain düşmənin təxribatları ilə mübarizə apardığı bir zamanda xalqımızın milli birlik və həmrəylik nümayiş etdirməsi, dövlətin və Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında sıx birləşdiyini bəyan etməsi ölkəmizin gücünü və qüdrətini qat-qat artırır. Bakıda iyul ayının 14-dən 15-nə keçən gecə Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilən əzəmətli yürüş bunun əyani nümunəsidir. Xalqın dəstəyindən ilham alan şanlı Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələrini endirməkdə davam edir, sərhədlərimizin toxunulmazlığı, əhalinin təhlükəsizliyi keşiyində mətanətlə dayanır.

Yeni Azərbaycan Partiyası təəssüf hissi ilə bildirir ki, bəzi məkrli dairələr insanlarımızın, əsas etibarilə gənc vətənpərvərlərin Azərbaycan Ordusuna dəstək məqsədilə keçirdiyi yürüşdən sui-istifadə edərək təhrikçi çağırışlarla yürüş iştirakçılarının az bir qismini xüsusi mühafizə olunan Milli Məclisin binasına daxil olmasına, polis avtomobillərinə ziyan vurmağa və digər qanunazidd əməllər törətməyə istiqamətləndirməyə nail olmuşdur. Beləliklə də, yürüş iştirakçılarının azsaylı hissəsi qanunazidd əmələri ilə əslində maraqlı pozucu qüvvələrin və beşinci kolon təmsilçilərinin cəmiyyətdə ictimai-siyasi sabitliyi pozmaqdan, qarşıdurma yaratmaqdan ibarət olan anti-Azərbaycan və anti-xalq məqsədlərinə xidmət göstərmişdir. Sübut etməyə ehtiyac yoxdur ki, dövlət maraqlarına və milli mənafelərə daban-dabana zidd olan belə pozucu hərəkətlər hazırki həssas məqamda düşmən dəyirmanına su tökmək qədər zərərli və təhlükəlidir. Bu eyni zamanda ülvi və vətənpərvər niyyətlə Azərbaycan Ordusuna və dövlətə dəstək nümayiş etdirən yürüş iştirakçılarına qarşı çirkin təxribatdan başqa bir şey deyildir.

Biz hər bir Azərbaycan vətəndaşını, ilk növbədə gənclərimizi ayıq-sayıq olmağa, məkrli dairələrin çağırışlarına qoşulmamağa, onların əlində alətə çevrilməməyə, hər birimizin böyük dəyər verdiyimiz ictimai-siyasi sabitliyi qorumağa, torpaqlarımızın keşiyində dayanan əsgərlərimizə, insanlarımızın sağlamlığının keşiyində duran həkimlərimizə mənəvi dəstək olmağa səsləyirik. Qarşımızda düşmənə qalib gələrək işğal olunmuş torpaqlarımızı, doğma Qarabağımızı azad etmək, amansız pandemiyadan xalqımızı qorumaq kimi şərəfli vəzifələr dayanır. Həm bu günümüzü, həm də gələcəyimizi hədəfə alan düşmənlərə qalib gəlməyin yolu isə bir olmaqdan, həmrəy olmaqdan, dövlətimizin ətrafında sıx birləşərək sıralarımıza girmiş mənfur və satqın antimilli qüvvələri ifşa edib yerində oturtmaqdan keçir".

# Prezidentin köməkçisi Hikmət Hacıyev televiziya debatında Zöhrab Mnatsakanyanın yalanlarını ifşa edib

***"Al Jazeera İnternational" beynəlxalq televiziya kanalında Prezidentin köməkçisi Hikmət Hacıyevin Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan ilə debatı olub. AZƏRTAC xəbər verir ki, Ermənistan xarici işlər naziri Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini təhrif etməyə, Ermənistanın guya sülh tərəfdarı olduğunu, ölkəsinin yaranmış gərginliyin aradan qaldırması istiqamətində çalışdığını, Qarabağdakı ermənilərin təhlükəsizliyinin zəmanətçisi olduğunu bildirib.***




Prezidentin köməkçisi Hikmət Hacıyev canlı yayımda Ermənistan xarici işlər nazirinin yalanlarını ifşa edib. H.Hacıyev Ermənistan xarici işlər nazirinin bu kimi açıqlamaları ilə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini və ərazi iddialarını bir daha sübut etdiyini vurğulayıb.

O, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu hərbi təcavüz yolu ilə işğal etdiyini, işğal olunmuş ərazilərdən bir milyondan çox azərbaycanlının etnik təmizləməyə məruz qalaraq qovulduğunu bildirib. Azərbaycana qarşı hərbi təcavüzə görə Ermənistanın bir dövlət olaraq beynəlxalq hüquqi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

H.Hacıyev Ermənistan əsgərlərinin Azərbaycanın işğal olunmuş ərazilərində nə işi var sualı ilə Ermənistan xarici işlər nazirinə müraciət edib.

Prezidentin köməkçisi Ermənistan-Azərbaycan sərhədində baş verən hadisələrin adi sərhəd toqquşması olmadığını, Ermənistan tərəfindən əvvəlcədən planlaşdırıldığını və Azərbaycana qarşı davam edən hərbi təcavüzün davamı olduğunu bildirib. H.Hacıyev Ermənistanın bu təxribatının aşağıdakı səbəblərlə bağlı olduğunu deyib.

- Ermənistan bu yolla Ermənistan-Azərbaycan münaqişəsindən və bu münaqişəyə görə üzərinə düşən məsuliyyətdən qaçmağa çalışır;
- Ermənistan bu təxribat vasitəsilə regionda yeni gərginlik ocağı yaratmağa cəhd edir və regionu yeni təhlükələrlə üzbəüz qoyur;
- Rəsmi Yerevan üzvü olduğu Kollektiv Təhlükəsizlik üzrə Müqavilə Təşkilatını münaqişəyə cəlb etməyə çalışaraq çirkin və məsuliyyətsiz siyasi oyun aparmağa səy göstərir;
- Ermənistan kənarda qaldığı Şərq-Qərb nəqliyyat dəhlizinə, regional connectivity layihələrinə xələl gətirmək məqsədi güdür;
- Həmçinin bu yolla Ermənistan rəhbərliyi COVID-19 pandemiyasının ölkədə geniş yayılması şəraitində kəskin sosial-iqtisadi problemlərdən diqqəti yayındırmağa çalışır.

Hikmət Hacıyev Ermənistan rəhbərliyinin "Qarbağ Ermənistandır və nöqtə" deməklə Ermənistanın Azərbaycan ərazilərinin anneksiyası siyasətini apardığını bildirib, bu kimi açıqlamalarla Ermənistanın ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin formatını və mahiyyətini dağıtdığını vurğulayıb. Bunun ilk növbədə həmsədr ölkələrə qarşı hörmətsizlik olduğunu qeyd edib.

O, sərhəddə baş vermiş təxribatın məsuliyyətinin tam şəkildə Ermənistanın üzərinə düşdüyünü deyərək, Ermənistanın itkilərini gizlətdiyini və Ermənistan rəhbərliyinin bu hərbi avantüraya görə itkilər barədə öz ictimaiyyətinə hesabat verməli olduğunu deyib. Debatla aşağıdakı keçid vasitəsilə tanış olmaq mümkündür: http://mediaview.aljazeera.com/video/siI8iE8d5p

# "Ermənilər səngərdə bizimlə üzbəüzdür, bunlar isə içimizdədir"



Dünən Milli Məclisin sədr müavini Adil Əliyev Tovuzun Ağdam kəndində olub. Millət vəkili Ermənistan Silahlı Qüvvələrinin təxribatı nəticəsində həlak olan kənd sakini Əziz Əzizovun evinə baş çəkib, onun yaxınlarına başsağlığı verib. Açıqlamasında Adil Əliyev əvvəlcə cəbhə kəndindəki vəziyyəti dəyərləndirib: "Bura gələndə də bilirdim ki, bu bölgənin camaatı qəhrəman, qorxmaz camaatdır. Ona görə də bura qürur hissi ilə gəlirdim. İstər yerli sakinlər, istərsə də burada xidmət edən hərbçilərimiz bir addım da geri çəkilmədilər. Təbii ki, biz hamımız üzgünük ki, şəhidlər vermişik. Müharibə şəhidsiz, itkisiz olmur. Ancaq biz bütün dünyaya sübut etdik güclü dövlətin vətəndaşlarıyıq".

Adil Əliyev daha sonra ötən gecə Bakıdakı yürüşdə baş verən xoşagəlməz hadisələrlə bağlı fikrini bölüşüb: "Azərbaycan daxilindəki 5-ci kalona xidmət edən düşmənlərimiz olmasa, daha çox uğurlara imza atarıq. Dövlətimiz həmrəylik nümayiş etdirdi. İnsanlarımızın hissiyyatına hörmətlə yanaşdı və onların Azərbaycan ordusuna dəstək vermək üçün yürüşünə mane olmadı. İnsanlarımız dəstək yürüşünü həyata keçirdi. Bütün dünyaya göstərdi ki, Azərbaycan xalqı öz ordusunun arxasındadır. Ancaq əfsuslar olsun ki, o cür böyük bir yürüşdən insanlar tapıldı ki, təxribata əl atsınlar. Onları erməni kimi adlandırırıq. Çünki bilirik ki, ermənilər səngərdə bizimlə üzbəüzdür, bunlar isə bizim içimizdədir".

# Siyasi partiyaların milli həmrəylik BƏYANATI



**Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi son təxribatları ilə əlaqədar siyasi partiyalar milli həmrəylik bəyanatı yayıb. SİA-nın xəbərinə görə, bəyanatda deyilir:**

"İyul ayının 12-də Ermənistan hərbi qüvvələri dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycanın Silahlı Qüvvələrinin mövqelərinə qəfildən və xaincəsinə hücum edərək növbəti hərbi təxribat törətmişdir. Azərbaycan Ordusunun təxirəsalınmaz və adekvat tədbirləri nəticəsində erməni tərəfinin hücumunun qarşısı qətiyyətlə alınmış, düşmənə layiqli cavab verilmişdir. Erməni tərəfi ciddi itkilər verərək geri oturmağa məcbur edilmişdir. Erməni hərbiçiləri iyul ayının 13-də və 14-də də döyüşləri davam etdirmiş, habelə Ermənistan-Azərbaycan sərhədlərinin digər istiqamətlərində təxribatlar törətməyə cəhdlər göstərmişlər. Azərbaycan Silahlı Qüvvələrinin qətiyyətli zərbələri nəticəsində düşmənin döyüş imkanları sarsıdılmış, böyük sayda hərbi texnikası və canlı qüvvəsi məhv edilmişdir. Düşmənə layiqli cavab verən Silahlı Qüvvələrimiz də təəssüf ki, itkilərə məruz qalmışdır. Lakin onların qısası yerdə qalmayıb. Şanlı hərbçilərimizin ölümünə bais olanlar həmişə olduğu kimi, ən ağır şəkildə cəzalarını alıblar. Allah şəhidlərimizə rəhmət etsin!

Qeyd etmək lazımdır ki, qanlı toqquşmalara yol verilməməsi naminə atəşkəs rejiminin tətbiq olunmasına baxmayaraq, erməni tərəfinin təmas xəttində və sərhəd zonalarında vaxtaşırı qanlı təxribatlar törətməsi pis adət halını almışdır. Erməni rəhbərliyi birinci dəfə deyildir ki, öz ölkəsi daxilində üzləşdiyi və həlli qarşısında aciz qaldığı ağır problemlərdən sərhəddə və ya təmas xəttində iyrənc hərbi təxribatlar törətməklə yaxa qurtarmağa çalışır. Ağır epidemioloji vəziyyətdən və sosial iqtisadi sıxıntılardan cana doymuş xalqın qəzəbindən yayınmaq üçün Paşinyanın diktatura rejiminin hərbi təxribatlara əl atması onun yürütdüyü siyasətin Ermənistanın əvvəlki xunta rejimlərinin yürütdüyü siyasətdən azacıq da olsa fərqlənmədiyinin göstəricisidir.

Azərbaycanın davamlı olaraq artan gücü, beynəlxalq nüfuzu, hərbi qüdrəti, diplomatiyamızın uğurları və bütün bunların məntiqi nəticəsi olaraq dünya birliyinin ermənilərin mənfur siyasətinin həqiqi sifətini tanıması, habelə Ermənistanın Dağlıq Qarabağın müstəqilliyinə bəslədiyi xülyaların puç olması xain və qisasçı erməni siyasi rejimini hərbi təxribatlar törətmək kimi təhlükəli və qanlı üsullara əl atmağa vadar edən digər səbəblərdir.

Növbəti erməni təxribatının münaqişə zonası olan Dağlıq Qarabağ bölgəsindən kənar sərhəd zonasında baş verməsi təsadüfi deyildir və onu törədənlərin məkrli və çirkin niyyətlərindən xəbər verir. İnsan tələfatları ilə müşayiət olunan, bölgədə gərginliyin, qarşıdurmanın və müharibə təhlükəsinin artmasını birbaşa hədəfə alan erməni təxribatlarının cilovlanması üçün dünya birliyinin, beynəlxalq təşkilatların, ələlxüsus vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun səsini ucaltmasının, təcavüzkarın yerində oturdulması üçün ən təsirli addımlar atmasının vaxtı çoxdan çatıb. Dünya nəhayət ki, erməni təxribatlarının və bu təxribatların arxasında duran Ermənistanın siyasi hakimiyyətinin artıq neçə illərdir bölgədə sülh və sabitliyə ən böyük təhlükəyə çevrildiyinin fərqində olmalıdır.

Biz, Azərbaycanın siyasi partiyaları Ali Baş Komandan, Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Xalqımızı həmrəyliyə, Vətənimizə qarşı uzanan qanlı erməni əllərini qətiyyətlə kəsib atmağa hər an hazır olmağa səsləyirik. Şərəfli tarixi olan Ordumuzla qürur duyur, onunla bir olduğumuzu ifadə edirik. Möhtərəm Prezidentimiz və Ali Baş Komandanımızı əmin edirik ki, hər birimiz Vətənimizin şərəfi və namusu yolunda onun istənilən tapşırığını hər an yerinə yetirməyə hazır olan müsəlləh əsgərik".

1. Yeni Azərbaycan Partiyası - Əli Əhmədov
2. AĞ Partiya - Tural Abbaslı
3. Ana Vətən Partiyası - Fəzail Ağamalı
4. Aydınlar Partiyası - Qulamhüseyn Əlibəyli
5. Azadlıq Partiyası - Əhməd Orucov
6. Azərbaycan Azad Respublikaçılar Partiyası - Kamil Seyidov
7. Azərbaycan Demokrat Partiyası - Sərdar Cəlaloğlu
8. Azərbaycan Demokratik Maarifçilik Partiyası - Elşən Musayev
9. Azərbaycan Xalq Demokratik Partiyası - Rafiq Turabxan
10. Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev
11. Azərbaycan Liberal Demokrat Partiyası - Fuad Əliyev
12. Azərbaycan Milli Demokrat Partiyası - Tufan Kərimov
13. Azərbaycan Milli İstiqlal Partiyası - Arzuxan Əlizadə
14. Azərbaycan Mübarizləri Partiyası - Ağadur Müslümov
15. Azərbaycan Naminə Alyans Partiyası - Abutalıb Səmədov
16. Azərbaycan Respublikaçılar Partiyası - Sübut Əsədov
17. Azərbaycan Sosial Demokrat Partiyası - Araz Əlizadə
18. Azərbaycan Sosial Rifah Partiyası - Əsli Kazımova
19. Azərbaycan Təkamül Partiyası - Teyyub Əliyev
20. Azərbaycan Ümid Partiyası - İqbal Ağa-zadə
21. Azərbaycan Yurddaş Partiyası - Mais Səfərli
22. Birlik Partiyası - Xudadat Xudiyev
23. Böyük Azərbaycan Partiyası - Elşad Musayev
24. Böyük Quruluş Partiyası - Fazil Mustafa
25. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası - Qüdrət Həsənquliyev
26. Cümhuriyyət Xalq Partiyası - Bədrəddin Quliyev
27. Demokratik Azərbaycan Dünyası Partiyası - Əlisahib Hüseynov
28. Demokratik İslahatlar Partiyası - Asim Mollazadə
29. Ədalət Partiyası - İlyas İsmayılov
30. Gələcək Azərbaycan Partiyası - Ağasif Şakiroğlu
31. Klassik Xalq Cəbhəsi Partiyası - Mirmahmud Fəttayev
32. Qorqud Partiyası - Firudin Kərimov
33. Milli Demokrat İdrak Partiyası - Osman Əfəndiyev
34. Milli Dirçəliş Hərəkatı Partiyası - Fərəc Quliyev
35. Milli Konqres Partiyası - İxtiyar Şirinov
36. Milli Vəhdət Partiyası - Yunus Oğuz
37. Müasir Müsavat Partiyası - Hafiz Hacıyev
38. Müstəqil Xalq Partiyası - Əflan İbrahimov
39. Vahid Azərbaycan Milli Birlik Partiyası - Hacıbaba Əzimov
40. Vəhdət Partiyası - Tahir Kərimli
41. Vətəndaş Birliyi Partiyası - Sabir Hacıyev
42. Vətəndaş Həmrəyliyi Partiyası - Sabir Rüstəmxanlı
43. Yeni Zaman Partiyası - Musa Ağayev

## Meral Akşener: Səninləyik Azərbaycan!



Türkiyənin İYİ Partiyasının sədri Meral Akşener Azərbaycan-Ermənistan sərhədində baş verən qarşıdurma ilə bağlı Azərbaycana dəstək verib. SİA-nın məlumatına görə, partiya sədri bununla bağlı "Twitter"də paylaşım edib. "Ermənistanın can Azərbaycanımıza qarşı hücum zamanı şəhid olan qardaşlarımıza Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirəm. Sadəcə qardaşlarımız olduqları üçün deyil, işğalçıya qarşı torpaqlarını müdafiə etdikləri üçün də yanlarındayıq, hər zaman da yanlarında olacağıq", - o bildirib.

## Türkiyə PUA-ları Ermənistanla sərhəddə uçuşlar keçirib

Türkiyə Silahlı Qüvvələrinə məxsus pilotsuz uçan aparatları (PUA) Türkiyə-Ermənistan sərhədində nəzarət uçuşları keçirib. SİA xəbər verir ki, bu barədə məlumat "Twitter"də yayılıb. Nəzarət uçuşlarına adi PUA-larla yanaşı silahlı PUA-lar da qatılıb. Qeyd edək ki, Ermənistanın Gümrü şəhərində yerləşən Rusiyaya məxsus 102 saylı hərbi bazasının helikopterləri iki gündür Ermənistan-Türkiyə sərhədi boyu keşikçi uçuşları həyata keçirir.



## Erməni nəşri "Aravot": "Buradan Azərbaycan qalib kimi çıxacaq"



"Müttəfiq nə deməkdir? Bir sözlə, Ermənistan KTMT-na daxil olmaqla heç bir səmərə əldə etməyib. Lakin KTMT-dan çıxarsa, bizim ölkə xələl görəcək, ona görə ki, bu addım Rusiyada bütün üzə çıxan nəticələri ilə (məsələn, qaza qoyulan qiymətin artırılması) narazılıq yaradacaq". SİA xəbər verir ki, bu barədə Ermənistanın Aravot nəşri yazır. SİTAT: "Bu, bir az ona oxşayır ki, evli cütlüklərdən biri nikahın saxlanması üçün heç bir məna görmür, lakin boşanma haqqında ərizə verərkən, qarşı tərəf qalmaqallar yaratmağa başlayır. Əgər vəziyyət məhz bu cürdürsə, mən hazırkı məqamda kağız üzərində olan alyansla razılaşmaqdan və ondan heç nə gözləmədən, başqa çıxış yolu görmürəm. Əsasən də, bizim həqiqətdə istəmədiyimiz şeyi tələb etməmək baxımından: əgər rus ordusu (bəllidir ki, KTMT-nın ordusu yoxdur) Ermənistan-Azərbaycan sərhədində dayanarsa və həmin məntəqədə "sülh" yaratmağa cəhd edərsə, hesab etmək olar ki, buradan Azərbaycan qalib kimi çıxacaq".

# Müxalifət liderləri Ali Baş Komandanın əmrindədir

## *Xalq düşməni lərzəyə gətirən Ordunun yanında və dövlət maraqlarının müdafiəsində olduğunu sübuta yetirdi!*

***İşğalçı və təcavüzkar Ermənistanın dövlət sərhəddimizin Tovuz rayonu istiqamətində törətdikləri silahlı təxribatçı cəhdləri şanlı Azərbaycan Ordusunun cəsur əsgər və zabitləri tərəfindən qətiyyətli cavabını aldı. O cümlədən, bütün xalq ümummilli dəstək göstərərək, düşmənə qarşı birləşib, həmrəylik nümayiş etdirdi. Bu reallıq bir daha sübut etdi ki, işğalçıların heç bir cəhdləri uğurla nəticələnməyəcək və o cümlədən, onlar həmin əməlləri ilə öz məğlubiyyət zamanlarını daha da daratltmış oldular.***



O da əbəs deyil ki, artıq ölkənin aparıcı müxalifət partiyalarının liderləri də xalqın səsinə-səs verərək, siyasi fəaliyyətlərini dondurduqlarını, iqtidarla aralarında olan bütün narazılıqları bir kənara qoyaraq, Vətən, dövlət və torpaqlarımızın bütövlüyü naminə Ali Baş Komandanın əmrində olduqlarını vurğuladılar. Bu fakt isə bir daha sübut etdi ki, Azərbaycan xalqı ümummilli məsələlərdə hər zaman yumruq kimi birləşib, düşmənlərə ağır zərbələrini vurmağa hazırdır.

### AMİP lideri Etibar Məmmədov: **"Hər birimiz öz əsgərimizin, öz ordumuzun, öz dövlətimizin arxasında olacağıq"**

"Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, xalqımıza da baş sağlığı verirəm və eyni zamanda da mən bildirmək istəyirəm ki, bu gün Azərbaycanda hamı ayaq üstündədir, hamı eyni fikirdədir". Bu fikirləri Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) lideri Etibar Məmmədov işğalçı Ermənistanın Tovuz rayonu ərazisində törətdiyi silahlı təxribatını və Silahlı Qüvvələrimizin düşmənə layiqli cavab verməsini, eləcə də Ordumuza ümumxalq dəstəyi göstərməsini şərh edərkən deyib. Onun sözlərinə görə, bütün küçələrə çıxanların da, evlərində oturanların da, ən əsası isə səngərdə döyüşənlərin də qəlbləri eyni cür vurur və hər kəsin də fikrindən belə bir şey keçir ki, biz bu müharibəni başa çatdırmalıyıq və Azərbaycanın da torpaqları azad olunmalıdır: "Tovuzda baş verən hadisə yalnız təxribat deyil, eyni zamanda Azərbaycanın dövlət sərhədinə qarşı təcavüzdür, ölkəmizə qarşı müharibə hərəkətləridir. Azərbaycan da buna qarşı adekvat cavabını verməlidir. Əsgərlərimiz bu cavabı verirlər, ancaq Azərbaycan öz sərhədlərini qorumaqla yanaşı, eyni zamanda işğal olunmuş ərazilərin də təmizlənməsi əməliyyatına başlamalıdır. Mən belə düşünürəm ki, bu, yalnız mənim fikrim deyil, bütün Azərbaycan xalqının fikridir və bu gün də həmin zaman gəlib, xalqın ayaqda olduğu bir vaxtda biz bu əməliyyatı həyata keçirməliyik, Azərbaycan torpaqları da azad olunmalıdır".

AMİP lideri bildirib ki, bütün bunlarla yanaşı, beynəlxalq vəziyyət də bunu bizdən tələb edir. E.Məmmədov hesab edir ki, düşmən tərəfi öz havadarlarının təsiri altında bu hərəkətləri edir: "Bu hərəkətlər yalnız Azərbaycana qarşı deyil, həmçinin, ən yaxın müttəfiqi Türkiyə dövlətinə və xalqına qarşı edilən bir hərəkətdir. Azərbaycan xalqının bu anda Türkiyədən müdafiə görməsi, Azərbaycan xalqının da Türkiyəni müdafiə etməsi bizə imkan yaradır ki, hücum əməliyyatlarına başlasın. Azərbaycanın bunun üçün bütün resursları, hazırlıqlı ordusu olması ilə yanaşı, ölkəmizi belə bir vəziyyətdə idarə edə biləcək kifayət qədər təcrübəli və kifayət qədər bacarıqlı və səriştəli zabit heyəti var. Onların sadəcə siyasi qərara ehtiyacı var və mən belə düşünürəm ki, belə bir siyasi qərarın verilməsində heç bir şübhə yoxdur. Yəni hökumət bu qərarı verərsə, arxaya narahatlıqla baxmaya bilər. Arxa möhkəm olacaq və bütün xalq da bu qərarı verən qüvvələrin arxasında olacaq. Hər birimiz öz əsgərimizin, öz ordumuzun, öz dövlətimizin arxasında olacağıq".

### KXCP sədri Mirmahmud Mirəlioğlu: **"Hər şey cəbhə üçün, hər şey qələbə üçün!"**

"Bizim bir Allahım iz, bir dövlətimiz və bir Milli Ordumuz var. Dövlətimiz, millətimiz də bir olduğu kimi, biz özümüz də birliyimizi saxlamalıyıq və bunu dəyərləndirməliyik". Bu fikirləri isə, Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlu deyib. "Biz siyasətə gələndən demişik ki, millətin əsgəriyik", deyən KXCP sədri əlavə edib ki, belə bir vəziyyətdə hər birimiz hansı siyasi mənsubiyyətə malik olmağımıza baxmayaraq dövlətin müdafiəsində dayanılmalıyıq: "Əslində, bütün siyasi partiyalar bu gün müharibə partiyası olmalıdır. Bütün vətəndaşlar bu müharibəyə qoşulmalıdırlar. Hər şey cəbhə üçün, hər şey qələbə üçün olmalıdır. Dövlətimizin, ordumuzun yanında olmağımız qələbəmizin təminatıdır. Bunu hər kəs bilməlidir".

### ALDP lideri Lalə Şövkət Hacıyeva: **"Bir dövlət var, bir Ordu var, bir millət var"**

"Müharibə vaxtı heç bir müxaliflik ola bilməz". "Bir dövlət var, bir Ordu var, bir millət var", deyə vurğulayan ALDP-nin lideri belə bir zamanda xalqın və dövlətin bir yerdə düşmənə layiqli cavab verəcəyinə inandığını və bütün siyasi məsələlərin arxa plana keçdiyini də qeyd edib, şəhidlərimizə Allahdan rəhmət diləyib.

### AXCP sədri Əli Kərimli: **"Ordumuzun, dövlətimizin ətrafındayıq, yumruq kimiyik"**

"Başda general-mayor Polad Həşimov olmaqla bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Xalqımız növbəti dəfə bir sınaq mərhələsindən keçir. Düşmənlər zaman-zaman bizi sınağa çəkiblər. Bu baxımdan, növbəti dəfə bir sınaq mərhələsi yaşayırıq. Əslində, Xalq Cəbhəsinin yaranış səbəbi də Qarabağ cəbhəsi olub. Azərbaycan xalqının hər yerindən vətənsevər övladlar könüllü batalyonlar yaradıblar. Onların bir çoxu şəhid olublar və aralarında Milli Qəhrəmanlar da var". Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimli təcavüzkar və işğalçı Ermənistanın Tovuz rayonu ərazisində törətdiyi silahlı təxribatını və Silahlı Qüvvələrimizin düşmənə layiqli cavab verməsini, eləcə də Ordumuza ümumxalq dəstəyi göstərməsini şərh edərkən deyib. "Azərbaycan Xalq Cəbhəsinin dövlətinin, millətinin, Ordusunun yanında olmasından təbii heç nə ola bilməz", deyən Əli Kərimli bildirib ki, sədri olduğu siyasi təşkilatın hakimiyyətlə fikir ayrılıqları olub: "Lakin indi mən düşündüm ki, torpaqlarımızın hər qarışının müdafiəsi naminə, Vətənimizin bu işğaldan qalib çıxması naminə onun bütün övladları bir yumruq kimi birləşə bilirlər. Ona görə də mən Fesybuk səhifələrimin adminlərinə yazılı müraciət göndərdim və orada çox açıq şəkildə yazdım ki, biz hökumətlə bütün fikir ayrılıqlarımızı, mübahisə yarada biləcək tənqidləri daha yaxşı zamanlara saxlayırıq. Gözləri arxada qalmasın, bütün resurlarını cəbhədə qələbə naminə səfərbər etsinlər. AXC-nin sıralarında çoxsaylı keçmiş döyüşçülər var və onlar hər an silaha sarılmağa hazırdırlar. Azərbaycan dövlətinin bu savaşdan qalib çıxması üçün üzərimizə düşən hər şeyi etməyə hazırıq. İndi əsas vəzifə şəhidlərimizin qanını, qisasını almaqdır. Biz torpaq itirməməliyik. Düşmən həddindən artıq azğınlıq edir və Qarabağ da daxil, Azərbaycanın

# Müxalifət liderləri Ali Baş Komandanın əmrindədir

## Xalq düşməni lərzəyə gətirən Ordunun yanında və dövlət maraqlarının müdafiəsində olduğunu sübuta yetirdi!

öz torpaqlarında. Amma heç bir mübahisə olmayan, dövlət sərhədinin Azərbaycan tərəfində, evimizin içində generalımızı öldürmək qədər azğınlaşması cəzasızlığın nəticəsidir. Ona görə də Ordumuz düşmənin dərsini verməlidir və biz Ordumuza inanırıq, hesab edirik ki, bu döyüşdə qələbə qazana bilərik və qazanmalıyıq. Bu baxımdan, bir daha bütün Azərbaycan xalqına müraciət edərək deyirəm ki, indi Ordumuzun, dövlətimizin ətrafındayıq, yumruq kimiyik, hamımıza qələbə lazımdır və o qələbəni Azərbaycan xalqı haqq edir".

### VİP sədri Əli Əliyev: "Bu gün biz Ordumuzun, əsgər və zabitlərimizin, Ali Baş Komandanımızın yanındayıq"

"Bu təşəbbüs çox yaxşıdır. Belə ki, Azərbaycanın siyasi sektorunun müharibə ətrafında təmərküzləşməsi var, fikirlər bir mövqedən ifadə olunur".

"Mən öz efirimdən də demişəm ki, bu gün daxili münasibətlərin aydınlaşdırılması zamanı deyil, bu gün düşmənə cavab verilməsi vaxtıdır", deyən VİP sədri bildirib ki, əslində, düşmən daha da azğınlaşıb: "Düşmən azğınlaşıb və həyasızlaşıb. Onun cavabı verilməlidir. Onların cavablarını biz siyasilərdən qabaq artıq xalq verib. Xalq hər yerdən axışmaqla bu münasibətlərini ifadə ediblər. Siyasilər də bu gün xalqın arxasınca gedib, prosesdə öz mövqelərini ifadə etməlidirlər. Bəs bu mövqe nə olmalıdır? Bu mövqe ilk növbədə dövlətə, dövlətin başında dayanan şəxslərə, dövlətə görə məsuliyyət daşıyan birinci dərəcəli adamlara siyasi dəstəkdə ifadə olunmalıdır. Ümumiyyətlə, bu gün Azərbaycanda hamı siyasi fəaliyyətini dayandırmalıdır. Biz bu məsələni partiyada müzakirə edəcəyik və iclasın da vaxtı müəyyən edilib. Siyasi mübarizə dayandırılmalı və düşmənə qarşı yönəldilməli, düşmən əzilməlidir. Bu gün bizim üçün ağır gündür, generalımız şəhid olub, yanındakı zabit və sıravi heyəti də həlak olub. Amma mənə elə gəlir ki, ruhdan düşmək lazım deyil. Bu hadisə ilə hamı bir-birini təbrik etməlidir. Müharibə olan yerdə şəhid də olmalıdır. Biz şəhidlərimizi başıyuxarı qarşılamalıyıq. Bu gün Azərbaycanın hər nöqtəsində yürüş var və Azərbaycan xalqı öz torpaqlarını azad etmək üçün öz qeyrəti ilə nümayiş etdirir. Bu, çox böyük örnəkdir. Bu, əsgər və zabitlərimizlə yanaşı, həm də bütün dünyaya bir mesajdır ki, Azərbaycan dövləti və xalqı torpaq məsələsində, ərazi bütövlüyü uğrunda geri durmayacaq. Ona görə də müharibədən ruhlanmaq lazımdır ki, biz şəhidlərimizin qisasını alaq. Bu şəraitdə hər kəs bir-birinə çiyin verməlidir, şəxsi münasibətlər kənara qoyulmalıdır, bu günə qədər olanlar unudulmasa da, arxa plana keçirilməlidir. Biz bir Vətənin, bir dövlətin övladlarıyıq. Düşmən məsələsində daxili ayrıseçkilik, daxili qarşıdurma, daxili aydınlaşdırmalar ola bilməz. Bu gün bütün ölkənin potensialı ordu ətrafında, düşmənin əzilməsi ətrafında səfərbər olmalıdır. Bütün dünya görməlidir ki, Qarabağ məsələsində Azərbaycan xalqı bütövdür. Ən vacibi isə, qərarı qəbul edən adamlar tamamilə xatircəm və əmin olmalıdırlar ki, ölkənin daxilində heç bir təxribat, heç bir qarşıdurma ola bilməz. Biz öz tərəfimizdən bunun olmayacağı ilə bağlı tam məsuliyyətimlə bəyanat verirəm ki, bizim tərəfimizdən heç bir siyasi qarşıdurma, heç bir siyasi məsələ olmayacaq. Bu gün biz Ordumuzun, əsgər və zabitlərimizin, yeri gələndə Ali Baş Komandanımızın yanındayıq və onlar çox əminliklə qərar vermək gücündə olmalıdırlar. Düşmənə nifrət hissi bəslənilməlidir, müxalifət liderləri ilə görüşlər keçirilməli, dövlət telekanallarına siyasilər çıxarılmalıdırlar, siyasilər dövlətin adından hamıya müraciət etməlidirlər. Mən də bu məsələdə istənilən dəstəyi verməyə hazıram. Bu millətin bütövlüyünü, vahidliyini göstərmək hamının vəzifəsidir. Hər kəs görməlidir ki, çətin vaxtda biz bir-birimizlə deyil, düşmənlə həll eləməyi üzərimizə bir borc kimi götürürük. Erməni heç vaxt bizə qarşı tab gətirə bilməz. Əgər proses başlayıbsa, biz onu sona çatdırmağı bacarmalıyıq. Şuşanı da, Xankəndini də təmizləmək, sərhədlərimizi möhkəmləndirmək, Laçın və Kəlbəcəri geri qaytarmaq lazımdır. Tərəddüd etmədən Cəbrayıl körpülərini də geri qaytarmaq lazımdır, Zəngilan, Qubadlı və işğal altındakı bütün torpaqlarımız düşmən tapdağından azad olunmalıdır. Heç kəs bizi bu əməliyyatdan saxlaya bilməz. Hətta səfərbərlikdə də iştirak etməyə hazırıq".

### Ümid Partiyasının sədri İqbal Ağazadə: "Çəkinmədən Ali Baş Komandanımın, Azərbaycan dövlətimin əsgəriyəm deyirəm"

"İlk növbədə şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyirəm. Əsgər və zabitlərimizə isə deyirəm ki, biz sizin yanınızdayıq". Partiya sədri bildirib ki, o, Ali Baş Komandana müraciət edib: "Ali Baş Komandanımıza müraciət edərək bildirmişəm ki, mən də bir əsgərəm və bir əsgər kimi ön cəbhədə vuruşmağa hazıram. Yaşım, təcrübəm imkan verir ki, mən Qarabağda təcrübəmə əsasən daha yaxşı, daha sistemli döyüşə bilim. Siyasi fəaliyyətimi bir kənara qoyub, özümü əsgərdən başqa bir şey hesab etmirəm. Mən bir əsgərəm və bir əsgər kimi meydanda, sərhəddə düşmənlə vuruşub-ölmək şərəfdir, bu şərəfin yaşanması mənim üçün ən böyük arzulardan biridir. Bilərəm ki, biz bu gün apardığımız mübarizə və mücadilə ilə torpaqlarımızı işğalçılardan azad edərək, gələcək nəsillərimizin təhlükəsizliyinə təminat veririk. Ölkə daxilində milli birlik var, ölkə daxilində Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində vətəndaş həmrəyliyi var, hər kəs yaşından, siyasi mövqeyindən, dini mənsubiyyətindən, təriqətindən, məzhəbindən, etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycan dövlətinin yanındadır, onun maraqlarının qorunması üçün canını belə verməyə hazırdır".

Partiya sədri bildirib ki, bu döyüşlər 2016-cı ilin Aprel döyüşlərindən daha mütəşəkkil və daha açıq şəkildə özünü göstərir və bu da Azərbaycan Respublikasının Ali Baş Komandanına imkan verir ki, torpaqlarımızı azad etmək üçün müharibə əmrini verməklə hər kəsi bu müqəddəs iş ətrafında birləşdirsin: "Hamımız nəhayətdə özümüz üçün deyil, övladlarımız və gələcəyimiz üçün dövlətin hürr və azadlığı üçün son döyüşə girib qalib gəlməli, düşməni öz ərazilərimizdən çıxarmalıyıq. Mən burada siyasi partiya lideri kimi danışmıram, burada hakimiyyətlə eyni mövqeyi bölüşməyən bir adam kimi fikir bildirmirəm. Çəkinmədən mən bir əsgərəm deyirəm, Ali Baş Komandanımın, Azərbaycan dövlətimin əsgəriyəm deyirəm. Bir əsgər kimi də ön cəbhədə vuruşmağa, işğalçını geri oturtmağa, torpaqlarımızı azad etməyə canımla, qanımla mənə inananlarla bir yerdə hazıram".

İqbal Ağazadə bir məsələni də qeyd edərək bildirib ki, ona Rusiyadan çoxsaylı zənglər olub və orada yaşayan soydaşlarımız yolların açılmasına Azərbaycan hökuməti dəstək göstərsin və hər biri ellikcə cəbhəyə yollansınlar: "Onlar bildirirlər ki, heç bir siyasi mövqeyə, heç bir siyasi iddiaya malik deyillər və işğal altındakı torpaqlarımızın azadlığı uğrunda "canım sənə fəda Azərbaycan" deyib, bu savaşda iştirak etmək istədiklərini deyirlər. Hökumətimiz bu istiqamətdə nə dəstək və qərar verəcəksə, hamılıqla onların yanında olacağıq. Bir daha deyirəm ki, mən artıq siyasətçi deyiləm, bir əsgərəm və deyilən yerdə dayanmağa hazıram, əmr gözləyirəm, Vətən savaşı başlasın mən də ön cəbhəyə gedim. Qoy övladlarımızdan əvvəlki sıranı biz tutaq".

### AXP sədi Pənah Hüseyn: "Ölkə Prezidentinin və Ali Baş Komandanın yanında olmağa hazırıq"

"Allah şəhidlərimizə rəhmət eləsin, onların yaxınlarına, valideynlərinə, silahdaşlarına, əsgər yoldaşlarına, uca millətimizə baş sağlığımı çatdırıram. Bu, açıq-aydın bir müharibədir və növbəti dəfə təcavüz qarşısındayıq. Həm düşmən olaraq Ermənistan, həm də onun arxasında duran güclər ölkəmizə, Vətənimizə, xalqımıza təcavüz edirlər. Ona görə də bir millət olaraq, siyasi mənsubiyyətindən, yaşından, cinsindən, dinindən, etiqadından asılı olmayaraq hamımız bir sırada dayanıb, canımızla-qanımızla Vətənimizi, torpağımızı qorumalıyıq".

"Bu dönəmdə bütün siyasi, ictimai-siyasi, sosial fikir ayrılıqlarını bir tərəfə qoyub, düşmənin burnunu əzmək lazımdır", deyən Pənah Hüseyn bildirib ki, Azərbaycan Xalq Partiyasının sədri olaraq indiki məqamda dövlətin, hakimiyyətin yanında olmağa dair qərarımız var. İnşallah bu ağır məqamdan millətimiz üzüağ çıxacaqdır: "Artıq dözmək mümkün deyil. Bu baxımdan, ölkə Prezidentinin və Ali Baş Komandanın yanında olmağa hazırıq. Ona qarşı bu məsələdə kimlər qarşı çıxacaqsa, onlara da qarşı çıxmağa hazırıq. Bir partiya sədri olaraq mən bu fikirlərimi bəyan edirəm. Bütün siyasi məsələləri bir kənara qoyuruq və öncə Vətən, öncə Vətən və yenə də öncə Vətən deyirəm".

### AMDP sədri Nemət Pənahlı: "Bu andan etibarən dövlətin və hakimiyyətin xidmətindəyik"

"Bütün Azərbaycan xalqına başsağlığı verirəm. Müharibə olan yerdə şəhid də olacaq. Müharibə bir millətin şərəfini qorumaq deməkdir. Bütün Azərbaycan xalqına üz tutub deyirəm ki, əziz yurddaşlarım və qardaşlarım, millət məsələsində, Vətən məsələsində müxalifət mövqeyi olmaz. Hal-hazırda mənim də əlim silah tutmağa qadirdir. Övladlarım da buna hazırdır və bu andan etibarən dövlətin və hakimiyyətin xidmətindəyik".

"Vətənimizi, millətimizi qorumaqdan, işğaldan azad etməkdən ötrü əlimizə çox gözəl bir fürsət düşüb və bu fürsəti əldən vermək olmaz. Müharibə ilə alınan torpaq sülhlə alına bilməz", deyən Nemət Pənahlı bildirib ki, 27 ildə ötüb-keçənlər də göstərdi ki, düşmən sülh yolu ilə torpaqları geri verməyəcək: "Hakimiyyət də əmin olsun ki, bütün Azərbaycan xalqı son nəfəsinə qədər mübarizə aparmaq gücündədir və dövlətimizin xilası Qarabağın azad olunmasından keçir. Hətta torpaqlarımız azad edildikdən sonra belə, ən qatı müxalifətin bu hakimiyyətə dəstək göstərəcəyinə mənim zərrə qədər şübhəm yoxdur. Əgər kimsə bunu edərsə, xalq və bizim tərəfimizdən cəzasını alacaqdır".

AMDP sədri xüsusilə Türkiyənin açıq dəstəyini və eyni zamanda beynəlxalq təşkilatların və s. ölkələrin dəstəklərini də xatırladaraq, Azərbaycanın haqq-ədalət yolunda olduğunu bildirib və torpaqlarının azad edilməsi, düşmənin məğlub olunması üçün güclü Ordusunun da olduğunu vurğulayıb".

Göründüyü kimi, belə bir həssas məqamda çıxış edən müxalifət partiyalarının sədrləri və liderləri örnək addım atmaqla dövlətçilik maraqlarının qorunmasını hər şeydən üstün olduğunu bildiriblər. O cümlədən, bu reallıq həm də qələbənin elə də uzaqda olmadığının göstəricisidir. Azərbaycan xalqını yalnız qələbə, ərazi bütövlüyünün təminatı və daha çox zəfərlər gözləyir.

**Rövşən RƏSULOV**

# Azərbaycan xalqı öz Prezidentinə, Ali Baş Komandanına və Milli Ordusuna qətiyyətli dəstək nümayiş etdirdi

*Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlunun yap.org.az-a müsahibəsi*



***- Hikmət müəllim, iyunun 12-də Ermənistanın silahlı qüvvələri növbəti dəfə Ermənistan-Azərbaycan dövlət sərhədində təxribat törətdi və layiqli cavabını aldı. Bu hadisə ilə bağlı sizin fikirlərinizi bilmək maraqlı olardı...***

- Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Ordusu bu təxribata layiqincə cavab verməklə bir daha sübut etdi ki, istənilən ekstremal vəziyyətdə və mürəkkəb şəraitdə çevik əməliyyat qərarları qəbul edə bilir və onu mükəmməl yerinə yetirir. Ancaq ən mühüm məsələ odur ki, Ordumuzun gücünü və qərarlılığını təmin edən ali siyasi iradə var və bu iradə xalq tərəfindən dəstəklənir. Başqa sözlə, Azərbaycanda olan xalq-iqtidar birliyi, əslində, milli gücümüzün əsasını təşkil etməklə düşmənə qarşı mübarizədə də xalqımızı güclü edir. Təxribatın niyə məhz indi və təmas xəttində deyil, sərhəd zonasında olması məsələsinə gəldikdə isə, bunun bir neçə strateji və taktiki aspektləri var. Bu səbəblərə keçmədən öncə deyim ki, işğalçı Ermənistan bu təxribatla əldə etmək istədiyi hədəflərin heç birinə çata bilmədi.

Ancaq düşünürəm ki, strateji və taktiki hədəflər sadəcə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə məhdudlaşmadığı üçün bu məsələnin üstündə bir qədər ətraflı dayanmaq lazımdır. Hadisəni ilk növbədə dünyada yaranan yeni hərbi-siyasi nizam kontekstində qiymətləndirməyə çalışsaq, qarşımıza çıxan reallıq ondan ibarətdir ki, Azərbaycan yeni dünya nizamında güclü milli aktor olmaq üçün özünə xeyli məqbul şərtlər təmin edə bilib. Bu ölkəmizi cəlb edildiyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həlli məsələsində də növbəti mərhələni əvvəlkindən daha perspektivli edir. Şübhəsiz ki, bu nailiyyətlər, hər şeydən öncə, Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi strateji diplomatiya və həyata keçirməyə nail olduğu qlobal enerji və nəqliyyat-kommunikasiya layihələri ilə şərtlənir. Hazırkı mərhələdə isə geniş mənada regionumuz hesab edə biləcəyimiz Yaxın Şərq, Şimali Afrika və Qafqaz regionunda yeni geostrateji balans formalaşmaqdadır və bu tarazlıqda Azərbaycan özünə xeyli dərəcədə əhəmiyyətli mövqe təmin edə bilib. Nəzərə alsaq ki, Şimali Afrika və Yaxın Şərqin dominant aktorlarından ikisi həm də bizim regionumuzun strateji aktorlarıdır, o zaman nədən söhbət getdiyini daha yaxşı anlaya bilərik.

Məsələ ondadır ki, bütün bunlar Ermənistan baş nazirinin başı total diktatura rejimi qurmağa və ölkəsində faşizmi təbliğ etməyə qarışanda olub. Yəni son 3 ildə regionumuzda yeni strateji balans formalaşmaqdadır və bu prosesdə Azərbaycan bütün mövqelər üzrə ciddi uğurlar əldə etməkdədir. Hətta siyasi tariximizdə ilk dəfədir ki, Azərbaycan, eyni zamanda, iki beynəlxalq təşkilata rəhbərlik edir, dünyanın siyasi gündəmini təyin edən təşəbbüslərlə çıxış edir, dəstək qazanır və s. Ermənistan isə birdən dərk etməyə başladı ki, belə mühüm tarixi mərhələdə nəinki özünə mövqe qazana bilib, əksinə ənənəvi tarixi müttəfiqlərinin də dəstəyini ya itirib, ya da itirməkdədir. Ona görə də, bir növ, geostrateji hadisələrin arxasıca qaçmağa başlayıb. Elə 12 iyul tarixində əvvəlcədən planlaşdıraraq törətdiyi təxribat da, heç olmasa, öz ənənəvi müttəfiqlərinin gözündə özünü strateji ortaq kimi yenidən təsdiq etməyə yönəlib. Ancaq bu prosesdə həm də Qərbdən almağa ümid etdiyi dəstəyi itirib. Ona görə də hərbi təxribatdan dərhal sonra siyasi- diplomatik təxribata əl atdı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istədi. İkinci məsələ isə işğalçı ölkədə həddindən artıq sosial və iqtisadi problemlərin olması və üstəlik, COVID-19 pandemiyasına qarşı mübarizə apara bilməməsidir. Buna görə də Paşinyana qarşı öz ölkəsində kütləvi ictimai nifrət var və o hesab etdi ki, bu nifrəti Azərbaycana qarşı yönəltmətməklə diktaturasının ömrünü uzada bilər. Ancaq Azərbaycan Ordusu və diplomatiyası hər iki seqment üzrə onun siyasətini iflasa uğratdı.

Paşinyan nə çox arzu etdiyi KTMT-nin dəstəyini əldə edib onu münaqişəyə cəlb edə bildi, nə də sərhədimizdə törətdiyi hərbi təxribatı daxili siyasətdə uğur kimi təqdim edə biləcəyi bir nəticə əldə edə bildi. Nəticədə daxili siyasi dayaqlarını və xarici dəstəyi bir daha itirmiş oldu. Bu isə ondan xəbər verir ki, Ermənistanda hakimiyyətə kim gəlirsə-gəlsin, işğal etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz qaytarmayana qədər heç bir sosial, ya da iqtisadi uğur əldə edə bilməyəcək. Çünki regionda bütün iqtisadi, enerji və nəqliyyat kommunikasiyalar Azərbaycanın nəzarəti altındadır və bu mövqe getdikcə beynəlxalq dəstəklə daha da güclənir.

***- Ermənistanın bəhs olunan təxribatından sonra paytaxt Bakıda və digər şəhərlərimizdə mitinqlər oldu. Bu hadisə kontekstində ölkəmizdəki ictimai-siyasi prosesləri necə qiymətləndirirsiniz?***

- Hər şeydən öncə qeyd etmək lazımdır ki, bu möhtəşəm mitinq Azərbaycan xalqının öz Prezidentinə, Ali Baş Komandanına, öz Milli Ordusuna dəstək mitinqi idi, milli və ictimai-siyasi həmrəyliyimizin nümayiş olunması baxımdan olduqca əhəmiyyətli idi. Bu, eyni zamanda, Azərbaycan xalqının öz dövləti, siyasi hakimiyyəti və ordusu ilə birlikdə işğalçı Ermənistana cavab mitinqi idi. Ancaq biz bu mitinqi daxili sosial-siyasi struktural keyfiyyət baxımından qiymətləndirən zaman, ən azı, zahiri həmrəylik qədər daxili komponentlər baxımından da nə dərəcədə mühüm olduğunu görə bilərik. Bu mintinqlə bağlı bəzən deyirlər ki, "lider yox idi", yaxud "təşkilatçı yox idi". Bu, tamamilə yanlışdır. Bu mitinqin təşkilatçısı Azərbaycan xalqı, lideri isə Ali Baş Komandanımız idi. Çünki xalq Ali baş Komandan, Prezident İlham Əliyevə müraciətən, onu dəstəkləmək məqsədilə meydanlara çıxmışdı.

Sırf daxili sosial-struktural kontekstdə ikinci mühüm keyfiyyət dəyişikliyi isə o idi ki, bu vaxta qədər radikal müxalifət kimi təsnifatlandırdığımız müxaliflər bu siyasi prosesi istismar etmək niyyətinə düşmədilər və bunu etmədilər. Bu da özlüyündə yaxşı hal idi və düşünürəm ki, ölkəmizdə həyata keçirilən islahatların gətirdiyi konstruktiv siyasi dialoq əhvalruhiyyəsi ilə bağlıdır. Üçüncü ən əsas məsələ isə o idi ki, bu mitinq həm də ermənilərin ideoloqlarına və onların işğalçılıq siyasətini dəstəkləyən hegemon güclərə, islamofob mərkəzlərə xalqımızın layiqli cavabı idi. Sonuncu mənəvi-siyasi komponent onunla əlamətdardır ki, işğalçı Ermənistan və onu dəstəkləyənlər hesab edirdilər ki, müəyyən müddət keçdikdən sonra Azərbaycan xalqının milli, vətənpərvərlik hissləri getdikcə korşalacaq və bundan əvvəlki tarixi hadisələrdə olduğu kimi, yalançı xalq diplomatiyası və qarşılıqlı "etimad mühiti" yaratmaqla status kvonu legitimləşdirəcəklər. Bax, Azərbaycan xalqı dünənki mitinqlə düşmənin bu ümidlərini əlindən aldı və bir daha sübut etdi ki, öz Prezidentinin qətiyyətinə necə dəstəkləyir və xalq-iqtidar birliyi, nəticə etibarilə, torpaqlarımızın azad edilməsinə gətirib çıxaracaq.

***- Mitinqin sonunda baş verən təxribat cəhdləri haqqında nə deyə bilərsiniz?***

- Bu, Azərbaycan xalqının nümayiş etdirdiyi yüksək vətənpərvərlik, ümummilli həmrəylik fonunda olduqca sönük göründü. Eyni zamanda, ötən əsrin 90-cı illərindən bəri müsbət mənada qət etdiyimiz məsafənin, milli yetkinliyin fərqini ortaya qoydu ki, bu da mühüm hadisə idi. Artıq xalqımız yaxşı bilir ki, müxtəlif xarici qüvvələrin görünən və görünməyən təhriki ilə milli maraqlarımıza qarşı hərəkət etmək ümumi mənafelərimizə sarsıdıcı zərbə vura bilir. Dünənki hadisədə qanun pozuntusuna yol verənlərin çox kiçik bir qismi bunu nə məqsədlə etdiyini bilirdi. Qalanı isə ümumi axında onlara sadəcə qoşulanlar idi. Ona görə də təxribatın miqyası da kiçik oldu. Bu, bir daha ictimai-siyasi savadlılığımızın göstəricisidir. Ancaq nə olursa-olsun hüquq mühafizə orqanlarımız anarxist hərəkət edərək ümummilli həmrəyliyimizi nümayiş etdirən, şəhidlərimizin ruhuna hörməti ifadə edən mitinqə kölgə salan şəxsləri layiqincə cəzalandırmalı, ictimaiyyətimiz isə onların bu hərəkətini qətiyyətlə qınamalıdır. Bir məsələni də unutmaq olmaz ki, hazırda biz həm də koronavirus pandemiyası ilə "müharibə" vəziyyətindəyik. Bu "müharibə"də də vətəndaşlarımız öz həyatlarını itirir. Belə olduğu təqdirdə, biz sağlam olmalı, sağlam nəsil yetişdirməliyik ki, erməni işğalçılarına qarşı mübarizə apara biləк. Bizə yaraşan hansısa virusa yaxalanaraq ölmək deyil, bizə yaraşan torpaqlarımızı işğal edən düşməni müqəddəs torpaqlarımızdan çıxarmaq və bu yolda lazım gələndə şəhidlik zirvəsinə ucala bilməkdir! Ona görə də indiki vəziyyətdə heç bir halda yenidən kütləvi mitinqlərin təkrarlanmasına yol vermək olmaz və bunun üçün müvafiq qurumlarımız mütləq önləyici tədbirlər görməlidirlər.

Yekun olaraq qeyd etmək istəyirəm ki, 12 iyulda baş verən erməni təxribatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin ətrafında yeni situasiya yaratdı və yeni vəziyyət bizim irəliməyə olmaqla problemin tezliklə həllini aktual edir. Elə daxili ictimai-siyasi münasibətlər baxımından da bu təxribat Ermənistanda dağıdıcı, Azərbaycanda isə birləşdirici faktora çevrildi.

## Vüqar Rəhimzadə: Orduya dəstək hər bir vətəndaşın borcudur



"Vətən, torpaq uğrunda həlak olanlar şəhidlik zirvəsinə ucalırlar. Onlar, eyni zamanda, bu qəhrəmanlıqları ilə gənclərimizdə vətənpərvərlik hissini daha da artırır, işğal altında olan torpaqlarımızın azad edilməsi üçün dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hücum əmrini gözləyirlər. İyulun 14-15-də Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilmiş aksiya cəmiyyətimizdə vətənpərvərlik ruhunun nə qədər yüksək olmasına bir daha işıq saldı. Bu, kimliyindən, siyasi əqidəsindən, etnik və dini mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı üçün qürurvericidir. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin daim çağırışlarının əsas mahiyyətini təşkil edən bu tezisi bir daha yada salmaq istərdik: "Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya da daha çox güc verir, xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir." Təbii ki, bütün qüvvələr ordu quruculuğuna səfərbər olmalıdır. Əbəs yerə deyilmir ki, ordun varsa, yurdun var. Bu günlərdə Azərbaycan Silahlı Qüvvələrinin ermənilərin təxribatının qarşısını qətiyyətlə alması da bunu bir daha təsdiqlədi."

Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, orduya dəstək hər bir vətəndaşın borcudur, bu məqsədlə müxtəlif tədbirlərin, aksiyaların keçirilməsi təqdirəlayiqdir. Amma bununla yanaşı, iyulun 14-ü gecə saatlarında orduya dəstək adı altında keçirilən yürüşdən sui-istifadə halları müşahidə edildi, prosesə siyasi məzmun verməyə, neqativ emosiyaların formalaşdırılmasına cəhdlər göstərildi: "Təbii ki, iyulun 12-də baş verən təxribat Azərbaycan ictimaiyyəti tərəfindən hiddətlə qarşılanmaya bilməzdi. Bu, sosial şəbəkələrdə hərbi əməliyyatlara başlamaq, sıravi vətəndaşların toplanaraq cəbhə bölgəsinə getmək, silaha sarılaraq torpaqlarımızı işğaldan azad etmək kimi çağırışların səslənməsinə rəvac verdi. Bu kimi məqamlar bir tərəfdən Azərbaycan cəmiyyətində vətənpərvərlik hissinin yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Amma digər tərəfdən də unutmamalıyıq ki, indi 1990-cı illərin əvvəlləri deyil ki, nizami ordu olmadığına görə vətəndaşlar öz gücünə torpaqlarımızı müdafiə etmək məcburiyyətində qalsınlar. İndiki həssas məqamda arzuolunmaz xaotik təşəbbüslər yalnız düşmənlərimizi sevindirə, ölkəmiz, Silahlı Qüvvələrimiz haqqında uydurmalarını daha da genişləndirməyə imkan yarada bilər. Bu gün Azərbaycanın güclü, qüdrətli ordusu vardır. Azərbaycan Silahlı Qüvvələri ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qarşıya qoyduğu istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Baş redaktor onu da vurğulayıb ki, hazırda sərhəddə hərbi əməliyyatlar getdiyi bir zamanda bir qrup şəxsin Bakının küçələrində iğtişaş törətmək cəhdləri, Milli Məclisin binasına girərək vandallıq törətməsi, polislərə qarşı zor tətbiq olunması vətəndaşlıq mövqeyinə və mövcud qanunlarımıza ziddir, ən başlıcası şəhidlərin ruhuna hörmətsizlikdir: "Qəti əminəm ki, aidiyyəti dövlət qurumları lazımi araşdırmalar aparacaq, təxribatçılar, düşmən dəyirmanına su tökənlər layiqli cəzalarını alacaqlar. Azərbaycan güclü dövlətdir. Cəmiyyətimiz qanunlarla idarə olunur. Hər kəs qanun qarşısında eyni məsuliyyəti daşıyır. Ölkədə sabitliyi qorumaq hər kəsin vətəndaşlıq borcudur. Sabitlik, təhlükəsizlik, əmin-amanlıq, iqtisadi inkişaf, sosial rifah müstəqillik dövrümüzün ən böyük nailiyyətləridir. Azərbaycan ulu öndər Heydər Əliyevin dahiyanə uzaqgörənliklə müəyyənləşdirdiyi siyasətin nəticəsində müstəqilliyimizin ilk illərinin xaosundan, anarxiyasından, özbaşınalıqlarından, iqtisadi tənəzzülündən xilas olub, inkişaf, tərəqqi yolunda inamla irəliləyir. Azərbaycanın sabitlik diyarına çevrilməsi ölkəmizə investisiya axınını sürətləndirir, bizimlə əməkdaşlığa maraqlı olan dövlətlərin sayının artmasına geniş imkanlar açır. Azərbaycan bu gün dünyanın ən islahatçı 20 ölkəsi sırasında qərarlaşıb. Son 16 ildən artıq dövrdə Heydər Əliyev siyasətinin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan ən yüksək zirvələri fəth edir. Ölkəmiz iqtisadi, siyasi, humanitar mərkəzə çevrilib. Beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün ideal məkan deyiləndə göz önünə ilk olaraq Azərbaycan gəlir. Bütün bu uğurlarımız dövlətimizin düşünülmüş və məqsədyönlü siyasəti ilə yanaşı, xalqımızın əyilməz iradəsi, uzun illərin əziyyəti və zəhməti, şəhidlərimizin qanı bahasına əldə edilib. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunması, daimi, əbədi olması bundan da çətindir. Bunun üçün uğurlarımızı hər vəchlə qorumalı, ölkəmizin inkişafına töhfələrimizi artırmalı və istənilən pozucu hərəkətlərə qarşı öz vətəndaş mövqeyimizi nümayiş etdirməliyik."

V.Rəhimzadə bu gün istər dünyanı cənginə alan pandemiya ilə, istərsə də cəbhədə düşmənə qarşı mübarizədə milli birlik, həmrəylik, güclü milli iradə nümayiş etdirməyin vacibliyini qeyd edib: "Qəhrəman ordumuz Azərbaycanın müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün təminatçısıdır. Torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanlar heç vaxt unudulmayacaq, onlar daim qəlbimizdə yaşayacaqlar. Onların qəhrəmanlığı, şəhidlik zirvəsinə ucalması Azərbaycan Ordusunun əsgərləri, gənclərimiz, bütövlükdə hər bir Azərbaycan vətəndaşı üçün böyük örnəkdir."

# Rasim Quliyev: "Bu gün Azərbaycan gözəgörünən və görünməyənlə mübarizə aparır"



***"Vətəndaşlarımız pandemiyaya qarşı anlayışlı olmağa məcburdur, əks halda hədəf ola bilərik". Bunu SİA-ya açıqlamasında Resurs Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev deyib.***

Onun sözlərinə görə, hazırda bütün dünyanın koronavirus epidemiyasına qarşı mübarizə apardığı bir dövrdə ölkəmizdə də Azərbaycan vətəndaşlarının sağlamlığını təhdid edən və virusa qarşı dövlətimiz tərəfindən mübarizə tədbirləri həyata keçirildiyi bir dönəmdə erməni xainlərinin təxribatı nəticəsində cəlb olunduğumuz mübaribədə sözsüz ki, bizim ordumuz, dövlətimiz, vətəndaşlarımız qələbə qazanmaq üçün əlindən gələni edəcək və onlara layiqli cavabı verəcək: "Amma unutmamalıyıq ki, koronavirus pandemiyası ilə mübarizə hələ də davam edir. Biz cəmiyyətimizin, gələcəyimizin, övladlarımızın, valideyinlərimizin sağlamlığını təhdid edən virusa qarşı birgə həmrəylik nümayiş etdirib mübarizə aparmalıyıq. Əvvəllər də dəfələrlə epidemiya, onun tarixi, mübarizə metodları, gigeyenik, mənəvi-psixoloji tərəfləri ilə bağlı çıxışlar edərək cəmiyyətin bu mübarizədə qalib gəlməsi üçün anlayışlı yanaşmanın vacibliyini qeyd etmişik. İstər virus mənşəli, istər mikrob, istər laborator və ya təbii şəraitdə, istər bakterioloji silah kimi insanlara qarşı istifadə edilmişdirsə fərqi yoxdur. Fakt odur ki, bu gün bütün dünyanı məşğul edən, iflic edən əsas mövzudur və dünya gündəminin əsas mövzusuna çevrilmiş Covid-19 gerçəkliyinin səbəbkarı Azərbaycan dövləti deyil, əksinə onunla mübarizədə bəlkə də dünyada ən fəallar sırasında birincilikdə Azərbaycan dövlətinin başçısı şəxsən İlham Əliyev dayanır. Pandemiya elan olunandan dərhal öz vətəndaşlarının və cəmiyyətin sağlamlığına istiqamətlənmiş dövlət siyasətinə uyğun planlı proqram üzrə tədbirlərə başlanıldı. Mövcud resurslar və proqnoz üzrə imkanlar səfərbər olunaraq bu istiqamətdə qabaqlayıcı tədbirlər həyata keçirildi və bu gün də davam edir".

Azərbaycanda epidemioloji vəziyyətin nəzarətdə olduğunu deyən Rasim Quliyev bildirib ki, plan üzrə müvafiq tədbirlər həyata keçirilir: "Ölkə iqtisadiyyatının vacib sahələrinin inkişafı, əhalinin mənəvi-psixoloji vəziyyəti nəzərə alınaraq epidemiya ocaqlarının lokalizasiya olunması ilə müşayiət olunan dəyişkən, mərhələli karantin rejiminin və qaydaların tətbiq olunması, tibbi-texniki potensialın inkişafı, maddi-sosial təminatın gücləndirilməsi və nəzarətdə saxlanılması, dövlət nəzarətinin bu istiqamətdə əsas prioritetlərdən birinə çevrilməsi təqdirəlayiq haldır. Cəmiyyətdə humanizm, mərhəmət və həmrəylik hisslərinin yüksəlməsi üçün dövlət və qeyri-dövlət resursları, cəmiyyətin aktiv hissəsi ilə birlikdə böyük nailiyyət əldə olundu. Lakin vətəndaşların karantin qaydalarına əməl etməsi, şüurlu və könüllü şəkildə bu mübarizədə aktiv iştirak etməsinə tam nail olmayınca, təkcə administrativ inzibati metodlarla yüz faiz qələbə çalmaq çox çətindir. Biz ümumiyyətlə cəmiyyətin yalnız inzibati metodlarla idarə olunmasını dövlətimiz, ölkəmiz, xalqımız və vətəndaşımız üçün arzuolunmaz hesab edirik.

Düşünürük ki, xalqımız və vətəndaşlarımız qanun və qaydalara hörmətlə yanaşaraq idarəçilikdə dövlət və şəxsiyyətə hörmət, ləyaqət və qürur prinsiplərini qorumalıdır. Eyni zamanda vətəndaşların və cəmiyyətin mənəvi-psixoloji vəziyyətini nəzərə alaraq karantin qaydalarının sərtləşdirilməsinin tərəfdarı deyilik. Lakin təəssüf ki, bu qaçılmaz ola bilər. Adətən adi qrip epidemiyalarında da mövsümi dalğavari proseslər baş verir. Dünyada ikinci və hətta üçüncü dalğa da baş versə bu epidemiyaya yalnız birgə mübarizə ilə qalib gələ bilərik".

Qurum rəhbəri əlavə edib ki, epidemiyanın təkcə fəsad və zərərindən deyil, yaxşı tərəfdən də baxmaq olar. Hər bir işdə olduğu kimi, epidemiyanın faydaları da oldu: "Birincisi, insanlarda ölüm qorxusu qarşısında olarkən mənəvi-ruhi cəhətdən daha çox dünya və maddi dəyərlərin zəif olduğunu hiss edərək mərhəmət, humanizm prinsipləri, Allaha inam, etiqad və iman daha da artdı ki, bu əsasən insanların pislikdən çəkinib yaxşılığa istiqamətlənməsini xeyli artırdı. Dünyanın hər yerində müsəlmanlara qarşı xaç yürüşü Amerikada, Çində, Avropada məscidlərin səsinin ucalması ilə nəticələndi. Yəni Allahın qüdrətini dərk edən insanlar günahsız müsəlmanlara qarşı yürüşə bir an ara verdilər. Ən azından terrorçu ilə günahsız müsəlmanın eyni olmadığı bir an da olsa xatırlandı.

İkincisi, təbiət dayanıb nəfəs aldı. Özünə başı qarışan insanın zorlama və basqılarından bir an azad olan təbiət və ekologiya bir az təmizləndi.

Üçüncüsü, onillərlə eyni rejim və eyni ritmdə çalışan insan və cəmiyyət bir növ dəyişik rejimdə texniki dildə ifadə etsək format olur. Necə ki, Allah-təala on bir ay yaşadığımız rejimi bir ay Ramazan ayında dəyişik yaşamaqla sağlamlığımızı və ruhumuzun inkişafını əmr etdiyi kimi".

# Erməni lobbisi Fransanın "L'Express" portalını hədələyib




Fransanın "Le Monde", "Figaro", "L'express" və digər mətbuat orqanlarında Ermənistan tərəfindən Azərbaycanla sərhədin Tovuz rayonu istiqamətində törədilmiş təxribat barədə məqalələr dərc olunub. Materiallarda artilleriyadan istifadə olunmaqla iki gün davam edən döyüşlərin iyulun 14-də daha da şiddətləndiyi, ümumilikdə 16 hərbiçinin həlak olduğu bildirilib. Tovuz istiqamətində son döyüşlərin 2016-cı il döyüşlərindən də şiddətli olduğu vurğulanıb.

Məqalələrdə 30 ildir davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə görə Qafqaz regionunun qeyri-stabil olaraq qaldığı diqqətə çatdırılıb. "L'Express" portalı "Ermənistan Azərbaycana hücum edib" başlıqlı xəbərə görə sosial şəbəkələrdə erməni lobbisi tərəfindən hədələnib.

# İƏT PA Ermənistanın təcavüzünü qınayan bəyanat verib

İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Baş katibi Muhammed Xurayçi Niyas Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində növbəti hərbi təxribatına dair bəyanatla çıxış edib. Milli Məclisdən SİA-ya verilən məlumata görə, Ermənistan ordusu tərəfindən edilən hücumdan dərin narahatlığını ifadə edən Baş katibin bəyanatında deyilir ki, 12 iyul tarixində Ermənistan silahlı qüvvələrinin artilleriya dəstəyi ilə həyata keçirdiyi hücumun nəticəsində Azərbaycan Respublikasının ərazisində 2 nəfərin ölümünə və 5 nəfərin yaralanmasına səbəb olmuşdur.

İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi Muhammed Xurayçi Niyas tərəfindən verilən bəyanatda Ermənistan Respublikasının, İslam Əməkdaşlıq Təşkilatına üzv olan Azərbaycan Respublikasına qarşı təcavüzü pislənilir, bir daha bu hücumdan və Azərbaycan ərazilərinin böyük bir hissəsinin işğalının əbədiləşdirilməsindən dərin narahatlıq ifadə olunur. Baş katibin bəyanatında, həmçinin vurğulanır ki, Muhammed Xurayçi Niyas İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının 2020-ci ilin yanvar ayında Burkina Fasoda keçirilən 15-ci Konfransından başqa digər konfransların qətnamə və qərarlarına əsasən, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 ( 1993) və 884 (1993) saylı qətnamələrinə əsasən, erməni qüvvələrini Azərbaycan Respublikasının bütün işğal olunmuş ərazilərindən dərhal, qeyri-şərtsiz və tamamilə çıxarmağa çağırır və Ermənistanın onlara tabe olmağa məcbur edilməsi üçün bu Qərar və Qətnamələrin ciddi şəkildə yerinə yetirilməsini tələb edir.

# Erməni türkoloqu: "Türkiyənin bəyanatlarına ciddi yanaşmaq lazımdır"




"Ermənistan-Azərbaycan münaqişəsi fonunda Türkiyənin bəyanatlarına ciddi yanaşmaq lazımdır. Belə ki, bu, növbəti təbliğat deyil və təhlükə real ola bilər". SİA xəbər verir ki, bu barədə Iragir.am-la söhbətində erməni türkoloqu Ruben Melkonyan danışıb. Onun sözlərinə görə, ilk əvvəl Ermənistan-Azərbaycan münaqişəsində Türkiyənin fəallığı kifayət qədər ciddidir və onu təhlil edərsək, presedentsizdir. "Sərhəddə baş verən əvvəlki hadisələrdə Türkiyə bu qədər canlı reaksiya göstərməmişdi və burada iki faktor var", deyən Melkonyan Türkiyəni ittiham etmək məqsədi ilə əlavə edib ki, birinci faktor Türkiyənin istər bizim regionda, istərsə də daha geniş sahədə "destruktiv" siyasət yürütməsini davam etdirməsidir. İkincisi isə, antierməni siyasətidir ki, bu da illərdir bu ölkənin dövlət təməllərində mövcuddur.

### Ruben Malkonyan: "Türkiyənin müdafiə naziri kifayət qədər kəskin, sərt bəyanatla çıxış etdi və kontent bənzərdir - biz istənilən vəziyyətlərdə Azərbaycanın yanındayıq"

SİTAT: "Düşünürəm ki, biz Türkiyənin fəallığına ciddi yanaşma etməliyik, ona görə ki, regionda bərabərlik mexanizmi ilə yanaşı, dünyanın siyasət vəziyyəti dəyişilib və Türkiyənin Naxçıvan maraqları, həmçinin "Artsax" (dırnaqlar bizimdir-R.R.) münaqişəsinin həllində ATƏT-in Minsk qrupuna sirayət etmək cəhdləri bu ölkənin monumentalçı ambisiyaları ilə birlikdə nəzərə alınmalıdır".

Ruben Melkonyanın sözlərinə görə, Tavuşdakı hadisənin ilk saatlarından Türkiyə XİN bəyanatla çıxış etdi və bunun ardınca ölkə rəhbərliyinin digər nümayəndələri də bəyanatlar səsləndirdilər: "Bu yaxında Türkiyənin müdafiə naziri kifayət qədər kəskin, sərt bəyanatla çıxış etdi və kontent bənzərdir - biz istənilən vəziyyətlərdə Azərbaycanın yanındayıq. Lakin bu barədə müdafiə naziri danışırsa, bu, sülh kontenti ola bilməz, bu, sətiraltı hərbi bəyanatdır".

### "Türkiyənin hədələrini anlamaq lazımdır"

Erməni tərəfinin hansı addımlar atacağına gəlincə, türkoloq qeyd etdi ki, Türkiyə ordusu sayına görə, NATO-da ikincidir və hərbi planda o regional dövlətdir. Ona görə də, bu ölkənin mexanizmləri aydındır. "İki mexanizm var - KTMT və hərbi qruplaşmadakı birləşmiş rus-erməni ittifaqı", deyən Melkonyan hesab edir ki, həmin kanalı fəallaşdırmaq lazım olmaqla yanaşı, həm də anlamaq lazımdır. Ölkənin təhlükəsizliyi hər şeydən - daxili siyasi mübarizədən və siyasi orientasiyalardan üstündür: "Belə kritik vəziyyətlərdə bu, daha aydın görünür və siyasi orientirdə mayak rolunu oynamalıdır". Erməni türkoloqu misal gətirib və bildirib ki, Türkiyə qonşuları olan Suriyada, Liviyada və İraqda istənilən anda təsirini göstərmək gücündədir. "Türkiyənin hədələrini anlamaq lazımdır. Onlar yalnız sözlər deyil, buna görə də təhlükəsizlik mexanizmlərində müəyyənləşməyə ehtiyac var".

**Rövşən RƏSULOV**

# Azərbaycan əhalisinin sayı açıqlanıb



Dövlət Statistika Komitəsi Azərbaycan əhalisinin sayını açıqlayıb. Dövlət Statistika Komitəsinin dərc etdiyi hesabatda qeyd olunub ki, 2020-ci il 1 iyun vəziyyətinə əhalinin sayı 10 089,9 min nəfər təşkil edib. Son bir ildə Azərbaycanda əhalinin sayı 76,8 min nəfər və ya 0,8% artıb.

# Müdrikliyin işığında
## Aydın Quliyev - 60

İnsan əməlinin fəlsəfəsi onun bəsirətinin məntiqindədir... Bir zamanlar mən, Azərbaycan hərb tarixi və sənəti ilə maraqlananda, dünya hərb tarixinə də diqqət yetirməli oldum. O vaxt qədim romanın qüdrətli sərkərdələrindən birinin maraqlı bir fikrinə rast gəldim; o, qeyd edirdi ki, “insanın fəlsəfəsi, onun sözündə yox, əməlindədir...” bu fikrə haqq qazandıraraq, mən də düşündüm ki, “əməlin fəlsəfəsi isə bəsirətin (idrakın) məntiqindədir...” Əks təqdirdə şüuru (idrakı) dərk təsirdən yaranan təəssüratı emosiyalar yığınına çevrilərdi... Emosiyalar yığınında qərq olan insan, varlığının idarəsini itirər, bir növ bu təsirlərin məsti-xumarına çevrilər. Onda da o, dünyanı anlamaqda aciz qalar. Dünyanı dərk etmədikdə özünü dərk etməz, özünü dərk etmədikdə isə aləmləri və bütün varlıqların yaradıcısını belə dərk etməz... İnsanın bu halının bədii-fəlsəfi obrazını Böyük Füzuli “Oylə sərməstəm ki, idrak etməzəm dünya nədir...” qəzəlində daha aydın və qüdrətləcanlandırmışdır...Ulu tanrı sevdiklərini hər cürə sərməstlikdən uzaq etsin!..

**Varlığı səmimiyyət gülüstanına çulğanmış Aydın müəllim!**

Məni, neçə illər öncə Sizin ecaskar qəzetinizlə əməkdaşlığa, yorulmaq bilməyən, cəfakeş, zəhmət ətirli yazıları ilə oxucuların rəğbətini qazanmış, əməkdaşınız, incə qəlbli qızımız - İradə xanım Sarıyeva cəlb etmişdir... Düzünü deyim ki, siftələr bu fikrə tərəddüdlə yanaşmışdım. Çünki mən son illərdə tədqiqat xarakterli yazılara üstünlük verdiyimdən bir növ jurnalistlik nizamından qismən də olsa uzaqlaşıb, publistliyə üstünlük vermişdim. Yəni əsasən müstəqil, sərbəst yazılar yazırdım. Ona görə də yazılarımın Sizin daha dəqiqlik, konkretlik tələb edən qəzetinizin mahiyyətinə uyğun gəlməməsindən ehtiyatlanırdım. Lakin İradə xanım məni bu tərəddüddən xilas edə bildi... Elə o vaxtdan da qəzetinizin səhifələrində mənim də imzam görünməyə başladı. Açığını deyim ki, belə nüfuzlu qəzetdə çıxış etmək mənim üçün çox xoş idi. Bu səbəbdən də bir neçə dəfə fikrimdən keçdi ki, gəlim təmannasız qayğınıza görə Sizə öz təşəkkürümü bildirim. Lakin içimdən adlayan başqa bir duyğu isə sanki buna mane olurdu... Bu təbiyyətimə xas olan çəkingənlikdənmi, utancaqlıqdanmı, həyalılıqdanmı idimi, deməyə çətinlik çəkirəm... Müəyyən müddətdən sonra Sizi televizorda gördüm. Dünyada gedən, baş verən proseslərə dair sualları cavablandırırdınız. Cəmiyyətimizin bir çox üzvü kimi bu məsələlər məni də daim maraqlandırdığından diqqətlə qulaq asmağa başladım. Bu sahə, yeni şərhçilər, təhlilçilər tərəfindən təqdim olunanda isə məni daha çox cəlb edirdi. Elə ona görə də çıxışlarınızı diqqətlə izləməyə başladım... Müntəzəm icmalçıların çıxışlarından, demək olar ki, tamam fərqli bir mənzərə ilə qarşılaşdım:

Sizin cavablarınız, dünya və yerli təhlilçilərin bir-birindən icmallayıb təqdim etdikləri yeknəsək məlumatlara əsaslanmırdı, yəni tam olaraq şəxsi düşüncə və fikirlərinizi ifadə edirdi. Eyni zamanda fikir və ifadələriniz əzbərlənmiş mətnlərin avtomatlaşmış təqdimatı da deyildi... O mənada ki, fikir, söz, ifadə və cümlələrin təqdimatında heç bir rabitəsizlik, qırıqlıq, duruxma, kəkələmə, ınqıldama (bu ifadələrə görə üzr istəyirəm), fikrin ifadəsində sözaxtarma və s. bu kimi xoş təəssüratdan uzaq məziyyətlər Sizin nitqinizdən tamamən uzaq idi... Siz bütün təqdim olunan məsələlərə tam sərbəst və sərrast olaraq öz şəxsi nəzərnöqtənizdən yanaşırdınız. Bu məni daha çox riqqətə gətirirdi və Sizin çıxışlarınızı ardıcıl olaraq izləməyə vadar edirdi... Təbii ki, peşman da olmurdum. Əksinə məftunluğum, heyranlığım daha da artırdı. Qəbul etdim ki, bu cür dəyişməz ardıcıllıq, təkcə natiqlik məharətindən irəli gələ bilməz. Bunun üçün İlahi vergi, bol söz ehtiyatı və bu ehtiyatdan yerində, səmərəli istifadə etmək üçün güclü intellekt - zəka, ağıl, dərrakə sahibi olmaq gərəkdir ki, o da Tanrının qüdrəti ilə Sizə əta edilib...



Etiraf edim ki, heç vaxt təsəvvür edə bilməzdim ki, siyasi icmallardan belə estetik zövq alıb, heyran ola bilərəm. (Heyranlıq, məftunluğun şiddəti - ifratıdır; aşiqlik isə heyranlığın şiddəti - ifaratıdır; aşiqliyin şiddəti - ifratı isə ... tərkidünyalıqdır ki, bizi istəməyənlərə də arzulamazdım! Digər tərəfdən heyranlıq... bənövşə və reyhan çiçəyinin cövhərlərinin qatışığından hazırlanan bir ətirə bənzən ki, qoxusu gözlərə işıq, qəlbə fərəh gətirər. Bu da şüurla nəfsin vəhdətinin əsasında dayanan mənəviyyatda öz təzahürünü tapar.) Mənim nəzərimdə siyasətşünaslar - politoloqlar, bir növ “münəccim” olmalıdırlar. Bu da özünü əsasən iki formada təqdim edə bilər. Birincisi; elminəzəri bilikləri mövcud praktiki hadisələrlə uzlaşdırıb nəticəyə gəlmək və bu nəticəni gələcəkdə baş verə biləcək hadisələrin əsası - zəmini kimi müəyyənləşdirmək...

Bunun üçün isə təkcə siyasi-humanitar təhsil almaq kifayət etmir, yəni gərəkdir, fizika-riyaziyyat, həndəsə, astronomiya, hətda metafizika elmlərinə mükəmməl bələd olasan ki, gələcək proqnozların ölçülərini bütün parametrlərdə düzgün və dəqiq hesablayıb müəyyənləşdirə biləsən (orta əsr alim-astroloqları kimi)... İkincisi isə təbiidir.

Yəni bəsirətdəki İlahi işığın - vergi-nin köməyi ilə gələcəkdə baş verəcək hadisələrin nəticələrini öncəliklə müəyyən etmək... (Tarixdə bu qabiliyyətə malik insanlar o cümlədən də sərkərdələr, dövlət başçıları olmuşdur.) Mən də azacıq hissiyatı olan bir insan kimi ikinciyə məxsus bu qabiliyyətin Sizdəki işartılarını görürəm... Hətda biləndə ki, millətin ali məclisinə nümayəndə olaraq namizədliyinizi verməmisiniz, çox mütəəssir oldum... Doğrudur səbəbini bilmədim. Ancaq Sizi əmin edirəm ki, Dövlət Başçımızın son dövrdə apardığı parlaq islahatlar (mən bu islahatları vaxtı ilə çökməkdə olan Çin dövlətinin həyata keçirdiyi “Mədəni İnqilab” islahatları ilə müqayisə edərdim ki, bu gün Çini bütün parametrlərdə dünyanın ən qabaqcıl ölkəsinə çevirib) cəmiyyəti narahat edən bəzi məsələlərin də öhdəsindən gələcəkdir... Daha namizədlərin adları maraqlı şəxslərin şəhadət barmağının altından yox, xalqın qələminin ucundan çıxan iks işarəsinin altından keçəcəkdir... Gələcəkdə şansınızı boşa verməyin! Bu Sizin bir milli övlad olaraq millətimiz qarşısında vətəndaş borcunuzdur...

Ola bilsin, bəziləri düşünsün, mən kiməm və nə həddimdir ki, siyasətşünaslar, politoloqlar haqqında fikirlərimi belə açıq-saçıq şəkildə ifadə edirəm. Bələlərinə bildirmək istərdim ki, mən də öz dövrümdə Ali-Siyasi təhsilə malik bir insan olmuşam və sıradan biri deyiləm... Digər tərəfdən, nəzərə alsaq ki, hər hansı obyektiv tənqidin məzmun-mahiyyətində mütləq bir mariflendirmə durur (təəssüf ki, indi tənqid anlayışı öz yerini təhqir məhfumuna verib), onda bunu anlamaq çətin deyildir...

Xülasə özümdə cəsarət toplayıb, bütün bu təəssüratlarımı Sizinlə bölüşüb, Sizə şəxsi təşəkkürümü bildirmək üçün hüzurunuza gəldim. Məni qeyri-adi bir səmimiyyətlə qarşıladınız. Bu münasibətdən necə təsirləndimsə özümü təqdim etməyi belə unudub, birbaşa məqsədimi anlatdım. Üzünüzün ifadəsi tamam dəyişdi.

Varlığınızda bir utancaqlıq, sıxıntı hiss etdim (bu bütün təvazökar insanlara xas olan bir xüsusiyyətdir). Bir anlığa peşmanlıq keçirib, pərt oldum... Geri dönüb getmək istəyirdim ki, birdən yadıma İradə xanımla qısa bir söhbətim düşdü. O vaxt ardıcıl yazılarımı çap etdirən İradə xanıma bildirmişdim ki, birdən bu ardıcıllıq baş redaktorun ürəyincə olmaz sənə, mənə görə söz gələr. Onda mən buna görə özümü bağışlamaram. O, isə xoş bir təbəssümlə mənə cavab vermişdir ki, “Siz nə danışırsınız, Baş redaktorumuz həddindən artıq alicənab bir insandır, hətta o, sizing yazılarla tanış olandan sonra dedi ki, bu müəllifin yazılarına əl dəymədən çap edin. Mövzusundan asılı olmayaraq belə...” Bu yadasalmadan sonra tez özümü təqdim etdim. Xatırlayırsınızsa əhvalınız tamam dəyişdi. Gözlərinizdə elə bir işıq parladı ki, simanızı və bütün varlığınızı nura qərq etdi. Sanki təəccüb qarışıq bir heyrət bürüdü Sizi...

Haşiyə. Heyrət - yazının əvvəlində qeyd etdiyim kimi təəccübün şiddəti-ifratının fövqündə dayanan bir hissi anlayışdır. Bu digər əlamət və hadisələrin şiddətinə, ifratına bənzəməz. Yəni bütün sahələrin anlayışların şiddəti-ifratı eybəcərliklər, şitliklər, qəddarlıqlar, ümumən xöşagəlməzliklər yaratdığı halda, təəccübün şiddəti-ifratı heyrətə çevrilir ki, bu da öz növbəsində insanın bəsirətini elə işıqlandırır, elə nurlandırır ki, şöləsi bir başa qəlbə axır və ona hakim kəsilir. Eyni zamanda ürəyin uc hissəsində toplanmış kin-küdurətin əsasını təşkil edən qara qan laxtasını bəyazlığa qərq edir. Həzrəti Peyğəmbərimizin dayəsinin oğlunun hekayətinə görə, hələ 5-6 yaşları olanda quzu otararkən göz qamaşdıran işıqlı, qövsü-qüzehli məğluqlar gəlib Məhəmmədin yaxasını açıb, ürəyini çıxardaraq yarıb, oradakı qara qan laxtasını təmizləyib, yerini ağ qarla (Hüma nuru ilə: B.H.) tər-təmiz silib yenidən yerinə qoymuşlar. Bu da öz növbəsində insanın idrakı kamilliyi ilə yanaşı, onun mənəviyyat dünyasının mərhəmət və məharətinin əsas mahiyyətinə çevirir...

Ecaskar Aydın müəllim, əlbətdə ki, bu fikirlər mənim tərəfimdən söylənilən gəlişigözəl sözlər yox (məni tanıyanlar və Siz də bilirsiniz ki, mən belə insan deyiləm, komplement deməyi də heç vaxt sevmirəm), Sizin genetik bəsirətinizin real işığının ayna təcəssümünün təzahürüdür ki, mən sadəcə yazıya aldım...O ki, qaldı Sizin redaktorluq məharətinizə; düşünürəm ki, özümlə bağlı bir epizodu xatırlamağım kifayət edər. Təsviri sənət haqqında gələcək kitabların birində çap ediləcək iri, geniş əhatəli bir yazı yazmışdım. Operatordan xahiş etdim ki, yazının xəbər tipli bölməsini qəzetinizə göndərsin... Yazını qəzetinizdə oxuyanda təəccübləndim. Böyük mətndə olan bütün sahələr - tənqid, təhlil, təsvir və s. aidiyyatı epizodlar, xəbər-informasiya mətni ilə elə uzlaşdırılıb, yığcam şəkildə təqdim edilmişdir ki, heyran qalmamaq mümkün deyildi. İradə xanıma zəng edib bu məlumatları hardan götürdüyünü soruşdum. O, isə “yazıdan” - dedi. Məlum oldu ki, operator çaşıb bütün mətni göndərib. Mən İradə xanıma yazının bu cür gözəl təqdim etdiyinə görə təşəkkür edəndə o, bildirdi ki, “mənə yox Aydın müəllimə təşəkkür et, yazını o özü işləyib”. Mən uzun illər redaktorluq səriştəsi olan bir mütəxəssis kimi etiraf edirəm ki, həmin yazını bu məharətdə işləyə bilməzdim...

*Əziz qardaşım, böyük mütəfəkkirimiz Şeyx Nizami insanın kamillik dövrünün 40 yaşına, müdriklik çağının isə 60 yaşına təsadüf etdiyini bildirir...*

*Müdrikliyin əsas mahiyyətini isə bəsirətin işığı təşkil edir. Siz bu gün məhs bu işığın nuruna qərq olmusunuz...*

*Tanrı Sizi Qorusun!*

*Müdriklik işığınıza - 60 yaşınıza mübarəklə:*

***Binnət Hümbətoğlu***

## Biz nə istəyirik və nə etməliyik?

*Biz 30 ildir Qarabağa azadlıq istəyirik!*

**Biz müstəqil dövlətimizin ərazi bütövlüyünün təmin olunmasını istəyirik!**

**Biz qaçqın və məcburi köçkün soydaşlarımızın öz ata- baba yurdlarına dönməsini istəyirik.**

**Biz sivil dünyadan ədalətli, tərəfsiz münasibət istəyirik!**

**Biz 30 ildir öz istəyimizə çata bilmirik. Bu 30 ildə 30 min yalan eşitdik, 30 min dəfə gördük ki, maraqlar haqdan yuxarıdadır.**



Və böyük sınaqlardan keçib bu günlərə gəldik. Dövlətçiliyimizin ilk illərində nə qədər təxribatlarla üzləşdik! 1988- ci ildən bəri bu xalqın təmiz, saf, ülvi hisslərdən doğan milli birlik nümayişlərinə neçə dəfə təxribatlar qatıldığını da heç birimiz unutmamışıq. Sovet imperiyasının son illərində xalqımızın ədalət tələbini və milli-azadlıq düyğularını Azadlıq meydanında müxtəlif bayraqlar qaldırmağa, “Allahu-əkbər” qışqırmağa, sərhəddi dağıtmaq, bəzi rayonlarda dövlət binalarına hücum etməyə yönəltmək təxtibat idi. Və sonucu da qanlı 20 yanvar qırğınına gətirib çıxartdı. 1991- ci ilin 20 noyabrında içərisində ali rütbəli dövlət adamlarımızın vurulması da, Xocalı soyqırımı və soyqırımdan sonrakı mitinqlər zamanı Milli Məclisin binasına hücum edilməsi də təxribat idi. Şuşanın və Laçının işğalı da təxribat idi. Ağdərənin verilməsi və Gəncə qiyamı da təxribat idi.

Və hamısı Azərbaycanı didib- parçalamağa, müstəqilliyimizin sonlandırılmasına yönələn təxribatlar idi!

1993 cü ilin 15 iyununda ölkə rəhbərliyinə gələn Ümummilli lider Heydər Əliyev bütün təxribatların kökünü kəsməyə, xalqı bir ideya- azərbaycançılıq ideyası ətrafında birləşdirməyə müvəffəq oldu.

Və bizə çoxdan məlum olan sadə bir həqiqəti öyrətdi: azadlığın, haqqın-ədalətin yolu güclü olmaqdan keçir!

Allaha şükür, indi güclü dövlətimiz var, güclü ordumuz var, cənab Ali Baş Komandanın şəxsində güclü liderimiz var!

Son günlər şanlı Ordumuz düşmənə sarsıdıcı zərbələr vurur! Uğur və Qələbə bizimlə olacaq.

Təəssüf ki, döyüş itkisiz olmur, şəhidlərimiz də var. Dəyərli generalımızı, peşəkar zabitlərimizi və qəhrəman əsgərlərimizi itimişik.

Dünənki Ordumuza dəstək nümayişini də xoş niyyətli vətənpərvər aksiya hesab edirəm. Aksiya iştirakçılarının səsləndirdikləri Qarabağla, Milli Ordumuzla bağlı şüarlar, Ali Baş Komandana dəstək çağırışları, əlbəttə, səmimi idi və xoş niyyət daşıyırdı.

Çox təəssüf ki, təxribatsız ötüşmədi, 5- ci kalon yenə də fürsətdən istifadə edə bildi, öz xain və çirkin əməlindən qalmadı. Bir qrup təxribatçı və onlara uyanlar Milli Məclisin binasına basqın etdilər, mühafizəçilərə xəsarət yetirdilər, binanın içərisinə daxil olub dağıntı törətdilər. Bu adamların həmin anda ağılları başlarında idimi, yoxsa onlar nəyinsə və ya kiminsə təsiri altında idilər? Bu sualın cavabını istintaq təbii ki, araşdıracaq və xalqa məlumat verəcək. Amma bu təxribat bir daha göstərdi ki, biz düşmənlə yalnız səngərdə döyüşmürük, düşmən hər yerdədir, sosial şəbəkələrdə xaricdən gələn çağırışlar da düşmən səsidir, xoş niyyətli nümayişi təxribatçı sonluğa yönəldən də, gərəksiz şüarlar qışqırıb milli mübarizəmizə başqa yön vermək istəyənlər də!

Müharibə içindəyik, gərək içimizdə düşmən olmasın. Başqa bir vacib nüansı da unutmamalıyıq, koronavirus pandemiyası davam edir, karantin götürülməyib, bu şəraitdə kütləvi şəkildə bir yerə toplaşmağımız əlavə bəlalar gətirə bilər!

Sanksiyalaşdırılmamış heç bir nümayiş, mitinq çağırışı olmamalıdır! Cəbhə ilə bağlı bütün informasiyalar yalnız rəsmi mənbələrə əsaslanmalıdır!

Nə etsək yalnız qanun daxilində olmalıdır, hər davranışımız qanun çərçivəsində olmalıdır!

Bir məqsədimiz var: Vətənin bütövlüyünün təmin olunması! Bunun üçün birlik, birlik, yenə də birlik lazımdır! Birlik bizi birləşdirən yeganə dəyər - müstəqil Azərbaycan dövləti naminə və onun ətrafında olmalıdır!

Birliyimizin rəmzi və qarantı Ali Baş Komandan, Cənab Prezidentimiz İlham Əliyevdir! Hamımız onun ətrafında və onun əmrində olmalıyıq!

Birliyimiz müqəddəs Azərbaycan torpağının naminə, uca bayrağımızın kölgəsində olmalıdır! O torpağın ki, şəhidlərimizi əmanət verdik! O bayrağın ki, şəhidlərimizin bizə əmanətidir!

***Musa Urud***

## “Ermənistan rəhbərliyi bu itkilərin altından necə çıxacağını bilmir”



“İyulun 12-də Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu ilə sərhəddə törətdiyi təxribat, ağır artilleriyadan hərbi mövqeıərimizi, yaşayış məntəqələrimizi atəşə tutması generalımızı, zahitlərimizi, əsgərlərimizi qətlə yetirməsi bütün ölkəmizi ayağa qaldırdı. Azərbaycan ordusunun sarsıdıcı zərbələri ilə geri otuzdurulan düşmən xeyli sayda canlı qüvvə və hərbi texnika itirmişdir. Atəşkəsin pozulduğu ilk andan minlərlə Azərbaycan gənci Ali Baş Komandan Prezident İlham Əliyevə müraciət edərək Onun əmri ilə cəbhəyə yollanmağa hazır olduqlarını bildirmişlər”. Bunu SİA-ya Yurddaş Partiyasının sədri Mayis Səfərli deyib.

Partiya sədrinin sözlərinə görə, Prezidentin Təhlükəsizlik Şurasındakı çıxışından ruhlanan gənclərimiz Azərbaycanın hər yerində Hərbi Səfərbərlik qurumlarının qarşısına yığışaraq ordu sıralarına yazılmaq istədiklərini bildirirdilər: “Dünən axşam saatlarında vətənpərvər gənclərdən ibarət böyük bir dəstə Şəhidlər Xiyabanı qarşısındakı meydana doğru yürüş etmiş və aksiya keçirmişlər. Polisin müdaxilə etmədiyi bu sanksiyalaşdırılmamış aksiyada gənclərimiz Ordumuza, Ali Baş Komandana, Qarabağa dəstək şüarları səsləndirmiş, dərhal cəbhə bölgəsinə getmək üçün onlara şərait yaradılmasını istəmişlər. Bütün bunlar Azərbaycan xalqının, onun gənc nəslinin ölkəmizin ərazi bütövlüyünə, təhlükəsizliyinə, Qarabağın taleyinə biganə qalmadığını, ordu-xalq birliyinin sübutu, şəhidlərimizin intiqamının alınması üçün gənclərimizin ürəkdən gələn qətiyyətinin ifadəsidir. Spontan təşkil olunmuş bu aksiyanın normal axarda keçirilməsi üçün gözləmək olardı ki, Gənclər və İdman nazirliyimizin rəhbərliyi, Gənclər Təşkilatlarının liderləri, bu təşəbbüsü ələ alacaq, gənclərdən ibarət çoxminlik kütləni idarə edəcəklər. Təssüf doğuran odur ki, Milli Məclisin qarşısında keçirilən kütləvi aksiyada deputatlardan heç kim gözə dəymirdi. Bundan istifadə edən bəzi təxribatçı qüvvələr öz məkrli niyyətlərini həyata keçirmək üçün aksiyanı bir fürsət bilərək, bu tədbirdəki bəzi gəncləri iğtişaşlara sövq etməyə cəhd edtilər. Sonda polisin qətiyyətli addımları ilə vətənpərvər gənclərimizin saf niyyətlərindən öz çirkin əməlləri üçün istifadə etməsinin qarşısı qətiyyətlə alınmışdır.

Unutmaq lazım deyil ki, bu gün atəşkəsi pozan ermənilər və onların havadarları çalışırlar ölkəmizdə sabitliyi pozsunlar, vətəndaş qarşıdurması yaratsınlar və cəbhədə mövqelərimizi zəifləsinlər. Yaxın tariximizə nəzər salsaq, görərik ki, 90-cı illərin əvvəllərində ermənilər, onları dəstəkləyən digər xarici qüvvələrlə birlikdə Azərbaycanda əvvəlcə sabitliyi pozur, başıpozuqluq yaradır, sonra hücuma keçirdilər. Əlbəttə, indi 90-cı illər deyil, o illərdəki Azərbaycandan əsər - əlamət qalmayıb. Güclü iqtisadiyyata, qüdrətli orduya və çevik idarəçiliyə malik ölkəmiz istənilən aqressiyanın qarşısını almağa qadirdir. Bunu 2016-cı il aprel döyüşləri də, Tovuz hadisələri də sübut etdi. Aldığımız ən yeni məlumata görə, Ermənistan öz itkilərini gizlətsə də, düşmən ölkənin hər yerində yas mərasimlərinin qurulduğu barədə, Türkiyə, Rusiya, Ukrayna və digər ölkələrin mətbuatlarında informasiyalar verilir. Ermənistanın elektron mediası və sosial şəbəkələrində də düşmən ordusunun 100 nəfərdən çox canlı qüvvə itirdiyi bildirilir. Hazırda Ermənistan rəhbərliyi bu ağır itkilərin altından necə çıxacağını bilmir. Azərbaycan əsgərinin əli tətikdədir. İnanıram ki, tezliklə qəhrəman ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə ərazi bütövlüyümüzü təmin edəcək, marionet Ermənistanın tarixdə və xəritədə qalması böyük təhlükə altında düşəcəkdir”.

***Ceyhun Rasimoğlu***

## “Təxribatın icraçıları və sifarişçilər üzə çıxarılacaq və onlar cəzalarını alacaqlar”



“Ötən gecə yaşananlar təbii ki, hər birimizdə acı və dərin təəssüf hissi doğurdu. Təxribata və təxribatçılara yol, imkan verilməməli idi. İnanıram və əminəm ki, hüquq-mühafizə, təhlükəsizlik orqanları həmin təxribatın icraçılarını, təşkilatçılarını, iştirakçılarını, sifarişçilərini araşdıracaq, təxribatçıların bir-bir kimliyini, kim olduğunu üzə çıxaracaq, onlar lazımi və gərəkən cəzalarını alacaqlar”. Bunu SİA-ya açıqlamasında millət vəkili Eldəniz Səlimov deyib. Onun sözlərinə görə, güclü, qüdrətli, demokratik, qanunlara idarə olunan bir ölkədə yaşayırıq və heç kimə də özünü hüquqdan, qanunlardan yuxarı aparmağa razı ola, imkan verə bilmərik: “Şəhidlərimiz, igidlərimiz, Qarabağımız bizim müqəddəs dəyərlərimizdir, heç kim və heç kim o dəyərlərə, o müqəddəslərə, müqəddəsliklərə toxuna, onlara hörmətsizlik edə bilməz. Biz buna xalq, millət, dövlət olaraq imkan verə bilmərik, imkan verməmişik, imkan vermirik, bundan sonra da imkan verməyəcəyik. Kimsə bizim diqqətimizi əsas məsələlərdən, torpaq, Qarabağ məsələlərindən yayındıra bilməz və bilməyəcək. “Bizim başlıca hədəflərimiz onlardır-ərazi, torpaq bütövlüyümüzün təmin edilməsi, Qarabağımızın, murdar, alçaq erməni işğalında, tapdağında olan digər yurd yerlərimizin işğaldan azad olunması, bütün ölkə boyu üçrəngli, ay-ulduzlu müqəddəs bayrağımızın dalğalanmasıdır. Bu müqəddəs yolda, bu haqq mübarizəsində də hamımız xalq olaraq, birik, birlikdəyik və birlikdə də olacağıq. Dövlətimizlə, Ordumuzla, Sərkərdəmizlə-Ali Baş Komandanımızla yan-yana, çiyni-çiyinəyik. Hamımız dövlətimizin, Ali Baş Komandanımızın əmrlərini gözləyirik, hamımızı döyüşməyə, vuruşmağa, torpaqlarımızı qorumağa, işğaldan azad etməyə hazırıq. Çünki bu vətən, bu dövlət, bu torpaq bizimdir. Eyni zamanda, bu haqq savaşında, Qarabağ mübarizəsində bizimlə birgə olanları, həmrəylik nümayiş etdirənləri, dəstək göstərənləri də qiymətləndirməliyik və qiymətləndiririk. Xüsusilə də, qardaş və dost Türkiyənin, Türkiyə dövləti və rəhbərliyinin bu haqq işində bizimlə birgə, bizim yanımızda olmalarından məmnunluq duyuruq. Biz iki dövlət, bir millət, qanımız da, canımız da, ruhumuz da birdir. Hər zaman bir olmuşuq, bundan sonra da bir olacağıq və birlikdə bütün düşmənlərimizin kürəyini yerə vuracağıq”.

E.Səlimov qeyd etdi ki, Türkiyə dövlətinə, Xarici İşlər Nazirliyinə, cümhurbaşqanı cənab Rəcəb Tayyib Ərdoğana, Xarici işlər naziri Mövlud Çavuşoğluna dəstəklərindən dolayı minnətdarlığımızı, təşəkkürlərimizi bildiririk: “Bunları heç zaman unutmayacağıq. Hər zaman Azərbaycanın yanında olublar, dəstək veriblər və bu, daim belə olacaq, həm də qarşılıqlı şəkildə. Eyni zamanda, dost və strateji müttəfiqlərimiz olan Pakistana və Ukraynaya birmənalı mövqelərinə, Azərbaycanla növbəti dəfə həmrəylik göstərdiklərinə görə, minnətdarlığımızı ifadə edir, əlaqələrimiz, münasibətlərimiz, dostluğumuz bundan da sonra yüksək səviyyədə inkişaf və davam edəcək, deyirik. Bəli, qələbə, zəfər uzaqda deyil. Düşmən Ermənistan və onun havadarları cavablarını çox ağır şəkildə alacaqlar. Biz tezliklə qələbəyə, zəfərə nail olacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycandır”.

***Gülyana***

## “Baş verənlərin cəmiyyətimizin vətənsevər xisləti ilə heç bir bağlılığı yoxdur”



“Azərbaycan Ordusunun erməni təcavüzünə qarşı sonuncu uğurlu addımları ölkədə həm də Qarabağ probleminin həlli uğrunda hakimiyyətin apardığı siyasətə cəmiyyətimizin möhkəm birlik və həmrəylik mövqeyindən dəstək verdiyini bir daha nümayiş etdirdi”. Bunu SİA-ya “Bakı Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Baş redaktorun sözlərinə görə, gənclərin vətənpərvərlik ruhunun yüksəlişini könüllü şəkildə orduya yazılmaq istəklərinin ən emosional formada ifadələrini gördük ki, bu da ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə ordunun və cəmiyyətimizin bütöv bir vəhdət halında olduğunu bir daha göstərməyə imkan verdi: “Amma təəssüf ki, yaranmış bu şəraitdən özünün çirkin məqsədləri və milli birliyin pozulması məqsədindən istifadə edən başıpozuq qüvvələr də meydanlarda görsəndilər. Xüsusilə də belə vəziyyətdə ictimai asayişin mühafizəçisi olan polisə qarşı zorakı addımların atılması, polis maşınının aşırdılması, Milli Məclisin binasına qarşı yolverilməz hərəkətlərə rast gəlinməsi və s. bütün bunlar cəmiyyətimizdə baş qaldıran vətənsevərlik çağırışlarından narahat olan qüvvələrin hələ də mövcud olduğunu və şərait düşən kimi aktivləşməyə çalışdıqlarını göstərdi. Heç şübhəsiz ki, bu günlərdə həmin o qeyri-siyasi və qeyri-qanuni yollara, hərəkətlərə yol verənlərin Azərbaycan cəmiyyətinin vətənsevər xisləti ilə heç bir bağlılığı yoxdur. Onlar müəyyən kənar qüvvələrin və daxildə gizli ambisioz, eləcə də düşmən qüvvələrin göstərişi, sifarişi ilə hərəkət edənlərdir. Təbii ki, məqsədləri odur ki, Azərbaycanı 90-cı illərin əvvəlləri üçün xas olan o xaos vəziyyətinə qaytarsınlar. Azərbaycan cəmiyyətinin belə qüvvələrə heç bir dəstək verməsi də özünü qabarıq şəkildə göstərdi”.

## “Ərazilərimizi azad edib, bütün problemlərə son verməliyik”



“İyulun 12-dən etibarən Tovuz istiqamətində ermənilərin təxribat törətmələrindən sonra başlayan gərginlik artan xətlə gedir. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirməkdədir. Bütün Tovuz əhalisi döyüşlərin elə ilk günündəcə ayağa qalxdı, şəhidlərimizi qarşıladı, ordumuza dəstək oldu. Hətta döyüş gedən ərazilərə vuruşmaq üçün axın edənlər də az olmadı. Bu gün də Tovuz əhalisi döyüşmək əzmini nümayiş etdirməkdədir”. Bunu SİA-ya açıqlamasında Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev deyib. Onun sözlərinə görə, Tovuz bölgəsində əhalinin döyüşmək istəyi bir bölgənin iradəsi deyil: “Bizim əhali həddindən artıq məğrur, qürurlu və torpağına sahib çıxmağı bacaran bir xalqdır. Bunu zaman-zaman göstərib. Qarabağ məsələsi başlayanda ov tüfəngləri ilə sərhədlərini qoruya bilən və ən primitiv silahlarla Xankəndinin 7 kilometrliyinə qədər irəliləyən xalqımızdır. Onu da nəzərə alaq ki, biz millət olaraq döyüşü çox gözəl bacarırıq. Türk etnosu mütəmadi olaraq öz döyüş qabiliyyəti, davranışları ilə tarix yazıb, imperiyalar qurub. İndi kiçik bir qurumun, Rusiyanın nəzarətində olan əyalətin gəlib Azərbaycan torpaqlarını əsarətə almasına, təbii ki, bu xalq dözmür. Tovuzda əhalinin bu məsələdə etirazı və döyüşmək istəyi bir bölgənin istəyi kimi qəbul olunmalı deyil. Bu, birbaşa milli iradədir. Atəşkəs anlaşması olandan indiyə qədər, mütəmadi olaraq, Azərbaycan tərəfi istəyib ki, torpaqları azad olunsun. Ona dinc yolla torpaqların azad olunması vədi verilib, amma bu vədə əməl olunmayıb. Bir gün qan tökülməlidir ki, mütəmadi qan tökülmələrinə son qoyulsun”. Fərəc Quliyev onu da bildirib ki, 30 illik təcrübədə gördük ki, nə beynəlxalq qurumlar, nə də super güclər haqqımızı yetərincə müdafiə etmədilər: “Ölkə Prezidentinin son çıxışında ATƏT Minsk Qrupuna və beynəlxalq təşkilatlara bildirdiyi iradlar bir daha onu göstərdi ki, bu qurumlardan heç nə çıxmayacaq. Bunu hər kəs qəbul edib. Artıq iş o yerə çatıb ki, ermənilər işğal etdikləri ərazilərdən kənar yerlərdə də fəallaşıblar. Müharibə davam edir. Ərazilərimizi azad edib, bütün bu problemlərə son verməliyik. Tovuz rayonunun əhalisinin timsalında Azərbaycan əhalisinin istəyi doğru bir istəkdir. 2016-cı ildəki aprel zəfərində gördük ki, səfərbər olunub ərazilərimizin azad olunmasını təmin edə bilərik. Qısa zamanda bu məsələ bitməlidir. Türkiyə tərəfindən əvvəlkilərdən fərqli olaraq konkret bir mövqe ortaya qoyuldu. İndiyə qədər siyasi çözüm yollarında dəstək olan Türkiyə xarici işlər nazirinin timsalında Azərbaycanın hansı vasitələrdən istifadə edərsə yanında olacaqlarını bəyan etməsi hərbi məsələlərdə də dəstək ifadəsidir. Bütövlükdə özümüzə güvənərək, savaşa başlamalıyıq. Kim nə deyirsə-desin, bu savaş olacaq”.

***Gülyana***

## Serbiya KİV-ləri Ermənistanın törətdiyi hərbi təxribatlardan yazır




Serbiyanın bir sıra nüfuzlu kütləvi informasiya vasitələrində Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədində yerləşən Tovuz rayonuna hücum cəhdləri və törətdikləri təxribatlara dair məqalələr dərc olunub. AZƏRTAC xəbər verir ki, Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən hücuma məruz qaldığı xüsusilə qeyd edilən məqalələrdə hər iki tərəfin itki verməsi, lakin provokasiyalara baxmayaraq, Azərbaycan tərəfinin bir qarış belə ərazi itirmədiyi vurğulanıb. Məqalələrdə, həmçinin Ermənistan-Azərbaycan münaqişəsinin tarixi və ATƏT-in Minsk qrupunun fəaliyyəti barədə məlumatlar qeyd edilib. Bununla yanaşı, Serbiyanın “Balkanin” xəbər portalında “Qarabağda döyüşlər: Azərbaycan Ermənistanın istənilən təxribatçı hərəkətlərinə adekvat cavab verəcəyini vəd edir” başlıqlı məqalə dərc edilib. Məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan silahlı qüvvələri tərəfindən həyata keçirilən təxribat xarakterli hücumlara dair çıxışı oxucuların diqqətinə çatdırılıb.

Həmçinin Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı Serbiyada akkreditə olunmuş diplomatik korpusa, Serbiya dövlət və hökumət rəsmilərinə və ziyalılarına göndərilib. Bütün məlumatlar, eyni zamanda, səfirliyin sosial şəbəkələri və rəsmi internet səhifəsində də dərc olunaraq yerli oxuculara çatdırılır.

# “Meydan TV” - yağı düşmənə qucaq açan xəyanət girdabı

**“İş prinsipini” yalnız və yalnız Azərbaycan dövlətinin və xalqının maraqları əleyhinə yönələn bu qurumun və onun ölkəmizdəki əlaltılarının satqınçılıq mahiyyətləri dəyişilməmiş qalıb**

“Meydan TV”nin yarandığı vaxtdan hazırkı zamana qədər yalnız anti-Azərbaycan xarakterli siyasi qüvvələrin, əsasən də erməni cinahının sifariş və təlimatlarını həyata keçirməsi kimsəyə sirr deyil. Belə faktlar kifayət qədərdir və ən təəssüfedicisi də budur ki, hətta milli dövlətçilik, ümumxalq faktorlarının olduğu yerdə bu xəyanət girdabına çevrilmiş “media ofisinin” qapısı daim düşmənlərin üzünə açıq olub. Bu TV-nin zaman-zaman işğalçı Ermənistanın mövqeyinə bəzən sətiraltı, bəzən isə açıq formada dəstək göstərməsi - misal üçün, bir vaxtlar saytında qondarma “DQR”in bayraq və xəritəsini yayması, habelə erməni QHT rəhbərləri ilə əməkdaşlıqları barədə də mediada çoxsaylı faktlar, dəlillər və sübutlar mövcuddur.





## Öz köhnə ampluasına sadiq qalaraq daxilindəki erməni sevgisini açıq-aydın büruzə verir!

Belə olan halda, iş prinsipini yalnız və yalnız Azərbaycan dövlətinin və xalqının maraqları əleyhinə yönələn “Meydan TV”nin xəyanətkar mahiyyəti dəyişilməmiş qalıb. Biz bunu işçğalçı və təcavüzkar Ermənistanın dövlət sərhədimizin Tovuz rayonu istiqamətində və digər cəbhə bölgələrimizdə törətməyə cəhd etdiyi silahlı təxribatları fonunda bir daha müşahidə etmiş olduq. Ermənilərə qucaq açan, onların bir sözünü iki etməyən bu xainlər yuvası yenə də öz köhnə ampluasına sadiq qalaraq daxilindəki erməni sevgisini aşıq-aydın büruzə verir!

Digər tərəfdən daha bir faktı da xatırlatmaq yerinə düşərdi ki, hələ 2016-cı ilin Aprel müharibəsi zamanı şanlı Azərbaycan Silahlı Qüvvələrinin zəfər yürüşü ərəfəsində ermənilər “Meydan TV”-yə istinad edərək Azərbaycanın əleyhinə qeyri-dəqiq, həqiqəti əks etdirməyən, Azərbaycanın müharibəyə hazır olmadığı fikrini təbliğ edən məlumatlar yayırdılar.

## Ermənilərin azərbaycanlıların guya müharibəyə hazır olmadıqları yönündəki təxribatçı fikrlərini ictimailəşdirən də məhz bu xainlər yuvasıdır!

Belə ki, Azərbaycanın işğal altındakı ərazilərini qaçaraq şəkildə tərk etməkdə olan erməniləri sakitləşdirmək və ermənilərdə əminlik yaratmaq üçün sözügedən kanalın yazıları bu gün də internat şəbəkələrində qalmaqdadır. Söz yox ki, həmin vaxtlarda da indi olduğu kimi, erməni sosial şəbəkə istifadəçiləri “Meydan TV”-nin səhifəsindən paylaşımlar edərək ermənilərdə ruh yüksəkliyi yaratmağa cəhd göstərirdilər. Misal üçün, xatırlada bilərik ki, Ani Marqaryan adlı erməni “facebook” sosial şəbəkəsində “Meydan TV”-nin yazısını paylaşaraq öz həmyerlilərini sakitləşdirməyə cəhd edib və onları əmin etməyə çalışıb ki, guya Azərbaycan müharibəyə hazır deyil. O cümlədən, Ani Marqaryan “Meydan TV”-yə istinadən qeyd edib ki, guya Azərbaycanda insanların hökumətə olan inamı tamamilə azalıb, iqtisadi böhrana görə azərbaycanlılar müharibəyə hazır deyillər və s. Lakin həmin vaxt onun bu təxribatı keçmədi və yalanı ifşa olundu - şanlı Aprel zəfəri və torpaqlarımızın bir qisminin işğaldan azad olunması faktı ilə.

## Ələkbər Əliyev: “Bu sayt da digər üç qurum kimi, xaricilərə tabe olan, onların direktivləri ilə oturub-duran, siyasəti tamamilə Qərbdə təyin olunan layihədir”

Başqa tərəfdən, “Meydan TV” ilə bağlı İsveçrədə yaşayan müxalif yönümlü yazar Ələkbər Əliyevin hələ ötən il adıçəkilən qurum barədə fikirlərinin bu gün də qüvvədə olmasına şübhə yaranmır. Belə ki, onun sözlərinə görə, adıçəkilən media qurumu hazırda bir sıra anti-Azərbaycan qruplarının idarəsi altındadır. Saytın və TV-nin Qərb fondlarının tabeçiliyinə keçdiyini bu günə qədər də yüksələn xətlə, yaxşı maliyyə imkanları ilə fəaliyyət göstərdiyini deyən Ə.Əliyev bildirib ki, saytın Azərbaycanla heç bir orqanik bağı yoxdur. SİTAT: “Diqqət edin bu pisdir, yaxşıdır demirəm. Qiymət vermirəm. Sadəcə olduğu kimi dilə gətirilməsini istəyirəm ki, “Meydan TV”-nin “Azadlıq Radiosu”ndan, “BBC”dən, “Amerikanın səsi”ndən heç bir fərqi yoxdur. Bu sayt da digər üç qurum kimi, xaricilərə tabe olan, onların direktivləri ilə oturub-duran, siyasəti tamamilə Qərbdə təyin olunan layihədir. Bunun deyilməməsi ədalətsizlikdir. Bu sıradan bir qrant, hansısa fonddan alınan 3-5 avro deyil, bu qədər məsum deyil yəni. Bütün bosslar tamamilə xaricilərdir”.

Yazarın sözlərindən də aydın görünür ki, bu qurum bilavasitə anti-milli qüvvə kontekstindən çıxış etməklə yanaşı, o cümlədən, xarici təşkilatların əmr quluna çevrilib. Əbəs deyil ki, bu məsələdə “Qərbdə təyin olunan layihə” fikri özəllik təşkil edir. Nəzərə alarsaq ki, bu gün məhz Qərb ölkələrində erməni lobbisinin fəaliyyəti kifayət qədərdir və lobbinin əsas siyasi maraq dairəsi Azərbaycan dövlətinin yürütdüyü qətiyyətli, güclü siyasətə qarşıdır, bu zaman “Meydan TV”dəki xarici şəxslərin siyasi direktivlərinin müəyyənləşdirilməsində, təlimatların verilməsində də bu həqiqət az rol oynamır. Ə.Əliyev bu amili önə çıxararaq, əslində reallığı tam çılpaqlığı ilə ortaya çıxarmış olub.

Ona görə də, E.Millinin adıçəkilən qurumdan getməsinin mahiyyətcə heç nəyi dəyişmədiyini iddia edən müxalifətçi yazar həmçinin bildirib ki, hətta o TV-yə və sayta rəhbərlik edəndə də asılı vəziyyətdə olub: “Emin Milli getdi, başqası gəldi - bunlar dekorasiyadır. Necə ki, bundan əvvəl Emin Milli “Meydan”-da heç nəyi həll etmirdi, bundan sonra da heç bir azərbaycanlı bu saytda heç nəyi həll etməyəcək...”

## Anti-Azərbaycan qüvvələrinin içərisində ermənilərin çox ciddi yer tutmaları artıq dəfələrlə isbata yetirilib

Bəli, bu reallıq növbəti dəfə özünü təsdiq etdi və düşmən maraqlarına nökərçilik edən bu TV-nin Azərbaycan Ordusuna, Ordumuzun cəbhədə əldə edilən uğurlarına kölgə salmaq səyləri əlbəttə ki, nəticəsiz qalacaq. Daha dəqiq desək, “Meydan TV” təkcə dezinformasiya hazırlamaqla kifayətlənmir, eyni zamanda, bu informasiyaları erməni saytlarına, ümumilikdə isə dünya mətbuatına ötürür.

Sonda isə belə nəticəyə gəlmək olar ki, bu erməni puluna işləyən və erməni çörəyi yeyən xain qurumun anti-Azərbaycan mövqelərinə son vermək və məhkəməyə müraciət etmək hələ də gec deyil. Belə ki, anti-Azərbaycan qüvvələrinin içərisində ermənilərin çox ciddi yer tutmaları artıq dəfələrlə isbata yetirilib.

## Ermənistan ordusunun 100-ə yaxın canlı itkisinin gizlədilməsi üçün sanki bəhsə-bəhsə giriblər

Daha bir məqama diqqət yetirək. Məsələ ondadır ki, Azərbaycan Ordusunun qətiyyətli mübarizəsi, düşmənə layiqli cavab verməsi ərəfəsində bir qrup satqın və şərəfi-milləti bilinməyən, Allahı tanımayan, dinsiz yığnağı yaramazlıqlar edərək, erməni dəyirmanına su tökməklə məşğul oldular. Onlar Azərbaycan Ordusunun uğurlarına kölgə salmaq, işğalçı Ermənistan ordusunun 100-ə yaxın canlı itkisinin gizlədilməsi üçün sanki bəhsə-bəhsə giriblər. Lakin bu cəhdləri də kökündən ifşa olundu və söz yox ki, bələlərini də ağır məhkəmə və hüquqi qiymət gözləyir. Buna isə kimsənin şübhəsi olmamalıdır!

*Rövşən NURƏDDİNOĞLU*

***P.S. Əgər “Meydan TV” iyulun 14-15-də ümumxalq yürüşü zamanı təxribatçılıq törədənlərin hüquqi qiymət almaları üçün polis tərəfindən saxlanıldıqlarını hay-haraylı şəkildə car çəkirsə, demək ki, bu TV-nin həmin təxribatlardan xəbəri olub və bu məsələnin daha dərindən araşdırılmasına ciddi ehtiyac var!***

---

# “Ermənistan rəhbərliyi biabırçılığı gizlətmək üçün dəridən-qabıqdan çıxır”

***“Cəbhənin Tovuz bölgəsindən həyəcanlı xəbərlər gəlməkdədir. İyulun 12-də törətdikləri təxribatın çox sərt cavabını alaraq böyük itkilərə məruz qalan düşmən son dərəcədə azğınlaşaraq, hətta kəndlərimizi top atəşinə tutublar. Artıq dinc əhalimiz arasında ölən də var. Bu, əsl faşizm və hərbi cinayətdir. Bütün varlığı ilə sərhədlərimizi pozmağa cəhd edən erməni hərbi birlikləri darmadağın edilib, onların komanda qərargahları, hərbi obyektləri, çoxlu sayda texnikası məhv edilib. 2 gün ərzində ermənilər 100-dən artıq canlı qüvvə itiriblər”. Bunu SİA-ya Yurddaş Partiyasının sədri Mayis Səfərli deyib.***

Onun sözlərinə görə, Ermənistan rəhbərliyi bu biabırçılığı geniş ictimaiyyətdən gizlətmək üçün dəridən-qabıqdan çıxır: “Hərçənd ki, başıboş baş nazir Paşinyanın nəzarətində olmayan mətbuatda və sosial şəbəkələrdə düşmənin üzləşdiyi itkilər barədə dəqiq məlumat verilir. Hətta bildirilir ki, ölkənin elə bir bölgəsi yoxdur ki, oraya əsgər meyidi gətirilməsin.

Əfsuslar olsun ki, Milli Ordumuzun da itkiləri var. Bu müharibədir. Vətən uğrunda vuruşmaq hər birimizin borcudur. Şəhid olmaq şərəflidir. Biz zabit və əsgərlərimizlə yanaşı bir



generalımızı da - Polad Həşimovu itirdik. Erməni cəlladlarına qan udduran generalımız mövqelərimizi müdafiə edərkən qəhrəmancasına həlak olmuşdur. Bu sübut edir ki,güclü Azərbaycan ordusunda xidmət edən hər bir zabitimiz,generalımız Vətən uğrunda döyüşlərdə əsgərlərimizlə çiyin - çiyinə döyüşürlər. Azərbaycan generalı arxada durub əmr vermir, o, əlində silah döyüşün ön xəttində nümunə göstərir. Allah şəhidlərimizə rəhmət eləsin,yaralılarımıza şəfa versin! Bütün dualarımız əsgərlərimizlədir! Əlbəttə ki, biz qisasımızı alacağıq, ərazi bütövlüyümüzü təmin edəcəyik.

Danışıqlar prosesində kiçik də olsa canlanmanın hiss olunduğu, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin videokonfrans formatında keçən görüşündən cəmi bir neçə gün sonra, düşmən dövlətin belə təxribata əl atmasının gerçək səbəbləri vardır. Bildiyiniz kimi, Paşinyan hakimiyyətə gələrkən aclıq və səfalətdən əziyyət çəkən xalqına çörək və iş vəd etmişdi. Amma boşboğazlığı, bacarıqsızlığı ilə yadda qalan erməni lideri vədlərini yerinə yetirə bilmədi. Pandemiya ilə mübarizədə sərgilədiyi savadsızlıq və səriştəsizlik Ermənistanı daha da pis vəziyyətə gətirib çıxardı. Düşmən ölkə əhalisinin say nisbətində virusa yoluxan və ölənlərə görə dünyada ilk yerlərdədir. Bu səbəbdən yüksələn daxili -siyasi gərginlik pik həddə çatmışdır. Geniş ictimaiyyət və müxalifət yalançı baş naziri istefaya çağırır. Görünür hoqqabaz Paşinyan xalqının artan etirazlardan yaxa qurtarmaq üçün çıxış yolunu atəşkəsi pozmaqda tapdı. Lakin görünən odur ki, o,özünü lap çıxılmaz vəziyyətə salıb.

Burda bir məsələyə xüsusi diqqət yetirməyi vacib sayıram. Bilirsiniz ki, son vaxtlar Azərbaycanın beynəlxalq mövqeləri güclənir, ölkəmizin diplomatik uğurları artır, Prezident İlhamƏliyevin irəli sürdüyü dünya miqyaslı təşəbbüslərin, Beynəlxalq Birlik və Təşkilatlar tərəfindən dəstəklənməsi, ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatının Zirvə toplantısının geniş əks - səda yaratması, dövlət başçımızın təklifi ilə BMT Baş Assambleyasının pandemiya ilə bağlı xüsusi sessiyasının keçirilməsi haqda qərar verilməsi həm Ermənistanı, həm erməni diasporu və lobbisini, həm də xaricdəki antiazərbaycan çevrələrini xüsusi narahat edir. Azərbaycanın Avropa ilə əməkdaşlığından qısqanclıq keçirən, Avropa Birliyi ilə tərəfdaşlıq haqqında yeni anlaşmalar barədə aparılan danışıqlardan təlaş keçirən qüvvələrin də Paşinyanı ruhlandırmaq ehtimalını da nəzərdən qaçırmamalıyıq. Düşünürəm ki, haqq uğrunda,ərazi bütövlüyü uğrunda ölüm - dirim savaşına girmiş Ordumuz Ali Baş Komandanımızın - Prezidentimizin rəhbərliyi və xalqımızın həmrəyliyi ilə düşməni yenəcək! Verdikləri dəstəyə görə Türkiyə Cumhuriyyətinin, Pakistanın rəhbərlərinə, ictimaiyyətinə və digər dövlətlərə də minnətdarlığımı bildirirəm”.

*Ceyhun Rasimoğlu*

# Ermənistanın hərbi təcavüzünün acı nəticələri

**_20 fevral 1988-ci il tarixli vəsatətdən sonra Ermənistan SSR-i və Dağlıq Qarabağda yaşayan ermənilər tərəfindən, Muxtar Vilayətin Azərbaycanın tərkibindən birtərəfli çıxarılmasını təmin etmək üçün, birsıra digər bəyannamə və qərarlar qəbul edilmişdir._**

Ermənistan belə bir fikirə malikdir ki, "SSRİ-nın dağılmaşından sonra keçmiş Azərbaycan Sovet Sosialist Respublikasının ərazisində iki dövlət yaradılmışdır: Azərbaycan Respublikası və Dağlıq Qarabağ Respublikası" (aşağıda DQR adlandırılacaq), "və bu iki dövlətin yaradılmasının oxşar hüquqi əsası var". Bununla yanaşı Dağlıq Qarabağın "müstəqil" olması, öz müqəddəratını təyinetmə hüququnu əks etdirən prosesin davamıdır.

Lakin, bu yanaşmanın heç bir əsası yoxdur. Azərbaycanın müstəqilliyinin bəyannaməsi ərəfəsində, Sovet hüquq sisteminə əsasən qanunsuz olan, Dağlıq Qarabağın birtərəfli qaydada, Azərbaycanın razılığı olmadan ayrılma cəhdlərinin qeyri-qanuni xarakter daşıması, Ali konstitusiya səviyyəsində təsdiq edilmişdir.

Öz müqəddəratını təyin etmək və müstəqil Azərbaycan Respublikasının tərkibindən çıxmağa yönəlmiş fikirlər, torpağların bütövlüyü haqqında ümüm gəbulolunmuş qaydalara və Azərbaycan tərəfinin xahişiilə Təhlükəsizlik Şurası və Baş Assambleyanın sənədlərində "Dövlətlərin ərazi bütövlüyünün əsasları və öz müqəddəratını təyin etmək hüququ adı ilə Ermənistanın iddiaları haqqında" hesabatda öz əksini tapmışdır.

Azərbaycan, "DQR"-ın Azərbaycan Respublikasının tərki-bindən ayrılmasına, nəinki razılıq verməmişdır (o hər zaman mütamadi olaraq, buna qarşı etiraz etmişdır) və bu günə kimi "DQR" müstəqil bir qurum kimi heç bir dövlət və beynalxalq təşkilat tərəfindən tanınmamışdır. Hətta, "DQR"-a iqtisadi, siyasi və hərbi köməklik göstərən Ermənistan belə bunu etməmişdir.

Yuxarıda qeyd olunanlardan bu qənaetə gəlmək olar ki, Ermənistanın "DQR"-in müstəqilliyi haqqında yürütdüyü mülahizələr, beynəlxalq hüquq normalarına əsaslanmır və bunun heç bir hüquqi bazası yoxdur.

1991-ci ilin sonu - 1992-ci ilin əvvəlində münaqişənin hərbi mərhələsi başlandı. Sovet İttifaqının parçalanması və Azərbaycanda daxili çəkişmələr nəticəsində yaranmış siyasi qeyri-sabitlikdən istifadə edərək, Ermənistan xarici hərbi yardımla Dağlıq Qarabağda hərbi əməliyyatlara başladı.

Ermənistan Respublikasının Azərbaycana qarşı ilk hərbi mü-daxiləsi, Azərbaycan Respublikasının müstəqillik qazanmasın-dan sonraya təsadüf edir. Belə ki, 1992-ci ilin fevral ayında, Ermənistan Respublikasının hərbi birləşmələri zirehli texnika ilə Azərbaycanın Xocalı şəhərinə hucum etmiş və nəticədə Xocalı əhalisi misli görünməmiş qırğına məruz qalmişdır.

Xocalı soyqırımı kimi tanınmış bu qanlı faciə minlərlə azər-baycanlının məhv edilməsi yaxud əsir düşməsi ilə nəticələnmiş, şəhər yerlə-yeksan edilmişdir. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri keçmiş SSRİ-nin 366 saylı motoatıcı alayının köməyi ilə Xocalını ələ keçirdilər. Faciəvi gecəyədək şəhərdə qalmış Xocalı sakinləri (təxminən 2 500 nəfər) hücum başlayandan sonra azərbaycanlıların yaşadığı ən yaxın yerə yol tapmaq ümidi ilə evlərini tərk etməyə cəhd göstərdilər, lakin onların planları puça çıxdı. İşğalçılar Xocalını dağıtdılar və dinc əhalini xüsusi qəddarlıqla qətlə yetirdilər. Xo-calının yüzlərlə günahsız sakininin qəddarcasına qətlə yetiril-məsi Ermənistan-Azərbaycan münaqişəsi zamanı törədilmiş ən iyrənc cinayətlərdən biri idi. Erməni silahlı qüvvələri və xarici hərbi hissələrin Xocalı və ətraf əraziləri tərk etmək iqtidarında olmayanların, demək olar, heç birinə rəhmi gəlmədi. Nəticədə 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca öldürülmüşdür. 1275 nəfər girov götürülmüş, 150 nəfərin taleyi isə bu günədək naməlum olaraq qalmaqdadır.

Həlak olanların 56 nəfəri xüsusi qəddarlıqla qətlə yetirilmişdir: diri-diri yandırılmış, başının dərisi tükü ilə birlikdə soyulmuş, boynu vurulmuş, gözləri çıxarılmış və hamilə qadınların qarnı süngülənmişdir.

Həmin gecə, hətta uşaqlar amansızcasına qətlə yetirildilər. Əhalinin qəsdən öldürülməsi faktı bir daşa sübut edirdi ki,25-26 fevral 1992-ci il tarixdə Xocalıda törədilən kütləvi insan qırğını ancaq ona görə idi ki,onlar azərbaycanli idi. Xocalı şəhəri Azərbaycan ərazisinin ardımlı işğalına və etnik təmizləməsinə qarşı ilk addım kimi seçilmişdir. Bu dəhşətli soyqırımın məqsədi in-sanların qəlbində qorxu yaratmaq, vahimə və panika yaymaq idi.

1992-ci ilin may ayında Şuşa şəhəri və Ermənistanla Dağlıq Qarabağ arasında yerləşən Laçın rayonu işğal edilmişdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı daha altı rayonunu - Kəlbəcər, Ağdam, Fü-zuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etdilər

1980-ci illərin sonlarında Ermənistan, Azərbaycana qarşi öz ərazi iddialarını irəli sürməyə başladı. Bununla yanaşı, Azərbaycan Respublikasının ərazisi olan, Dağlıq Qarabağ bölgəsində hərbi əməliyyatlara başlayan erməni terrorist təşkilatı kimi tanınan (ASALA), erməni soyqırımına qarşi ədalət döyüşçüləri və erməni ingilab ordusu adlı təşkilatlar, öz mərkəzlərini - yaxın 1988-ci ildən erməni siyasətçiləri və onların himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndində və Yerevanda davamlı tətillər keçirilərək.

DQMV-nin azərbaycanlı əhalisinə qarşı silahlı təcavüz oldu. Belə ki, avqustun axırı və sentyabrın əvvəllərində Kərkicahan və Xocalı üzərinə ermənilərin kütləvi hücumu baş verdi. Sentyabrın 18-də ermənilər Xankəndində yaşayan 15 minə qədər azərbaycanlını şəhərdən zorakılıqla çıxardılar, onların evləri yandırıldı, özlərini isə 1-də DQMV-nin Ermənistan SSR-lə birləşdirilməsi haqqında Konstitusiyaya Şuşa və ətraf rayonlara köçməyə məcbur etdilər. 1988-ci il sentyabrın 21-də DQMV-də xüsusi vəziyyət elan edildi və qadağan saatı qoyuldu. Ermənistanda zorakılıq daha da genişləndi, Dağlıq Qarabağ və Ermənistanda yaşayan azərbaycanlılar kütləvi şəkildə öz doğma yurdlarından qovuldular. 1989-cu ilin yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyəti DQMV-də xüsusi idarə formasını tətbiq etdi. Həmin fərmanla DQMV-də bilavasitə SSRİ-nin ali dövlət hakimiyyəti və idarə orqanlarına tabe olan Xüsusi İdarə Komitəsi yaradıldı . Xüsusi İdarə Komitəsi DQMV-də vəziyyət daha da kəskinləşdirdi. Komitənin sədri A.İ. Volski vəziyyəti daha da gərginləşdirdi, az müddət ərzində vilayətin idarə və müəssisələrinin demək olar ki, hamısı Azərbaycanın tabeliyindən çıxarılaraq mərkəzin tabeliyinə keçirildi. Bütün sənədlərdə DQMV Azərbaycanın tərkibindən çıxarılmışdı Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi . Azərbaycanın bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistanın bayrağı və gerbi qaldırıldı. 1988-1991-ci illərdə Ermənistan Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeritdi.Bu illər ərzində Dağlıq Qarabağda ermənilər tərəfindən törədilmiş 2559 toqquşma, 315 silahlı basqın, 1388 atəşə tutma halları qeyd alınmışdır ki, bunların da nəticəsində 514 nəfər həlak olmuş, 1318 nəfər yaralanmışdır.

1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan ordusu bir-birinin ardınca yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdilər. Belə ki, fevral ayının 12-də Şuşanın Malıbəyli və Quşçular kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olundu. Hücum zamanı 100-dən çox azərbaycanlı öldürülmüş, 140-dan çoxu yaralanmış və əsir götürülmüşdür. Bu qanlı hadisələr Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirilmişdir. Fevralın 13-dən 17-dək isə ermənilərin Xocavənd rayonunun Qaradağlı kəndinə hücumu nəticəsində 92 nəfər öldürülərək silos quyusuna atılmış, 117 nəfər kənd əhalisi girov götürülmüş və sonradan onların 77 nəfəri amansızlıqla qətlə yetirilmişdir 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən Rusiyanın 366-cı motoatıcı alayının 180 nəfər hərbi mütəxəssisi və ağır texnikanın iştirakı ilə Xocalı şəhərinə hücum edərək şəhəri yerlə-yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdıldı, yandırıldı və insanlar xüsusi qəddarlıqla qətlə yetirildi. Bu soyqırım nəticəsində 613 nəfər öldürüldü, 487 nəfər şikəst oldu, 1275 nəfər əsir götürüldü və 150 nəfər itkin düşdü Xocalıya hücum zamanı 366-cı motoatıcı alayının 3-cü batalyonunda 50-dən çox erməni zabiti və gizirləri iştirak etmişdir. Xocalı soyqırımında izləri itirmək üçün 1992-ci il martın 2-də ruslara məxsus olan 366-cı motoatıcı alay Gürcüstanın Vaziani şəhərinə köçürüldü, martın 10- da isə marşal Şapoşnikovun əmri ilə həmin alay ləğv edilərək tərkibi başqa alaylara paylandı 1992-ci il mayın 8-də İranın təşəbbüsü ilə Tehranda Azərbaycan və Ermənistan rəhbərləri arasında üçtərəfli görüş keçirildi. Sonralar aydın oldu ki, görüş zamanı Azərbaycan-Ermənistan sərhədi boyu və Qarabağın dağlıq hissəsində atəşin dayandırılmasından erməni tərəfi əslində başqa məqsəd güdürmüş. Məhz bu görüş Ermənistana beynəlxalq ictimaiyyətdən öz niyyətlərini gizlətmək üçün lazım idi.

Heç şübhəsiz ki, Ermənistan rəhbərliyi hazırlanmış hücum əməliyyatından əvvəlcədən xəbərdar olmuşdur. Çünki, Şuşanın işğalı Ermənistan rəhbərliyinin Tehranda danışıqlar apardığı, atəşi dayandırmağı tələb etdiyi vaxtla üst-üstə düşür və bağlanan sülh müqaviləsi mürəkkəbin quruduğu ana qədər qüvvədə qalmışdır. Bununla yanaşı, ermənilər həmişə olduğu kimi, hücum ərəfəsində bütün dünyaya Şuşadan Xankəndinə güclü hücumlar edilməsi barədə dezinformasiya yaymışdılar.

Beləliklə, ən müasir texnika hesabına 289 km2 ərazisi, 24 000 nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğrunda döyüşlərdə 155 nəfər şəhid oldu, 167 nəfər isə yaralandı. Ermənilər tərəfindən əsir götürülmüş və Şuşa türməsində saxlanılan 114 nəfər azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirildi Bu hadisə mütəmadi şəkildə BMT Nizamnaməsini və ATƏT-in prinsiplərini kobud şəkildə pozaraq Qarabağın dağlıq hissəsini zorla Ermənistana ilhaq etməyə çalışan Ermənistan hökumətinin beynəlxalq hüquq normaları ilə bir araya sığmayan və təcavüzkar siyasətinə sadiq qaldığını bir daha təsdiq etdi. Şuşanı ələ keçirməklə Ermənistan bu problemi yalnız hərbi-taktiki baxımdan həll etmiş oldu. Problemin siyasi həlli isə getdikcə dərinləşərək çətin məcraya salındı. Məhz Şuşanın işğalı sonralar digər Azərbaycan ərazilərinin itirilməsində əsas rol oynadı. Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi Şuşa şəhərinin işğalından sonra, erməni hərbi qüvvələri Şuşa-Laçın yolunu bağlayaraq birbaşa Ermənistan Respublikası ərazisindən Laçın şəhərini güclü top atəşinə tutdular.

Erməni hərbi qüvvələrinin məqsədi işğal etdikləri Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan Respublikasına birləşdirmək üçün onların arasında dəhliz açmaq idi. Şuşa işğal edildikdən az sonra, ermənilər qısa müddət ərzində, yəni mayın 18-də iki respublikanın arasında yerləşən qədim Azərbaycan şəhəri Laçını da zəbt etdilər. Nəticədə, 1385 km2 ərazisi, 71 000 nəfər əhalisi və 120 kəndi olan Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu Heç şübhəsiz ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməni icması, hətta istəsəydi belə, kənardan çox böyük kömək olmadan Azərbaycan ərazilərini işğal edə bilməzdi. Beləliklə, "öz müqəddəratını təyin etmək" ideyasını reallaşdırmaq adı altında Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistanla birləşdirən dəhliz silah gücünə ələ keçirildi. Laçının işğalı müharibənin Dağlıq Qarabağ hüdudlarından çıxdığını və Ermənistanın hərbi işğalçılıq niyyətinin böyük olduğunu göstərdi. Ermənilərin "humanitar dəhliz" adlandırdığı bu yol ilə Dağlıq Qarabağa külli miqdarda silah, döyüş sursatı və hərbi qüvvə gətirildi.

Nəticədə, 1993-cü il ərzində Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4,4 min km2 ) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Bütün bu ərazilər ermənilər tərəfindən etnik təmizləməyə məruz qalmışdır. Belə ki, Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağın 120 min nəfərlik erməni icmasının öz müqəddəratını təyin etmək cəhdi kimi qələmə verdiyi bu proses Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhalinin (ümumi əhalinin 15%-i) öz torpağında qaçqın vəziyyətinə düşməsinə gətirib çıxartdı. İşğal nəticəsində 900-ə yaxın yaşayış məntəqəsi dağıdılmış, talan edilmiş və yandırılmışdır.

Hazırda Azərbaycan ərazisinin 20%-dən çox (17 min km^) hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfər azərbaycanlı həlak olmuş, 100 000 nəfər yaralanmışdır.

**_Vahid Ömərov f.ü.f.d.dos._**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

16 iyul

Son səhifə


## Arda Turana Almaniyadan təklif



Türkiyə milli komandasının sabiq üzvü Arda Turana daha bir klubun maraq dairəsindədir. Qol.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, Almaniyanın "Hannover" klubu 33 yaşlı yarımmüdafiəçini heyətinə qatmaq istəyir. 2-ci Bundesliqa təmsilçisinin yaxın günlərdə Ardayla danışıqlara başlayacağı bildirilir. Qeyd edək ki, hazırda azad agent statusu daşıyan Arda Turanın adı "Qalatasaray"la da hallanır.

## Qvardiola Mourinyo və Kloppu "bombaladı"



***"Əgər danışmaq istəsələr, mən buradayam. Hökm üç müstəqil hakim tərəfindən elan edildi". Qol.az xəbər verir ki, bu sözləri "Sky Sports"a açıqlamasında "Mançester Siti"nin baş məşqçisi Pep Qvardiola deyib. İspaniyalı mütəxəssis komandasının 2 mövsümlük Çempionlar Liqasından kənarlaşdırılma cəzasının ləğvi ilə bağlı qərarı tənqid edən Joze Mourinyo və Yurgen Kloppun cavabını verib:***

"Bunu müzakirə etmək istəsələr, mənim telefon nömrəm onlarda var. Mənə zəng edə bilərlər və hər şeyi onlara izah edərəm. Problem deyil. Amma hesab edirəm ki, qərar aydın olduğu üçün nəsə müzakirə etməyimizin mənası yoxdur. Yalan və saxtakarlıqla bağlı fərziyyələr həqiqətə uyğun deyildi. Biz təmiz idik. Səhv etsəydik, CAS lazım olan qərarl verərdi. Özümümüzü müdafiə etdik və doğru olan qərar verildi".

## Evdən pul və qızıl-zinət əşyaları oğurlandı

Oğurluq etdiyinə görə tutulmuş B.Bəşirovun Sabirabad rayonu ərazisindəki evlərin birindən oğurluq etməsi də müəyyən edilib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, oğurluq etdiyinə görə tutulmuş B.Bəşirovun ətrafında Sabirabad RPŞ-nin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun rayon ərazisindəki evlərin birindən 800 manat pul və qızıl-zinət əşyaları oğurlaması da müəyyən edilib.



## Hər gün bir dilim pendir yemək orqanizmi infarktdan müdafiə edir



***Tədqiqatların nəticələri göstərir ki, hər gün pendir yemək infarktın əmələgəlmə riskini azaldır. Redinq Universitetindən olan alimlərin "European Journal of Nutrition" jurnalında dərc edilən məlumatlarına görə, hər gün bir dilim pendir orqanizmin infarktdan müdafiəsini gücləndirir. Belə ki, əksər hallarda bu vərdiş ürək tutmaları ehtimalını 14 faiz azaldır.***

Aparılan eksperiment zamanı iştirakçılar iki qrupa bölünüb. Alimlərin tapşırığı ilə hər gün az miqdarda pendir yeyən adamlar bir qrupa, öz tərzində qidalananlar isə digər qrupa salınıb. Nəticədə, hər gün 40 qram pendir qəbul edən könüllülərdə tibbi müayinə zamanı orqanizmin damar patologiyalarından daha yaxşı müdafiəsi müşahidə olunub.

Alimlər izah ediblər ki, "pendir" qrupunda olan insanların orqanizmində "müsbət" xolesterinin miqdarı artıb və eyni zamanda, "mənfi" xolesterinin miqdarı azalıb. Bu xüsusiyyəti şərh edən tədqiqatçılar bildiriblər ki, pendirin tərkibi vitaminlərlə, minerallarla və zülallarla zəngindir. Bu, ürək-damar xəstəliklərindən müdafiə olunmağa kömək edir. Pendir, həmçinin maddələr mübadiləsini yaxşılaşdıran yüksək dozalı kalsiumla da zəngindir.

Pendirin orqanizmin damar sisteminə müsbət təsiri barədə oxşar nəticəyə MakMaster Universitetindən olan elmi mütəxəssislər də gəliblər. Onlar dünyanın 21 ölkəsindən yaşı 35-dən 70-dək olan 130 min insanın sağlamlığı və həyat tərzi barədə məlumatları təhlil ediblər. Bu alimlər müəyyən ediblər ki, emal olunmuş süddən yoqurt şəklində hazırlanmış məhsulun hər gün iki porsiya qəbulu ürək-damar xəstəlikləri və erkən ölüm riskinin azalmasına kömək edir.

## İranda koronavirusdan bir gündə 199 nəfər ölüb



İran koronavirusun yayılmasının ikinci dalğasını yaşayır. Bu sözləri İran Prezidenti Həsən Ruhani Nazirlər Kabinetinin iclasında deyib. O bildirib ki, birinci dalğa İranın şimal və mərkəzi vilayətlərində olub. İkinci dalğa isə İranın cənub bölgəsini daha çox vurub. Prezident vətəndaşları tətbiq olunan qadağalar əməl etməyə çağırıb. İranın Səhiyyə Nazirliyinin yaydığı məlumata əsasən, son 24 saat ərzində 2 min 338 nəfər virusa yoluxub, 199 nəfər isə vəfat edib. Bununla da İranda yoluxanların ümumi sayı 264 min 561 nəfərə, ölənlərin sayı isə 13 min 410-a çatıb.

## Avtomobil velosiped sürən 4 yaşlı uşağı vuraraq öldürüb



Cəlilabad rayonunun Sabirabad kəndi ərazisində yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, iyulun 13-də saat 16 radələrində Cəlilabad rayonunun Sabirabad kəndi ərazisində kənd sakini M.Məmmədov idarə etdiyi "Mercedes" markalı avtomobillə yolun kənarı ilə velosiped sürən 4 yaşlı Yusif Məmmədovu vurub. Uşaq xəstəxanaya aparılarkən yolda ölüb. Cəlilabad RPŞ tərəfindən araşdırma aparılır.

## Başsağlığı

Jalə Əfəndiyeva, Rəna Sultanova, Yeganə Şıxəliyeva, Gülsüm Əfəndiyeva Azərbaycan Dəmir Yolları Həkim Sanitar Xidməti, yol sanitar karantin müfəttişliyinin həkim epidemioloqu-Yükdaşımalarına nəzarət şöbəsinin müdiri Latışova Tatyana Vladimirovnanın keçirdiyi ağır xəstəliyi səbəbi ilə vəfatından kədərləndiyini bildirir, yaxınlarına və bütün sevənlərinə dərin hüznlə baş sağlığı verirlər.

***Allah rəhmət eləsin!***


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600